**“Statistika xəbərləri” elmi-praktik jurnalının redaksiya heyəti**


**Baş redaktor**

| | |
|---|---|
| **Sakit YAQUBOV** | iqtisad elmləri doktoru, professor |

**Redaksiya heyəti:**

| | |
|---|---|
| **Ziyad SƏMƏDZADƏ** | iqtisad elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü |
| **Səlim MÜSLÜMOV** | iqtisad elmləri doktoru, professor |
| **Şahin SADIQOV** | iqtisad elmləri doktoru, professor |
| **Ədalət MURADOV** | iqtisad elmləri doktoru, professor |
| **Vahid NOVRUZOV** | iqtisad elmləri doktoru, professor |
| **Nazim İMANOV** | iqtisad elmləri doktoru, professor |
| **Süleyman QASIMOV** | iqtisad elmləri doktoru, professor |
| **Tahir BUDAQOV** | tibb üzrə fəlsəfə doktoru |
| **Azər ƏMİRASLANOV** | iqtisad üzrə fəlsəfə doktoru |
| **Mehman TAĞIYEV** | iqtisad üzrə fəlsəfə doktoru |
| **Saleh MÖVLAMOV** | iqtisad üzrə fəlsəfə doktoru |
| **Alxan MANSUROV** | məsul katib |

**Editorial Staff of scientific-practical**

**journal "Statistica kheberleri"**

**Editor-in-Chief**

| | |
|---|---|
| **Sakit YAGUBOV** | Professor, Doctor of Science Economics |

**Editorial Staff:**

| | |
|---|---|
| **Ziyad SAMADZADE** | Doctor of Science Economics,<br>Active member of Azerbaijan National Academy of Sciences |
| **Salim MUSLUMOV** | Doctor of Science Economics, Professor |
| **Shahin SADIGOV** | Doctor of Science Economics, Professor |
| **Adalat MURADOV** | Doctor of Science Economics, Professor |
| **Vahid NOVRUZOV** | Doctor of Science Economics, Professor |
| **Nazim İMANOV** | Doctor of Science Economics, Professor |
| **Suleyman GASIMOV** | Doctor of Science Economics, Professor |
| **Tahir BUDAGOV** | PhD in Medicine |
| **Azer AMIRASLANOV** | PhD in Economics |
| **Mehman TAGIYEV** | PhD in Economics |
| **Saleh MOVLAMOV** | PhD in Economics |
| **Alkhan MANSUROV** | Managing Secretary |

## *“Statistika xəbərləri” elmi-praktik jurnalının rubrikaları*

Statistikanın inkişaf strategiyası və taktikası

Statistik təsnifatlar, standartlar və registrlər

Statistik müşahidə metodları

Statistik məlumatların toplanması, işlənməsi, saxlanması və yayılması texnologiyası

İnformasiya şəbəkəsi, məlumat bazası, məlumat bankları

Statistik informasiya sisteminin təkmilləşdirilməsi

Milli hesablar sistemi

Statistik tədqiqatlar

Statistika sahəsində beynəlxalq əməkdaşlıq

Statistika: xronika, informasiya

Biblioqrafiya: yeni nəşrlər

Oxucuların rəy və təklifləri

Statistika: rəsmi sənədlər

Statistika: metodoloji təminat (metodoloji əlavələr)

Statistika: faktlar və proqnozlar (statistik əlavələr)

## Mündəricat


**səh.**

"2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı........................................................5

"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı.......6

**İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR**

***Fazil Hacıyev***
Azərbaycanda innovasiyalı sahibkarlıq fəaliyyətinin təhlili və audit qiymətləndirilməsi............8

***Rasim Həsənov***
Azərbaycan iqtisadiyyatında davamlı inkişafın sosial çağırışları və sosial keyfiyyət modelinin formalaşdırılması vəzifələri..........................................................................................18

***Eldar Quliyev***
İnformasiya texnologiyaları bazarı və onun marketinq tədqiqinə yeni yanaşmalar...................26

***Səadət Rəhimova, Təmraz Təmrazov***
Əhalinin təbii artımına gender disproporsiyasının təsiri...........................................................37

***Cəlil Quliyev, Rza Allahverdiyev***
Azərbaycanda demoqrafik proseslərdə və əhalinin məşğulluğunda baş verən dəyişiklikləri xarakterizə edən statistik göstəricilərin təhlili və qiymətləndirilməsi.......................................47

***Anar Əliyev***
Tikinti statistikası sahəsində əsas iqtisadi göstəricilər və onların təhlili...................................58

***Rauf Əliyev***
Ziyarətçi axınlarının statistik öyrənilməsi...................................................................................66

**STATİSTİK STANDARTLAR VƏ REGİSTRLƏR**

***Qasım Əliyev, Toğrul Əcəlov***
Rəsmi statistik məlumatların istehsalında inzibati məlumatların rolu......................................76

**METODOLOGİYA**

***Zərifə Nağıyeva, Saleh Mövlamov***
Kənd təsərrüfatı statistikası üzrə seçmə müayinənin təşkili......................................................86

2016-cı ilin doqquz ayı üzrə ölkənin makroiqtisadi göstəriciləri..............................................99

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin yeni rəsmi nəşrləri..........................101

2016-cı ildə "Statistika xəbərləri" jurnalında dərc olunmuş məqalələrin mövzu-əlifba üzrə siyahısı.................................................................................................................................110

# 2019-cu İLDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA ƏHALİNİN SİYAHIYAALINMASININ KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasında əhalinin növbəti siyahıyaalınması 2019-cu il 1-10 oktyabr tarixlərində keçirilsin.
2. Əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə həvalə edilsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. 2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planını iki ay müddətində təsdiq etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 sentyabr 2016-cı il
№ 1040

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**
**QƏRAR**
**№ 346**

**Bakı şəhəri, 15 sentyabr 2016-cı il**
**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında**

"Statistika haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" "Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 fevral tarixli 360 nömrəli Fərmanının 2.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının səlahiyyət müddətinin bitdiyini nəzərə alaraq, onun yeni tərkibi təsdiq edilsin:

**Şuranın sədri**

| | |
|---|---|
| Budaqov Tahir Yaqub oğlu | - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri |

**Şuranın üzvləri:**

| | |
|---|---|
| Şirinov Fikrət Həsənqulu oğlu | - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Aparatının vergi siyasəti və gəlirlər şöbəsinin müdiri |
| Quliyev Cəmaləddin Əlibala oğlu | - Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Aparatının iqtisadi və sosial sahələrin inkişafı şöbəsinin müdiri |
| Cəbrayıl Fərid Zəbiyulla oğlu | - Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi Risklərinin Təhlili və Nəzarəti Baş İdarəsinin rəis müavini |
| Əhmədov Əzizağa Nəriman oğlu | -Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin gömrük statistikasının təşkili və təhlili şöbəsinin rəisi |
| İsmayılov Fəxri Yaşar oğlu | - Azərbaycan Respublikası Mərkəzi Bankının Statistika Departamentinin direktoru |
| Tağıyev Çingiz Həsən oğlu | - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının zəhmətkeşlərin əməyinin və sosial-iqtisadi mənafelərinin müdafiəsi üzrə şöbəsinin müdiri |

| | |
|---|---|
| Səmədov Faiq Mədət oğlu | - Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Baş Katibinin müavini |
| İsaxanlı Hamlet Abdulla oğlu | - "Xəzər" Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri |
| Yaqubov Sakit Məmədi oğlu | - Azərbaycan Dövlət İqtisad Universitetinin "Statistika" kafedrasının müdiri |
| Muradov Allahyar Niyaz oğlu | - Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini |
| İsmayılov Dağbəyi Mirzəxan oğlu | - Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTAc) Baş direktorunun müavini |
| Hacıverdiyev Əşrəfağa Əliağa oğlu | - "Bakı Universal Maşınqayırma" Məhdud Məsuliyyətli Cəmiyyətinin Baş direktoru |
| Quliyev Aydın Alqulu oğlu | - "Bakı-Xəbər" qəzetinin Baş redaktoru |
| Nuriyev Əliməmməd Mali oğlu | - Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü |

**Şuranın katibi**

| | |
|---|---|
| Sadıqlı Şahin Əlibala oğlu | - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin baş məsləhətçisi |

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**

# AZƏRBAYCANDA İNNOVASİYALI SAHİBKARLIQ FƏALİYYƏTİNİN TƏHLİLİ VƏ AUDİT QİYMƏTLƏNDİRİLMƏSİ

***Fazil Hacıyev***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*"Mühasibat uçotu və audit" kafedrası, iqtisad üzrə elmlər doktoru*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: fazilhaciyev@yahoo.com*

**Açar sözlər:** Azərbaycan iqtisadiyyatı, iqtisadi islahatlar, investisiyalar, vergi mexanizmi, innovasiyalar, sahibkarlıq fəaliyyətinin təhlili, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması.
**Ключевые слова**: экономика Азербайджана, экономические реформы, инвестиции, налоговый механизм, инновации, анализ предпринимательской деятельности, стимулирование предпринимательской деятельности.
**Keywords:** Azerbaijan economy, economic reforms, investments, tax mechanism, innovation, analysis of activity of entrepreneur, stimulating entrepreneurial activity

## 1. Giriş

Sahibkarlığın inkişafı üçün əlverişli sosial-iqtisadi və hüquqi mühitin formalaşması, zəngin xammal ehtiyatlarının, sərbəst işçi qüvvəsinin və intelektual potensialın mövcudluğu və əhalinin sənət vərdişlərinə malik olması, əlverişli coğrafi mövqe Azərbaycan Respublikasında sahibkarlığın inkişaf etdirilməsinin xarakterik cəhətlərini təşkil edir.

Qeyd etmək lazımdır ki, dövlət başçısının "Ölkənin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq, biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər bu gün, xüsusilə böyük əhəmiyyət daşıyır. Belə ki, Azərbaycan hökuməti bazar iqtisadiyyatına keçid dövründən başlayaraq, sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir. Belə tədbirlərdən biri də bu sahədə qanunvericilik bazasının formalaşdırılması və təkmilləşdirilməsi olmuşdur. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət yardımının göstərilməsinin zəruriliyi onların cəmiyyətin sosial-iqtisadi problemlərinin həllində vacib alətlərdən biri olduğundan irəli gəlmişdir. 1999-cu ildə qəbul edilmiş "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununda kiçik sahibkarlıq subyektlərinə dövlət köməyinin istiqamətləri müəyyən edilmişdir. Bu baxımdan, ölkə iqtisadiyyatının inkişafı üçün çox zəruri olan innovasiyalı sahibkarlıq fəaliyyətinin inkişafı və onların stimullaşdırılması mühüm əhəmiyyət kəsb edir [7]. Ümumiyyətlə, milli sahibkarlığın formalaşması və inkişaf etdirilməsi Azərbaycan Respublikasının iqtisadi siyasətinin və bazar iqtisadiyyatının əsas prioritet istiqamətlərindəndir. Ölkənin makroiqtisadi göstəricilərinin sabitləşməsi yeni iş yerlərinin açılmasında, daxili bazarın yerli xammala əsaslanan məhsullarla, o cümlədən ərzaq məhsulları ilə təminatının, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında və digər iqtisadi probemlərin həlli prosesində sahibkarlığın inkişafı və onların stimullaşdırılması böyük əhəmiyyətə malikdir.

## 2. Sahibkarlıq fəaliyyətinin nəzəri əsasları

Sahibkarlıq haqqında təlimlər iqtisad elminin klassiklərindən başlayaraq, müasir dövrün bir çox tanınmış iqtisadçı alimlərinin tədqiqatlarında xüsusi yer tutmaqdadır. Belə uzun müddət ərzində bu mövzunun öz aktuallığını itirməməsi sahibkarlığın sosial-iqtisadi inkişafındakı əhəmiyyətli roluna əyani sübutdur.

Sahibkarlıq fəaliyyəti iqtisadi fəallığın digər növlərindən özünəməxsus iqtisadi, hüquqi, sosial və psixoloji kökləri ilə fərqlənir. Sahibkarlıq haqqında nəzəri fikirlərdə fərqli baxışların, bəzən bir-birinə tam zidd olan mülahizələrin mövcudluğunu sahibkarlığın mürəkkəb və dinamik

sosial-iqtisadi proses olması ilə izah etmək olar.

Sahibkarlıq - məsuliyyəti öz üzərinə götürməklə həyata keçirilən fəaliyyətdir. Sahibkarlıq subyektləri ayrı-ayrı vətəndaşlar, yaxud da onların müəyyən birliyi (sahibkar kollektivi) ola bilər. Sahibkarlıq fəaliyyətinin nəzəri əsasları hələ XVIII-XIX əsrlərdə qoyulmuşdur. Bunun ilk yaradıcıları - P.Kantilyon, A.Tyurbo, F.Kene, J.Sey, sonralar onların davamçıları - K.Marks, A.Marşal, J.Şumpeter, F.Hayek, L.Mizes, İ.Kirsner, M.Veber, V.Zombart, P.Draker, A.Çaynov və başqaları olmuşdur.

İngilis iqtisadçısı Adam Smit sahibkarı mənfəət əldə etmək üçün iqtisadi risklə bağlı olan hər hansı ideyanı həyata keçirən kapital sahibi kimi təqdim etmişdir. J.Keynsə görə isə sahibkarlıq fəaliyyətinin inkişafının əsasını qənaət deyil, gəlir təşkil edir [9].

Deməli, sahibkar - qazanc əldəetmə məqsədilə başqalarının ehtiyacını ödəyə biləcək mallar (iş və xidmətlər) istehsal etməyə çalışan və bu məqsədlə də istehsal amillərini bir araya gətirməyi bacaran bir şəxsdir. Xalq dilində sahibkar iş adamı, işi bilən, bacaran, cəsur, tutduğu işi layiqincə yerinə yetirən, işə ürəkdən girişə bilən bir adam kimi nəzərdə tutulur. İqtisadçılar sahibkarı istehsal amillərindən biri kimi qiymətləndirirlər. Mal və xidməti istehsal edib ortaya çıxarmaq üçün təbii sərvətlər, əmək, sərmayə və sahibkar amillərinin bir araya gəlmələrini qeyd edirlər. Yəni təbii sərvətləri, əməyi və sərmayəni bir araya gətirib mal və xidmətlər istehsal edən, istehsal olunmuş malı və xidmətləri bazara çıxarıb satan şəxs sahibkardır. Onlar bütün bu işlərin sonunda qazanc əldə etməyi düşünürlər. Göründüyü kimi, sahibkar öz şəxsi məqsədinə çatmaq üçün bir təşkilat quran və bu işdə son məqsədinə çatmaq üçün risqə getməyə hazır olan şəxsdir.

Başqalarına görə sahibkar mal və xidmət satmaq işlərində sahib olduğu sərmayəni təhlükəyə qoymaq və ya başqasının sərmayəsindən istifadə etmək məcburiyyətində olur. O həm tək başına, həm də başqasının əməyindən istifadə edərək çalışa bilər və məqsədinə çatması üçün sahibkar insanların ehtiyaclarını, onların zövqlərini və imkanlarını da qiymətləndirməyi bacarmalıdır. Xüsusilə o, mövcud istehsal şəraiti ilə kifayətlənməyib yeni daha mütərəqqi yollarla istehsal etmək bacarığına malik olmalıdır. O, məqsədyönlü fəaliyyətini həyata keçirmək üçün bir təşkilat: səhmdar cəmiyyəti, firma, şirkət və s. qurub və onu müvəffəqiyyətlə idarə etməyə çalışır, əks tədqirdə ziyanla rastlaşa bilər. Sahibkarlığın fəaliyyət dairəsi çox genişdir. O, təkcə bir sahədə deyil, bir neçə sahədə də çalışa bilər. Təşkilatı özü, eləcə də başqası idarə edə bilər.

Ümumiyyətlə, sahibkarların başlıca funksiyası: a) riski öz üzərinə almaq və b) mal və xidmət istehsal etmək məqsədilə istehsal amillərini bir araya gətirərək insanların ehtiyaclarını ödəməkdir. Bu ikinci funksiya idarəetmə funksiyasıdır. Deməli, sahibkar həm də idarəedicidir.

Azərbaycanda sahibkarlıq fəaliyyətinin nəzəri əsaslarını tədqiq edərkən onu sistemli şəkildə öyrənmək lazımdır. Ona görə ki, Azərbaycanda sahibkarlıq fəaliyyətinin genişlənməsinə sosial-iqtisadi islahatlardan irəli gələn meyar kimi baxmaq lazımdır. Ölkədə sahibkarlıq fəaliyyətinin rəqabətqabiliyyətlilik və effektivlik bazasında inkişaf etməsinin səmərəliliyi baxımından inteqrasiyası, təsərrüfat əlaqələri əsasında ixtisaslaşdırılması, əhalinin tələbatının ödənilməsində xüsusi çəkiyə malik olması, əmək ehtiyatlarından sosial effekt kompleksində istifadəsi müasir dövrdə dövlətin köməyi və nəzarəti olmadan həlli çətin görünür.

### 3. İnnovasiyalı sahibkarlıq fəaliyyətinin təhlili

Müasir dövrdə bazar iqtisadiyyatı ölkələrində sahibkarlığın ən geniş yayılmış formalarından biri innovasiyalı sahibkarlıqdır. Təşkilatların və təsərrüfat subyektlərinin modelləşdirilməsi, müasir və mütərəqqi texnologiyanın tətbiqi nəticəsində bazarda rəqabətə davam gətirə bilər. Məhsulların istehsalı innovasiyalı sahibkarlıq fəaliyyətindən çox asılıdır. Belə ki, inkişaf etmiş ölkələrdə elmi-texniki tərəqqinin inkişafı innovasiyalı sahibkarlıqla bağlıdır. Bu baxımdan, biz hamımız son zamanlar Azərbaycan iqtisadiyyatında baş verən müsbət dəyişikliklərin, mərhələ-mərhələ və məqsədyönlü şəkildə aparılan sosial-iqtisadi islahatların şahidiyik. Kiçik və orta sahibkarlığın formalaşması və inkişafı öz əksini dövlət proqramlarında tapmışdır. Azərbaycanda sahibkarlığın inkişafına dövlət himayəsinin artması, sahibkarlığın artmasına mane olan əsassız müdaxilələrin qarşısının alınması, vergi və gömrük qanunvericiliyinin təkmilləşdirilməsinin, lisenziyalaşdırılan fəaliyyət növlərinin siyahısının qısaldılması və digər tədbirlər ölkə rəhbərliyinin bu sahəyə böyük əhəmiyyət kəsb edən diqqətinin bariz təzahürüdür.

Qeyd etmək lazımdır ki, ölkədə sahibkarlıq faəliyyətini yaxşılaşdırmaq məqsədilə atılan addımların davamı olaraq, biznes fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqanlara şikayətlərin verilməsi mexanizminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında, eləcə də mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuraları, biznes mühitində şəffaflığın təmin edilməsi, maliyyə - vergi sisteminin inkişafının təmin olunması məqsədilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılmışdır. Bunlara əsasən sahibkarlar yerli və mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qərarlarından, hərəkət və hərəkətsizliyindən narazı qaldıqları tədqirdə Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına müraciət edə biləcəklər ki, bu da mərkəzi icra hakimiyyətindəki müvafiq instansiyaların sahibkarların hüquqlarının qorunması sahəsində məsuliyyətini bir qədər də artıracaqdır.

Hazırda ölkədə sahibkarlıq fəaliyyəti genişlənməkdədir. Belə ki, BMT-nin inkişaf proqramı və Avropa İttifaqının dəstəyi ilə regionlarda aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı iri lahiyələr həyata keçirilir. Bu layihə çərçivəsində İsmayıllı rayonunun İsmayıllı şəhəri, Topçu, Qurbanəfəndi, Sumağallı, Diyallı, Yeniyol, Çəmənli kəndlərində istixanalar yaradılmış və yüksəkkeyfiyyətli tərəvəz məhsulları istehsal edilməkdədir. Keyvəndi kəndində isə 1500 başlıq heyvandarlıq kompleksində inşaat işləri davam etdirilir.

Şəmkir rayonunda yeni innovativ texnologiyalara əsaslanan müasir tipli sahibkarlıq subyektlərinin, o cümlədən gələcəkdə 3000 nəfərin çalışacağı nəzərdə tutulan Şəmkir Aqroparkı, artıq istifadəyə verilmiş, müasir texnoloji avandanlıqla təchiz olunmuş "Zəyəm Texnologiyalar Parkı"nın və çörək zavodu kimi obyektlərin kənd təsərrüfatının inkişafında, əhalinin maddi rifahının yaxşılaşdırılmasında rolu təqdirəlayiqdir.

Hazırkı şəraitdə ölkədə gündən-günə formalaşan sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması və genişləndirilməsinin əsası olaraq, kiçik sahibkarlığın bazar iqtisadiyyatının tələblərinə uyğun inkişafı get-gedə artmaqdadır. Ona görə ki, kiçik sahibkarlıq son dövrlərdə öz fəaliyyətini genişləndirməklə ölkə iqtisadiyyatına böyük töhfə vermişdir [6].

**Cədvəl 1**

**Kiçik sahibkarlıq subyektlərinin strukturu, %**

| № | Fəaliyyət növlərinin adı | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|
| 1. | Bütün iqtisadi fəaliyyət növləri üzrə - cəmi | 100 | 100 | 100 | 100 | 100 |
| 1.1 | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1,9 | 1,7 | 1,6 | 2,4 | 1,8 |
| 1.2 | Sənaye | 2,2 | 2,0 | 1,7 | 3,1 | 3,4 |
| 1.3 | Tikinti | 0,7 | 0,7 | 0,7 | 1,2 | 1,2 |
| 1.4 | Topdan və pərakəndə ticarət; avtomobillərin və motosikletlərin təmiri | 64,6 | 70,2 | 71,7 | 52,9 | 49,1 |
| 1.5 | Nəqliyyat və anbar təsərrüfatı | 10,7 | 10,1 | 10,1 | 16,9 | 15,1 |
| 1.6 | Yaşayışın təşkili və ictimai iaşə | 6,5 | 3,5 | 3,4 | 5,7 | 6,9 |
| 1.7 | İnformasiya və rabitə | 0,1 | 0,1 | 0,1 | 0,2 | 0,2 |
| 1.8 | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 0,4 | 0,4 | 0,4 | 0,7 | 0,8 |
| 1.9 | Təhsil | 0,1 | 0,04 | 0,04 | 0,1 | 0,1 |
| 1.10 | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 0,1 | 0,1 | 0,1 | 0,2 | 0,2 |
| 2.1 | Digər sahələr | 12,7 | 11,2 | 10,0 | 16,6 | 21,2 |

Cədvəldən göründüyü kimi, 2010-2014-cü illərdə kiçik sahibkarlığın strukturu nəzərə çarpacaq dərəcədə dəyişmişdir. Belə ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən sənaye sahələrində fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinin kiçik sahibkarlıq subyektlərində ölkə üzrə xüsusi çəkisi 2010-cu illə müqayisədə 2014-cü ildə 2,2%-dən 3,4%-dək, nəqliyyat və anbar təsərrüfatında 10,7%-dən 15,1%-dək, yaşayışın təşkili və ictimai

iaşədə 6,5%-dən 6,9%-dək, tikintidə 0,7%-dən 1,2%-dək, daşınmaz əmlakla əlaqədar əməliyyatlarda 0,4%-dən 0,8%-dək, informasiya və rabitə və əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahələrinin hər birində 0,15-dən 0,2%-dək, digər sahələrdə isə 12,7%-dən 21,2%-dək artmış, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 1,9%-dən 1,8%-dək, topdan və pərakəndə ticarət; avtomobillərin və motosikletlərin təmirində 64,6%-dən 49,1%-dək azalmış, təhsildə isə olduğu kimi qalmışdır. Bu da ölkədə olan kreditlərin məhdud olmasından irəli gəlmişdir.

Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq fəaliyyətinin genişlənməsi hər şeydən öncə ölkədə Ümumi Daxili Məhsulun ilbəil artmasına imkan verir. Bu baxımdan, ölkədə iqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin məhsul buraxılışına diqqət yetirmək məqsədəuyğundur [6].

**Cədvəl 2**

**İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin məhsul buraxlışına görə payı, %**

| № | Fəaliyyət növlərinin adı | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|
| 1. | Bütün iqtisadi fəaliyyət növləri üzrə - cəmi | 8,6 | 8,1 | 9,6 | 10,6 | 10,5 |
| 1.1 | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1,5 | 2,0 | 1,8 | 4,3 | 4,8 |
| 1.2 | Sənaye | 1,4 | 1,2 | 1,2 | 1,6 | 2,2 |
| 1.3 | Tikinti | 17,8 | 9,0 | 12,6 | 16,0 | 5,0 |
| 1.4 | Topdan və pərakəndə ticarət; avtomobillərin və motosikletlərin təmiri | 57,5 | 55,2 | 53,1 | 49,8 | 46,9 |
| 1.5 | Nəqliyyat və anbar təsərrüfatı | 13,4 | 14,0 | 15,1 | 16,0 | 18,8 |
| 1.6 | Yaşayışın təşkili və ictimai iaşə | 28,2 | 49 | 49,4 | 49,9 | 50,3 |
| 1.7 | İnformasiya və rabitə | 1,4 | 2,3 | 4,3 | 5,8 | 7,8 |
| 1.8 | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 22,1 | 22,7 | 14,7 | 22,4 | 31,2 |
| 1.9 | Təhsil | 1,7 | 3,1 | 18,6 | 19,5 | 24,7 |
| 2.0 | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 8,7 | 6,3 | 12,2 | 18,5 | 25,8 |
| 2.1 | Digər sahələr | 50 | 54,6 | 46,9 | 41,6 | 44,9 |

Cədvəldən göründüyü kimi, tikinti və topdan və pərakəndə ticarət; avtomobillərin və motosikletlərin təmiri sahələri istisna olmaqla digər sahələrdə fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərində 2010-cu ildən başlayaraq, məhsul istehsalının həcmi dinamik olaraq hər il artmışdır. 2014-cü ildə ölkə üzrə kiçik sahibkarlıq subyektlərinin məhsul istehsalının ümumi həcmində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələri 4,8%, sənayedə 2,2%, nəqliyyat və anbar təsərrüfatında 18,8%, topdan və pərakəndə ticarətdə, avtomobillərin və motosikletlərin təmirində 46,9%, yaşayışın təşkili və ictimai iaşədə 50,3%, informasiya və rabitədə 7,8%, daşınmaz əmlakla əlaqədar əməliyyatlarda 31,2%, təhsildə 24,7%, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində 25,8%, digər sahələrdə isə 44,9% paya malik olmuşlar.

Sahibkarlığın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmaqla yanaşı, ölkədə iqtisadi və sosial problemlərin həlli cəmiyyətdə sabitliyin möhkəmləndirilməsində mühüm amil hesab olunur.

## 4. İnnovasiyalı sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının istiqamətləri

Azərbaycan Respublikasında sahibkarlıq subyektlərinin stimullaşdırılmasının əsas istiqamətlərindən biri vergiqoyma mexanizminin təkmilləşdirilməsidir ki, bu da sahibkarlığın inkişafına böyük təkan verərdi. Son zamanlar sahibkarlığın inkişafı üçün ölkədə bir sıra hüquqi-normativ aktlar, o cümlədən vergiqoyma sisteminin təkmilləşməsinə yönəlmiş qanunvericilik aktları qəbul olunsa da, sahibkarlığın inkişafı sahəsində hələ də bir sıra tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. Bu hər şeydən əvvəl sahibkarların sərbəst fəaliyyət göstərməsi üçün vergi dərəcələrinin təkmilləşdirilməsi zərurətindən irəli gəlir. Sahibkarlığın inkişafına bu cür yanaşmaya əksər dünya dövlətlərinin praktikasında təsadüf edilir.

Ölkədə sahibkarlığın inkişafı ilə bağlı verilən mühüm qərarlar biznes mühitinin yaxşılaşdırılması istiqamətində yeni mərhələnin başlanğıcı olmuşdur.

"Sahibkarlıq sahəsində yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və bu sahədə dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı vergi yoxlamalarına şamil edilməsə də, Vergilər Nazirliyi öz səlahiyyətləri çərçivəsində illik dövriyyələri 200 min manatdan aşağı olan və sadələşdirilmiş qaydada vergi ödəyən sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarını müvəqqəti olaraq dayandırmışdır. Əmək müqavilələrinin bağlanmasına, aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövlətin maliyyələşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması məqsədləri istisna olmaqla digər operativ nəzarət tədbirləri məhdudlaşdırılmışdır. Bu qərar ölkədə kiçik və orta sahibkarlıq sektorunda fəaliyyət göstərən 70 minə yaxın vergi ödəyicisini əhatə edib. Bunlarla yanaşı, 2016-cı ildə bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə vergi ödəyicisi olmaq üçün seçim imkanı verilmişdir. Eyni zamanda ticarətin 6 faizinə, xidmət sahələri və ictimai iaşənin isə 8 faizinə sadələşdirilmiş vergiyə cəlb olunması üçün seçim hüququ verilmişdir ki, bu da kiçik və orta sahibkarlığın fəaliyyətinin stimullaşdırılması üçün əlavə imkanlar deməkdir.

Bu hallar hazırda fiziki şəxslərin əmanətləri ilə ödənilən faizlərin və qiymətli kağızlar üzrə ödənilən dividentlərin və faizlərin 3 il müddətinə vergidən, prioritet sahələr üçün idxal edilən texnika, avadanlıq və qurğuların idxal vergilərindən və ƏDV-dən 7 il müddətinə azad edilməsi, investisiya təşviqi sənədi almış fərdi sahibkar və hüquqi şəxslərin 7 il müddətinə gəlir və mənfəət vergi dərəcəsinin 50% azaldılması və əmlak vergisindən tamamilə azad edilməsi kimi vergi yükləri azaldılmışdır [12].

Sahibkarlıq üçün vergi yükünün azaldılması sahəsində də müəyyən tədbirlər görülməkdədir. Mənfəət, əlavə dəyər vergisi və fiziki şəxslərin gəlir vergisi nəzərə çarpacaq dərəcədə azaldılmışdır və dünya ölkələrində tətbiq edilən vergi dərəcələrindən aşağı səviyyədədir [15].

**Cədvəl 3**

**Bir sıra dünya ölkələrində tətbiq olunan vergi dərəcələri, faizlə**

| № | Ölkələr | Mənfəət vergisi | Fiziki şəxslərin gəlir vergisi | Əlavə dəyər vergisi |
|---|---|---|---|---|
| 1 | Azərbaycan | 20 | 14-35 | 18 |
| 2 | Gürcüstan | 20 | 12-20 | 20 |
| 3 | Qazaxıstan | 30 | 5-30 | 20 |
| 4 | Rusiya | 24 | 13 | 20 |
| 5 | Türkiyə | 46 | 15-40 | 20 |
| 6 | Almaniya | 40 | 19-53 | 16 |
| 7 | Fransa | 34 | 56,8 | 20 |
| 8 | İsveç | 28 | 20-57 | 25 |
| 9 | ABŞ | 34 | 15-33 | 10 |
| 10 | Yaponiya | 40 | 10-50 | 20 |

Cədvəldən göründüyü kimi, sahibkarlığın inkişafına təsir göstərə biləcək vergilərdən biri mənfəət vergisidir. Bu vergi növünün digər dünya ölkələrindən fərqli olaraq, respublikamızda 20% olması hər bir halda sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına şərait yaratmış olur [14].

Azərbaycan Respublikasında fiziki şəxslərdən gəlir vergisinin aşağı həddi 14%, yuxarı həddi isə 35% müəyyənləşdirilmişdir. Fiziki şəxslərdən gəlir vergisinin büdcə dərəcələrində xüsusi çəkisi 14%-dir. Bu isə ümumi büdcə gəlirləri arasında 4-cü göstəricidir. Əlavə dəyər vergisinin ABŞ dövlətindən fərqli olaraq, respublikada aşağı olması sahibkarlıq fəaliyyətinin genişlənməsinə və onların stimullaşdırılmasına əlverişli şərait yaratmış olur. Azərbaycanda sahibkarlığa bu cür diqqət və qayğı, onlar üçün yaradılan şərait respublikanın milli inkişaf modelinin mahiyyətindən irəli gəlir. Çünki yeni təsərrüfat münasibətlərinə keçidlə bağlı ilkin təcrübə göstərdi ki, sahibkarlığın, özəl sektorun tərəqqisinə normal şərait yaratmadan iqtisadi yüksəlişi təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, infrastrukturu yeniləşdirmək, sosial problemlərin uğurlu həllinə nail olmaq mümkün deyildir.

Hazırda innovasiyalı sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının digər istiqamətlərindən biri də Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətidir. Bu öz əksini fondun əsasnaməsinin təsdiqlənməsində tapmışdır. Bu fondun vəzifəsi ölkədə sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərmək, onlara müvəkkil banklar vasitəsilə güzəştli kreditlərin verilməsini təmin etmək, bir sözlə, iş adamlarının səmərəli biznes layihələrinin reallaşmasına yardımçı olmaqdır. Bu istiqamətdə Azərbaycan İnvestisiya Şirkəti, Sahibkarlığa Kömək Milli Fondu, "Aqrolizinq" ASC və digər vasitələrlə real sektora maliyyə dəstəyi göstərilmişdir.

Göründüyü kimi, sahibkarlıq fəaliyyətinə əsassız müdaxilələrin aradan qaldırılması istiqamətində ciddi tədbirlər həyata keçirilmiş, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri" yaradılmışdır. Reyestr sahibkarlıq sahəsində yoxlamaların aparılması ilə əlaqədar sahibkarların hüquqlarının müdafiəsinə, sui-istifadə hallarının qarşısının alınmasına və bu sahədə şəffaflığın artırılmasına xidmət edir. Bununla yanaşı, icazələrin elektron informasiya portalı icazə xarakterli sənədlər və onların alınması prosedurlarına, təqdim edilməli sənədlərə, icazələrin verilmə müddətinə dair bütün məlumatları vahid mənbədən əldə etməyə imkan verir.

Sahibkarlıq sahəsində görülmüş tədbirlər nəticəsində ölkənin ticarət və xidmət obyektləri müasir tələblərə uyğun geniş çeşiddə yerli ərzaq və qeyri-ərzaq məhsulları ilə təmin edilmiş, ölkədən ixrac olunan mal çeşidi ötən illə müqayisədə 2015-ci ildə 76,6% artmışdır [11].

Qarşıdakı illərdə dövlət başçısının "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına uyğun olaraq, sahibkarlara dövlət xidmətlərinin göstərilməsi zamanı subyektivliyin minimuma endirilməsi, bu zaman İKT vasitələrindən və "ASAN xidmət"in imkanlarından istifadə edilməsi, tikinti, idxal-ixrac, kommunal xidmətlərə qoşulma, daşınmaz əmlak və torpaq üzrə əməliyyatların səmərəli, şəffaf və operativ şəkildə aparılması, ixracın təşkili və tranzit potensialının reallaşdırılması, biznes mühitinin daha da yaxşılaşdırılması üçün müvafiq tədbirlər davam etdiriləcəkdir.

Azərbaycanda sahibkarlığın inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirən Prezident İlham Əliyev hazırda bu sahəyə xüsusi diqqət göstərir, iş adamlarının əsl himayədarı kimi çıxış edir. Məhz bu strateji xəttə uyğun olaraq, ötən illərdə Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı sistemli tədbirlər həyata keçirilmiş, ölkədə sahibkarlığın inkişafı üçün fundamental hüquqi baza yaradılmış, iş adamları dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuşlar. Son illər Prezident İlham Əliyevin sahibkarlığın inkişafı ilə bağlı verdiyi mühüm qərarlar, imzaladığı çoxsaylı fərman və sərəncamlar bütövlükdə ölkədə biznes mühitinin yaxşılaşdırılmasına təkan vermişdir. Bütün bu tədbirlər, həyata keçirilən səmərəli və intensiv işlər isə özəl bölmənin ölkə iqtisadiyyatında rolunu əhəmiyyətli dərəcədə artırmışdır.

Yuxarıda qeyd edildiyi kimi, yerli istehsalın artırılması və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması məqsədilə ölkə başçısının müvafiq fərmanları ilə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətində dayandırılıb, sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə qədər azaldılmış, onların verilməsi prosedurları sadələşdirilmişdir. İxracyönümlü istehsalın stimullaşdırılması və ixrac fəaliyyətinin təşviq edilməsi ilə bağlı konkret tədbirlər görülmüşdür [12].

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, bu gün qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu baxımdan, ölkənin inkişafının hazırkı mərhələsində əsas hədəflər çoxşaxəli, innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

Dövlət başçısının 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayır. Xatırladaq ki, bu konsepsiya sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində Azərbaycanın gələcək inkişaf perspektivlərini dərin elmi əsaslarla müəyyənləşdirən konseptual əhəmiyyətli sənəddir.

Hazırda ölkədə sahibkarlığın daha da inkişaf etdirilməsi istiqamətində atılan addımlar sistemli və ardıcıl xarakter daşıyır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən son zamanlar imzalanan sənədlər, qəbul edilən qərarlar sahibkarlığın inkişafına verilən böyük

dəstəyin göstəricisidir. Ölkə prezidentinin "Azərbaycan Respublikasında Sahibkarlar Günü"nün təsis edilməsi haqqında 2016-cı il 21 aprel tarixli Sərəncamına əsasən aprelin 25-də Azərbaycanda ilk dəfə "Sahibkarlar Günü" qeyd edilməsi ölkənin sosial-iqtisadi inkişafında, məşğulluğun təmin olunmasında sahibkarlğın fəaliyyətinə verilən yüksək qiymətin və sahibkarlığın inkişafına göstərilən böyük diqqət və qayğının bariz ifadəsidir [2].

Sahibkarlığa səmərəli dövlət dəstəyi, o cümlədən vergi güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi, layihələrin güzəştli şərtlərlə kreditləşdirilməsi, sənaye parkları və məhəllələrinin, aqroparkların, biznes-inkubatorlarının yaradılması, biznes form və sərgilərinin təşkili və digər tədbirlər nəticəsində ÜDM-də özəl bölmənin payı hazırda 80%-i, məşğulluqda isə 74%-i ötmüş, ölkə iqtisadiyyatı şaxələnmiş, özünü təminat səviyyəsi yüksəlmişdir [13].

Qeyd etmək lazımdır ki, əvvəllər vergi və gömrük rüsumlarından 2000 manat məbləğində yayınan sahibkar cinayət məsuliyyətinə cəlb edilirdi. Yeni qanun qüvvəyə mindikdən sonra cinayət məsuliyyəti yaradan hədd 10 dəfə artırılaraq, həmin məbləğ 20 000 manat olmuşdur. Yəni 20 000 manata qədər vergi və gömrük rüsumlarından yayınan şəxslər artıq cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb ediləcəklər. Bu da həmin məbləğə qədər olan əməllərin dekriminallaşdırılması deməkdir. Bu dəyişikliklər nəticəsində ümumilikdə 24 maddədə sahibkarların məsuliyyəti yüngülləşdirilmişdir [15].

Bütün bunlar isə deməyə əsas verir ki, ölkədə sahibkarlığın inkişafı ilə bağlı görülən işlər bundan sonra da davam etdiriləcəkdir. Özəl bölmənin inkişafına diqqət və qayğı, dövlətin sahibkara, iş adamına himayədarlıq etməsi isə iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yüksəlməsinə, yeni iş yerlərinin açılmasına, eləcə də mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə mühüm töhfələr verəcəkdir.

## 5. İnnovasiyalı sahibkarlıq fəaliyyətinin inkişafı və perspektivləri

Hazırda sahibkarlıq fəaliyyətinin inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmaqla ölkədə iqtisadi və sosial problemlərin həlli və cəmiyyətdə sabitliyin möhkəmləndirilməsi üçün mühüm amil hesab olunur. Ümumiyyətlə, ölkə prezidenti İlham Əliyev Azərbaycanda sahibkarlıq fəaliyyətinin inkişafına dövlət dəstəyinin prioritet istiqamətlərindən biri kimi xüsusi diqqət yetirir. Ona görə də milli iqtisadiyyatın bütün sahələrində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və stimullaşdırılması, hər şeydən əvvəl isə aqrar sahədə və sənayedə xüsusilə fərqlənir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2015-ci il "Kənd təsərrüfatı ili" elan edilmişdir. İstehsalçılar vergidən azad edilməklə bərabər, onlara güzəştli şərtlərlə kredit, toxum, gübrə, texnika almaq imkanı yaradılır, əkin sahələrində istifadə olunan yanacaqlar üçün subsidiyalar verilir. Görülmüş işlər və aqrar sahəyə göstərilən dövlət dəstəyi nəticəsində bir sıra ərzaq məhsullarının istehsalı artmış, ölkənin özünü tənzimetmə səviyyəsi yüksəlmişdir.

Son illər təkcə dövlətin maliyyə dəstəyi ilə müasir texnologiyalara əsaslanan 43 quşçuluq təsərrüfatı, 23 cins heyvandarlıq kompleksi, 8 süd və 6 ət emalı müəssisəsi, 39 intensiv bağçılıq və üzümçülük təsərrüfatı, 43 müasir istixana kompleksi, 16 meyvə-tərəvəz emalı müəssisəsi, 51 logistik mərkəz və 22 taxıl anbarı kompleksi yaradılmışdır ki, bu da istehlak bazarının sabitləşdirilməsində, ixrac pontensialının artırılmasında, idxaldan asılılığın azaldılmasında, ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsində əhəmiyyətli rola malikdir. Bununla yanaşı, aqroparkların və intensiv metodlara əsaslanan yüksək məhsuldarlığa malik müasir iri fermer təsərrüfatlarının yaradılması tədbirləri də davam etdirilir [11].

Hazırda ölkənin 19 rayonunda (Ağcabədi, Beyləqan, Kürdəmir, Ağsu, İmişli, Hacıqabul, Cəlilabad, Salyan, Xaçmaz, Füzuli, Saatlı, Şamaxı, Yevlax, Ağdaş, Şəmkir, Siyəzən, İsmayıllı, Samux və s.) 40 min hektardan artıq sahədə 22 sahibkarlıq subyekti tərəfindən 30 iri fermer təsərrüfatı yaradılmışdır. Ümumi dəyəri 162,4 milyon manat olan bu təsərrüfatların yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Fondu tərəfindən 61,6 milyon manat güzəştli kredit verilmişdir. Hazırda fəaliyyətdə olan təsərrüfatlarda müasir suvarma sistemləri qurulmuş, hər hektardan 58-60 sentner arpa və buğda, 120 sentnerədək dənli qarğıdalı əldə edilmişdir. Bununla yanaşı, Şəmkir, Xaçmaz və Xızı rayonlarında aqroparklar yaradılır. Aqroparklarda müasir istehsal,

emal və infrastruktur müəssisələrinin yaradılmasına 23 milyon manat güzəştli kredit verilmişdir. Şəmkir və Yalama aqroparklarında birinci mərhələ üzrə işlər yekunlaşdırılmışdır. Xızı aqroparkında isə hazırda müvafiq layihələndirmə işləri aparılır [11].

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" sahibkarlıq fəaliyyətinin inkişafı üçün əsas sənəddir. Belə ki, 2014-2016-cı illər ərzində dövlət proqramı çərçivəsində 170-dən artıq sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi fəaliyyətə başlamış, 430-dan artıq müəssisənin tikintisi davam etdirilir. Bu dövrdə regionlarda 36 məktəb, 27 bağça, 12 səhiyyə, 8 gənclər və idman, 24 mədəniyyət və digər sosial obyektlər tikilmiş və təmir olunmuşdur [19].

Göründüyü kimi, Azərbaycanda sahibkarlıq fəaliyyətinin inkişafı ilk növbədə kənd təsərrüfatında özünü daha parlaq göstərmişdir. Aqrar sahənin perspektivliyinin reallığı özünü üzümçülüyün inkişafında da büruzə verir. Belə ki, Nazirlər Kabinetinin sonuncu iclasında qeyd olunmuşdur ki, son illər ərzində dövlətin dəstəyi hesabına üzümçülük inkişaf edir, yeni bağlar salınaraq üzüm sahələri genişləndirilir. Rəsmi statistik məlumatları araşdırsaq görərik ki, Azərbaycanda üzümçülük son əsrdə tam bir mərhələ keçmişdir: inkişaf edərək pik nöqtəsinə çatmış, sonra tənəzzülə uğramış və yenidən güclənməyə başlamışdır. Buna görə də üzümçülüyü və şərabçılığı yeni bazar münasibətləri şəraitində inkişaf etdirmək üçün "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" qəbul olunmuşdur. Bu sənətdə üzümçülüyün və onun emal sənayesinin inkişafını təmin etmək məqsədilə yeni üzümlüklərin salınması, süfrə və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, tinglik təsərrüfatlarının yaradılmasının və üzümçülük təsərrüfatları üçün əsas və köməkçi materialların istehsalının dəstəklənməsi, üzümçülüyün infrastruktur təminatının yaxşılaşdırılması, üzümçülüyün və şərabçılığın elmi təminatının və kadr potensialının gücləndirilməsi və s. kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar olaraq, Gəncədə və Abşeronda 15 hektar ampeloqrafik kolleksiya bağlarında 6 calaqaltı Amerika sortu, eləcə də Azərbaycanın və dünyanın üzümçülük ölkələrindən gətirilmiş 310 növ üzüm becərilir. Qiymətli yerli üzüm sortlarının itməsinin qarşısı alınır. Ölkədə yerli üzüm sortlarının sayının, həmişə qəbul edildiyi kimi, 200 yox 450-ə yaxın olduğu müəyyən edilmişdir. Bundan əlavə, 16 süfrə, 20-yə yaxın texniki istiqamətli üzüm hibritləri yaradılmış, yeni növ ağ və qırmızı, habelə "Nektar" tipli ətirli süfrə və tünd şərabların texnologiyası işlənib hazırlanmışdır. Eyni zamanda perspektivdə dövlət tərəfindən üzümçülüyün inkişafına ciddi vəsaitlər ayrılıb, emal sənayesi qurulub, tədarük edilən üzümün saxlanması üçün inşa edilən soyuducuların sayı artırılır [18].

## 6. İnnovasiyalı sahibkarlıq fəaliyyətinin audit qiymətləndirilməsi

Bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasında aparılmış dərin islahatlar nəticəsində əhəmiyyətli sosial-iqtisadi dəyişikliklər baş vermiş, sahibkarlıq fəaliyyəti üçün yeni iqtisadi mühit formalaşmışdır. Bu baxımdan, ölkəmizdə kiçik və orta sahibkarlığın tənzimlənməsi və onların fəaliyyətinin təhlili hər şeydən əvvəl audit qiymətləndirilməsinə şərait yaratmışdır.

İnnovasiyalı sahibkarlığın müvəffəqiyyətlərinin əsas şərtlərindən biri innovasiya fəaliyyətinin audit qiymətləndirilməsidir. Hazırda innovasiyalı sahibkarlıq fəaliyyətinin müəyyən edilməsində və audit qiymətləndirilməsində çox zəruri olan göstəricilərdən istifadə olunur [13].

1. İnnovasiyalı yeni məhsul istehsalının gücü:

1.1. Sahibkarlıq məhsullarının əhalinin hər bir nəfərinə düşən həcmi;

2. Sahibkarlıq məhsullarının Ümumi Daxili Məhsulda (ÜDM) xüsusi çəkisi;

3. İnnovasiyalı sahibkarlıq məhsullarının ixracı;

4. İxracat (sahibkarlıq) məhsullarının keyfiyyəti:

4.1 Sahibkarlıq məhsulunun ixracının ölkənin ümumi ixracında xüsusi çəkisi;

5. İnnovasiyalı sahibkarlıq fəaliyyətinin səmərəliliyi:

5.1 İnnovasiyalı sahibkarlıq məhsulunun enerjitutumluluğu.

## Nəticə

İnkişaf etmiş ölkələrin iqtisadçı alimlərinin əsərlərində sahibkarlıq fəaliyyəti yalnız mənfəətin əldə edilməsinin mənimsənilməmiş üsullarından istifadə edilməsi ilə deyil, həm də yeniliklərin, yeni dəyərlərin yaradılması ilə əlaqələndirilir və sahibkarlığa dövlət yardımı hər şeydən

öncə Ümumi Daxili Məhsulun artmasına və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına imkan verəcəkdir. Bununla əlaqədar olaraq aşağıdakılar təklif olunur:

1. İnnovasiyalı sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün sahibkarların güzəştli kreditlərə çıxışı təmin etmək.
2. İnnovasiyalı sahibkarlıq fəaliyyətinin inkişafı üçün fermerlər arasında kooperasiya əlaqələrini gücləndirmək.
3. İnnovasiyalı sahibkarlığın təşkilatı strukturunun yaradılmasında texnoparkların, "gəlir mərkəzləri"nin, "keyfiyyət dairələri"nin və s. təşkilinə üstünlük vermək.
4. Ölkə ərazisində bütün fəaliyyət sahələrində milli sahibkarlığın tarazlı inkişafını təmin etmək.
5. Sahibkarlıq fəaliyyəti üçün ayrılmış investisiya qoyuluşlarından səmərəli istifadə etmək.
6. Dövlət sahibkarlığı ilə qeyri-dövlət sahibkarlıq fəaliyyətini uzlaşdıran və qarşılıqlı əlaqə yaradan xüsusi sahibkarlıq konsepsiyası və proqramını hazırlamaq.
7. İnnovasiyalı sahibkarlıq fəaliyyətini sağlam rəqabət əsasında və səmərəli metodlar bazasında inkişaf etdirmək.
8. Kiçik və orta sahibkarlıqla məşğul olan sahələrin inteqrasiya və təsərrüfat əlaqələri əsasında ixtisaslaşmasını təmin etmək.
9. Gömrük siyasətinin sahibkarlıq fəaliyyətinin inkişafına xidmət etməsini sürətləndirmək.
10. İnvestisiya, maliyyə-kredit və vergi siyasətində sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasını təmin edən prinsiplərin sabitliyini, daim dəyişən xarakterə malik olmasını həyata keçirmək.
11. İnnovasiyalı sahibkarlıq fəaliyyətinin, xüsusilə kiçik sahibkarlığı maliyyələşdirməyin ən əlverişli üsullarından birinin-lizinqin inkişaf etdirilməsinə üstünlük vermək.
12. Vergi dərəcələrinin, sığorta ödəmələrinin aşağı salınmasına, vergi güzəştlərinin tətbiq edilməsinə şərait yaratmaq.
13. Regionlarda sahibkarların maarifləndirilməsinə, xüsusilə bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənməsinə diqqəti artırmaq.
14. Sahibkarlara maliyyə dəstəyi mexanizminin təkmilləşdirilməsi və şəffaflığın təmin edilməsi üçün sahibkarlıq fəaliyyətinin elektronlaşdırılmasına üstünlük vermək.

Ümumiyyətlə, iqtisadi və sosial inkişafın əsas lokomotivi olan sahibkarlıq fəaliyyətinin inkişafı və stimullaşdırılması ölkənin gələcək sabit inkişafında, həmçinin dünya iqtisadiyyatına inteqrasiyasında əsaslı mövqe tutmasına tam təminatçı olacaqdır.

**Fazil Hacıyev**

**Azərbaycanda innovasiyalı sahibkarlıq fəaliyyətinin təhlili və audit qiymətləndirilməsi**

**Xülasə**

Məqalədə ölkədə aparılan sosial-iqtisadi islahatların lokomativi kimi sahibkarlıq fəaliyyətinin formalaşması, inkişafı və stimullaşdırıması problemlərinə baxılmışdır. Bununla yanaşı, dövlətin maliyyə-vergi dəstəyi əsasında sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətləri təhlil edilmişdir. Sahibkarlıq fəaliyyətinin inkişaf etməsi üçün sahibkarlıq strukturunun dəyişməsi və məhsul istehsalının həcmi də araşdırılmışdır. Sonda vergi mexanizminin təkmilləşdirilməsi istiqamətində innovasiyalı sahibkarlıq fəaliyyətinin formalaşması, inkişafı və stimullaşdırılması üzrə elmi cəhətdən əsaslandırılmış təkliflər verilmişdir.

**Фазиль Гаджиев**

**Анализ инновационной предпринимательской деятельности и оценка аудита в Азербайджане**

**Резюме**

В статье рассмотрены проблемы формирования, развития и стимулирования предпринимательской деятельности, являющейся движущей силой проводимых в стране социально-экономических реформ. Наряду с этим проанализированы направления стимулирования предпринимательской деятельности на основе государственной

финансово-налоговой поддержки. Для развития предпринимательской деятельности, также исследованы изменение структуры предпринимательства и объем производства продукции. В конце даны научно обоснованные предложения по формированию, развитию и стимулированию инновационной предпринимательской деятельности для усовершенствования налогового механизма.

**Fazil Hajiyev**

**Analysis of the innovative entrepreneurial activity and audit evaluation in Azerbaijan**

**Summary**

The article considers issues of formation, development and stimulation of entrepreneurial activity that is engine of socio-economic reforms in the country. Along with that the directions of stimulation of entrepreneurial activity on the basis of state financial and tax support have been identified. Change in the structure of entrepreneurs for the development of entrepreneurial activity and the volume of production were investigated. In the end, science-based recommendations on formation, development and stimulation of innovative entrepreneurial activity to improve the tax mechanism were made.

**Ədəbiyyat**

1. "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 12 yanvar 2015-ci il.
2. "Azərbaycan Respublikasında "Sahibkarlar Günü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 21 aprel 2016-cı il.
3. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 2012.
4. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı".
5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin internet səhifəsi - www.stat.gov.az
6. Azərbaycanda kiçik sahibkarlıq. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Statistik məcmuə. (2015). Bakı, 200 səh.
7. A.F.Musayev. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması. Bakı, Azərbaycan nəşriyyatı, 2014, 184 səh.
8. İ.N. İbrahimov. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri. Bakı, 2010, 248 səh.
9. Ş.Ə.Axundov və M.Ə. Axundov. Bazar iqtisadiyyatının əsasları. Bakı, 2001, 672 səh.
10. A.B.Abbasov. Sahibkarlıq fəaliyyəti (1998): növlərin təşəkkülü və inkişaf problemləri. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 212 səh.
11. Ş.A.Mustafayev. Dayanıqlı İnkişafı Təmin Edən Siyasət. Statistika Xəbərləri, Elmi-Praktiki jurnal, 2015 № 1, səh. 16-21
12. Azərbaycan Vergi Sistemi: Reallıqlar və Perspektivlər. Azərbaycan vergi jurnalı. 2016, № 1 səh. 42-66.
13. F.Ş. Hacıyev. İnnovasiyalı sənaye potensialının təhlili və audit qiymətləndirilməsi. Azərbaycan vergi jurnalı 2016. № 1 səh. 143-154.
14. Sahibkarlığa Kömək Milli Fondunun saytı-http://anfes.gov.az/
15. V.S. Əyyubov. "Büdcə və vergi sistemi" 2008-ci il. Bakı, 120 səh.
16. A.B Колос. Организация предпринимательской леятельности. 2005, M 416 c.
17. Д.В. Кислов. Малые предприятия. М.: ООО «Вершина» 2003, 464 с.
18. "Azərbaycan" qəzeti, 22 may 2016-cı il.
19. Azərbaycan Respublikasını regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" 2014-cü il 27 fevral.

# AZƏRBAYCAN İQTİSADİYYATINDA DAYANIQLI İNKİŞAFIN SOSİAL ÇAĞIRIŞLARI VƏ SOSİAL KEYFİYYƏT MODELİNİN FORMALAŞDIRILMASI VƏZİFƏLƏRİ[1]


***Rasim Həsənov***

*Azərbaycan Dövlət İqtisad Universiteti*

*"Beynəlxalq iqtisadi münasibətlər" kafedrası, i.e.d., professor*

*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*

*e-poçt: rasimt.hasanov@gmail.com*



**Açar sözlər:** dayanıqlı inkişaf, sosial siyasət, həyat keyfiyyəti, iqtisadi artım, Azərbaycan iqtisadiyyatı, maliyyələşmə mexanizmi

**Ключевые слова**: устойчивое развитие, социальная политика, качество жизни, экономический рост, экономика Азербайджана, механизм финансирования

**Keywords:** sustainable development, social policy, life quality, economic growth, Azerbaijan economy, financing mechanism


Son 20-30 ildə dünya iqtisadiyyatının inkişafını xarakterizə edən məqamlar sırasında dayanıqlı inkişafın təmin edilməsi haqqında güclənən çağırışlar mühüm əhəmiyyətə malik olmaqla kompleksliliyi ilə fərqlənir. Bununla belə, həmin çağırışlar arasında inkişafın sosial keyfiyyəti və ekoloji tarazlıq məsələləri aparıcı mövqeyə malikdir. Predmetini əmək münasibətləri təşkil edən sosial siyasət öz sistemliliyi, eləcə də cəmiyyətdə və iqtisadiyyatda, bütün səviyyəli büdcələrin formalaşmasına təsir imkanlarına malik olmasına görə seçilir. Bu sistem iqtisadi artım, maliyyə axınları və büdcə siyasətinə fəal təsir edə bilər və etməlidir. Belə məntiqi nəticə müasir neoliberalizmin ən mühüm nəzəri istiqamətləri – monetarizm və Keynsçi inkişaf nəzəriyyələrinin mahiyyətindən doğur. Beləliklə, aydın olur ki, iqtisadi inkişaf və sosial siyasət üzvi əlaqəli və qarşılıqlı asılıdır. Ona görə də bu iki istiqamətin uzlaşdırılmasını təmin etmək üçün müxtəlif səviyyələrdə sosial siyasətin prioritetlərinin düzgün seçiminə xüsusi diqqət verilir.

Sosial siyasətin əhəmiyyətliliyini göstərən faktorlardan və bəşəri inkişafın müasir mərhələsini səciyyələndirən mühüm əlamətlərdən biri iqtisadi yüksəliş dinamikasına olan tələblərin xarakterinin dayanıqlı inkişaf baxımından yeni keyfiyyət almasıdır. Klassik yüksəliş və ya artım parametrləri son dövrlərdə əksər ölkələrdə və mühüm beynəlxalq təşkilatlarda qiymətləndirmə yox, sadəcə ölçü göstəricilərinə çevrilmişdir. İnkişafın müasir göstəriciləri isə iqtisadi inkişafın davamlılığı, dayanıqlılığı və tarazlığı ilə qiymətləndirilir. Yeni iqtisadi inkişaf paradiqmasında əsas dominantlardan biri məhz sosial inkişaf məsələləridir.

Müasir iqtisadi inkişaf konsepsiyası, bütövlükdə iqtisadi inkişafı əhalinin həyat səviyyəsinin davamlı yüksəlişi kimi dəyərləndirir. "Dayanıqlı inkişaf" kateqoriyası və ya termini ilk dəfə 1987-ci ildə ətraf mühit və inkişafa dair Beynəlxaq Komissiyanın (Brundtland komissiyası) hesabatında aktuallaşdırılmışdır [4,5]. Bu hesabata görə dayanıqlı inkişaf, yalnız sosial hədəflərə istiqamətlənmiş uğurlu və rəqabətqabiliyyətli iqtisadiyyatda mümkündür. Dünyanın tanınmış iqtisadçıları inkişafın əsas vəzifələrini-böyüyən iqtisadiyyatda yoxsulluğun, ədalətsizliyin və işsizliyin aradan qaldırılmasında görürlər. Dayanıqlı inkişafın elementlərinin seçimində yanaşmaların fərqliliyinə baxmayaraq, bütövlükdə dayanıqlı inkişaf konsepsiyası, dörd mühüm aspekti: iqtisadi, ekoloji, sosial və institusional quruculuq məsələlərini özündə birləşdirir. Eyni zamanda nəzərə almaq vacibdir ki, hətta "ən yaxşı" sosial siyasət iqtisadi inkişafa adekvat olmalıdır, daha doğrusu, sosial siyasət inkişafdan doğmaqla yanaşı, inkişafın tamamlayıcısına çevrilməli və bununla da faktiki olaraq inkişafın mühüm təminedicisi olmalıdır. Bu halda sosial siyasətin səmərəliliyi və nəticəliliyi onun maliyyələşdirilməsindən ciddi şəkildə asılıdır. Dünya təcrübəsində sosial siyasətin maliyyələşdirilməsinə yanaşmalar olduqca müxtəlifdir və belə

---


[1] Məqalə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu "Universitet qrantı" məqsədli müsabiqəsi çərçivəsində yerinə yetirilmiş "Azərbaycan iqtisadiyyatında davamlı inkişafın sosial çağırışları və sosial keyfiyyət mərhələsinə keçid mexanizminin formalaşdırılması" (EİF/MQM/Universitet-2014-5(20)-11/11/5-M-11) mövzusu üzrə aparılmış tədqiqatların materiallarına əsasən hazırlanmışdır.

yanaşmalar bir çox faktorların təsiri ilə müəyyənləşir. Lakin ilk sosial siyasət nümunəsi olan O.Bismarkın "nöqtəvi təsir strategiyasından" indiyədək mövcud bütün sosial siyasət modellərində aparıcı maliyyələşdirilmə prinsipləri demək olar ki, dəyişməmişdir – xərclərin səmərəliliyi, qənaətliliyi və nəticəliliyi [2].

Bu gün Avropada sosial siyasətə yeni sosial keyfiyyət konsepsiyasını ehtiva edən yanaşma formalaşmışdır. Sosial və iqtisadi siyasətin qarşılıqlı təsirindən irəli gələn proseslər kontekstində formalaşan bu yanaşma, Avropada sosial həyatın keyfiyyəti barədə Amsterdam Deklarasiyası əsasında həyatın və əməyin keyfiyyətinin yaxşılaşdırılması üzrə Avropa Fondu tərəfindən təklif olunmuşdur. Sosial həyat keyfiyyəti Avropa İttifaqı sərhədləri çərçivəsində iqtisadi və sosial tərəqqini, inkişafı müəyyən edən standart rolunu oynayır. Optimal sosial keyfiyyət səviyyəsinə nail olmağa imkan verən cəhətləri: sosial-iqtisadi təminata əlyetərlilik; cəmiyyətin sosial və iqtisadi institutları vasitəsilə onun üzvlərinin sosial proseslərə qoşulması; problemlərin həllində iştirak imkanları; insanların sosial cəhətdən mütəşəkkil cəmiyyətdə yaşamaq qabiliyyətləri; cəmiyyətin hər bir üzvünün fəallığının artırılması və kollektiv iştirak vasitəsilə onların özlərini reallaşdırmaq imkanlarına malik olmaları kimi qəbul edilmişdir. Sosial həyatın keyfiyyət səviyyəsi dörd sosial amildən asılıdır: iqtisadi təhlükəsizliyin səviyyəsi, sosial inteqrasiyanın səviyyəsi, sosial mütəşəkkilliyin miqyası və fərdin müstəqilliyi səviyyəsi. Bu komponentlər əsasında sosial keyfiyyət kvadratı formalaşır [8].

Azərbaycan Respublikasında son 20 ildə dövlətin iqtisadi siyasətində sosial siyasətin həmişə diqqət mərkəzində olmasına rəğmən sosial inkişafın məqsədləri və modeli ənənəvi xarakterə malik olmuşdur. "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında isə sosial siyasətə yanaşmanın əsaslı dəyişilməsi zərurəti dəqiq ifadə edilmişdir [1]. Konsepsiyada qeyd edilir ki, "...İstənilən iqtisadi artımın məqsədi sosial rifahın yüksəldilməsidir. Bu baxımdan, sosial sahələrin və insan kapitalının inkişafı Konsepsiyanın əsas prioritetlərindən biridir. Təhsil və səhiyyədə keyfiyyətin yüksəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, gender bərabərliyinin təmin olunması və ailənin inkişafı, gənclərin potensialının və idmanın inkişaf etdirilməsi bu prioritet çərçivəsində əsas istiqamətlərdir. Konsepsiya çərçivəsində yoxsulluq məsələsi insan inkişafı konsepsiyası ilə bağlı müasir yanaşmalara uyğun olaraq, "çoxfaktorlu yoxsulluq" anlayışı müstəvisində dəyərləndirilir... Əhali və onun strukturu ilə bağlı kəmiyyət və keyfiyyət göstəriciləri milli gücün əsas elementləridir və təbii ki, Azərbaycan xalqının genofondunun qorunması, miqrasiya və demoqrafiya kimi məsələlər milli təhlükəsizlik baxımından olduqca mühümdür".

Aparılmış uğurlu iqtisadi siyasət sayəsində Azərbaycanda son on beş ildə yoxsulluğun azaldılması istiqamətində danılmaz nailiyyətlər əldə edilmişdir. Ölkəmizdə "mütləq yoxsulluq" probleminin həll edilməsi, yoxsulluğun səviyyəsinin kəskin azaldılması aparılan uğurlu sosial-iqtisadi siyasətin nəticəsidir. Azərbaycan iqtisadiyyatında dayanıqlı inkişafın sosial çağırışları və sosial keyfiyyət mərhələsinə keçid mexanizminin formalaşdırılması istiqamətində aparılmış tədqiqatlarda əsas məqsəd Azərbaycanda sürətli iqtisadi inkişafın davamlılığının sosial təminedicilərinin adekvatlığının qiymətləndirilməsi və inkişafın sosial keyfiyyət mərhələsinə keçid mexanizminin elmi bazasının formalaşdırılması əsasında əməli sosial siyasət üçün tövsiyələrin hazırlanması kimi müəyyənləşdirilmişdir. Bu tədqiqatların əsas elmi ideyası ondan ibarət olmuşdur ki, Azərbaycan kimi xüsusi inkişaf tarixi yaşayan ölkələrdə, iqtisadi inkişafın ən mühüm məqsədləri sırasında milli maraqların təmin edilməsinin mühüm elementi kimi cəmiyyət üzvlərinin müasir tələblərə cavab verən sosial həyat keyfiyyətinin maddi bazasının yaradılması, həmçinin inkişafın, cəmiyyətin sosial fəallığının yüksəldilməsinə xidmətə istiqamətləndirilməsi əsas yer tutur. Belə məqsədlərə nail olunması isə sürətli iqtisadi inkişafın davamlılığının, iqtisadi artım və sosial inkişafın adekvatlığının təmin edilməsi, inkişaf kontekstində həyat səviyyəsi meyarlarının müəyyənləşdirilməsi və çoxölçülü yoxsulluq səviyyəsinin minimuma endirilməsi, iqtisadiyyatın sosial strukturlaşdırılmasının təmin edilməsi və s. kimi hədəfləri ehtiva edən yeni milli sosial siyasət modelinin formalaşdırılmasını zəruri edir. Bu tədqiqatlarda çağdaş Azərbaycan iqtisadiyyatının sosialyönümlülüyünün identifikasiyası aparılmış, dünya təcrübəsinin müasir çağırışlarına əsasən dayanıqlı inkişafın dominantları qiymətləndirilmişdir. Belə qiymətləndirmə iqtisadiyyatımızın sosial strukturlaşması səviyyəsinin təsbit edilməsi, dayanıqlı inkişafın üçaspektli konsepsiyası,

“yaşıl iqtisadiyyat” və çoxfaktorlu yoxsulluq səviyyəsinin qiymətləndirilməsi kimi ən yeni yanaşmalar vasitəsi ilə aparılmışdır.

Araşdırmalar göstərir ki, sosial rifah halının yüksəlməsi sahəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycan yüksək inkişaf səviyyəsinə malik ölkələr qrupuna daxil olub. Sürətli iqtisadi artım, eləcə də gəlirlərin bölgüsünü təkmilləşdirən siyasət və proqramlar hesabına Azərbaycanda 2000-2014-cü illərdə yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalmışdır. Beləliklə, iqtisadi inkişafın əldə olunmuş səviyyəsi, Azərbaycanda müasir sosial siyasətin paradiqmasının dəyişməsini zəruri edir. Yeni paradiqma - sosial keyfiyyət konsepsiyasına əsaslanan yeni inkişaf məzmununu ifadə etməlidir. Sosial keyfiyyət səviyyəsinə nail olunması cəmiyyətin, bütövlükdə sosial-iqtisadi sistemin özünün də inkişafı baxımından müəyyən şərtlərin təmin edilməsini tələb edir. Məsələn, dünya təcrübəsi göstərir ki, dayanıqlı inkişaf və “yaşıl iqtisadiyyat”a keçid problemlərinin həlli enerji sektorunun inkişaf trayektoriyası və perspektivlərinin müəyyən olunmasından asılıdır. Belə ki, ətraf mühitin çirklənməsinə, təbii resursların tükənməsinə ən böyük təsiri energetika göstərir.

Araşdırmalarımız sübut edir ki, Azərbaycanda resurs iqtisadiyyatına malik digər inkişaf etməkdə olan ölkələr kimi ekoloji problemlər kifayət qədər kəskindir. Bu gün dünyada torpaqların 40%-nin eroziyaya uğraması, quraqlığın artması və suvarma üçün zəruri su ehtiyatlarının tükənməsi nəticəsində deqradasiyaya məruz qalır. Torpaqların məhsuldarlığı azalır və proqnozlara görə 50%-ə qədər məhsulun itirilməsinə səbəb ola bilər. Dünya üzrə hər il meşələrin sahəsi 13 mln. hektar azalır. Əhalinin 20%-nin yaşadığı torpaqlarda səhralaşma gedir. İqlim dəyişikliyi nəticəsində sahilyanı zonalarda yerləşən iki milyarda yaxın əhali zərər çəkə bilər. Mənfi ekoloji meyillər gələn 10 illiklərdə ərzağın qiymətinin 30-50% artmasına, qiymətlərin qeyri-stabil yüksəlməsinə səbəb ola bilər ki, bu da yoxsul əhalinin vəziyyətinin daha da ağırlaşmasına gətirib çıxara bilər. Daha yüksək risklər kənd təsərrüfatı, balıqçılıq, meşə təsərrüfatı, ovçuluqla məğul olan 1,3 mlrd. əhalini gözləyir.

Araşdırmalar göstərir ki, Azərbaycanda son illərdə müşahidə edilən uğurlu sosial-iqtisadi tərəqqi, demoqrafik şəraitə və əhali sakinliyinin inkişafına da öz müsbət təsirini göstərmişdir. Hazırda ölkə əhalisinin illik artım tempi 1,3 faiz təşkil edir. Körpə və uşaq ölümü halları müvafiq olaraq 2,3 dəfə və 3,5 dəfə azalıb, doğulanda gözlənilən ömür uzunluğu isə 4,6 il artaraq 74,2 yaşa çatmışdır. Eyni zamanda araşdırmalar göstərir ki, ölkəmizdə əhalinin yaşlanması sürətlənir. Müstəqillik dövründə Azərbaycanda yaşlanma indeksi 26-ya qədər artmışdır. BMT-nin demoqrafik yaşlanma şkalasına görə, hazırda Azərbaycan əhalisi qocalıq həddində hesab olunur [11].

Son illər ölkəmizdə sosial müavinət və sosial yardım sisteminin formalaşdırılması və inkişafı onun beynəlxalq standartlara uyğunluğunu gücləndirir. Minilliyin inkişaf məqsədlərinə müvafiq olaraq, Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə 2003-2008-ci illərdə bir neçə dövlət proqramı qəbul edilmişdir. BƏT-in Layiqli Əmək Proqramının ikinci fazası çərçivəsində Azərbaycanda üç prioritet məqsədi seçilmişdir:

1. Koordinasiyanı gücləndirmək və əmək bazarının tənzimlənməsi üçün səmərəli mexanizmin yaradılması;
2. İş yerlərinin və işçi qüvvəsinin keyfiyyətinin yüksəldilməsi;
3. Əhali arasında zəif, əmək qabiliyyəti aşağı olan insan qruplarının inteqrasiyası. Lakin qeyd etmək vacibdir ki, Azərbaycanda əmək ehtiyatları ilə iqtisadi fəal əhali arasındakı fərq getdikcə artır və 2014-cü ildə 1.444 min nəfər təşkil etmişdir. Bu meylin uzun müddət saxlanması mənfi sosial-iqtisadi nəticələrə gətirib çıxara bilər. Məşğul əhalinin sayı ilə muzdla işləyənlərin sayı arasındakı fərq isə 2014-cü ildə 3.083,2 nəfərə qədər artmışdır. Digər tərəfdən yüksək əlavə dəyər yaradan sahələrdə məşğul əhalinin 2014-cü ildə 5,84%-i çalışır. Qeyri-formal, tənzimlənməyən sahədə isə məşğulluq (67%) artmışdır.

Müasir dünya təcrübəsində həyat keyfiyyəti anlayışı kimi insanın həyat fəaliyyətinin müxtəlif aspektlərini nəzərdə tutan kompleks rifah halı mənasını kəsb edən yanaşma başa düşülür. Bu yanaşma ən azı üç əsas müddəanı ehtiva edir:

a) «həyat keyfiyyəti» anlayışı fərdlərə aiddir, yəni fərdin həyat şəraiti və onun həyatın müxtəlif tərəflərini dərk etməsi həlledici rol oynayır;

b) həyat keyfiyyəti – çoxcəhətli anlayışdır: fərdin vəziyyəti təkcə onun gəliri və maddi rifah halı ilə deyil, həm də onun həyatının bir-birilərinə qarşılqlı sirayət edən digər tərəfləri fonunda qiymətləndirilir;
c) həyat keyfiyyəti həm obyektiv, həm də subyektiv göstəricilərlə ölçülür. Subyektiv göstəricilər məqsədlərin və fərdlərin mövqeyinin qiymətləndirilməsi üçün zəruridir, lakin onlar həyat şəraitini obyektiv göstəricilərlə birlikdə daha ətraflı xarakterizə edir.

Həyat keyfiyyətinin inteqral indeksi-həyat səviyyəsi, sosial mühitin keyfiyyəti, ekoloji mühitin keyfiyyəti, əhalinin sosial əhval-ruhiyyəsi kimi dörd komponent üzrə ümumi indekslərin orta cəbri qiyməti kimi hesablanır. Əhalinin həyat keyfiyyəti faktiki müəyyən edilmiş meyar göstəricilərinin, çəki əmsallarının köməyi ilə ölçülmüş son nəticələrin bazis qiymətlərinə nisbəti kimi müəyyən metodoloji prinsiplərə əməl edilməklə hesablanır.

Aparılmış araşdırmalar göstərir ki, Azərbaycanda əhalinin həyat keyfiyyətinin müqayisəli təhlili, onun səviyyələri üzrə sahələrin reytinq qruplarının formalaşdırılması yolu ilə aparılmalı, reytinqi şərtləndirən amillərin aşkarlanması və həyat keyfiyyətində baş verən dəyişikliklərin müəyyən edilməsi kontekstində həyata keçirilməlidir. Belə qiymətləndirmə regional differensiyasiyanın səviyyəsini və depressiyaya (məhrumiyyətə) uğramış regionlar qrupunu aşkar etməyə imkan verər. Bu məqsədlə hesab edilir ki, ilkin mərhələdə ölkənin müxtəlif regionlarında və əhali qrupları üzrə həyat keyfiyyətinin monitorinqini aparmaqla baş verən dəyişikliklərin və kəskin fərqlərin yaranmasının qiymətləndirilməsi; böyük əhali qruplarının maraqlarına xidmət edən iri layihələrin sosial-humanitar və iqtisadi ekspertizasının aparılması məqsədəuyğundur.

Yoxsulluq səviyəsinin ölçülməsinin daha məzmunlu və genişəhatəli üsullarından biri “məhrumiyyət (deprivation)” konsepsiyası və çoxölçülü amillər üzrə yoxsulluq indekisinin (ÇÖYİ) qiymətləndirilməsidir. Araşdırmalara görə 2007-2014-cü illərdə ÇÖYİ və onun altqrup blokları üzrə məlumatlar bazası əsasında Azərbaycan Respublikasında 2014-cü ildə 2006-cı il baza məlumatlarının dəqiqləşdirilməsi əsasında müəyyən olunmuş çoxölçülü amillərin yoxsulluq indeksi 0,021-ə bərabər olmuşdur.

Dayanıqlı inkişafın təmin edilməsində ən mühüm aspektlərdən biri dayanıqlı maliyyə təminatı hesab edilir. Dayanıqlı inkişafın maliyyələşdirilməsində isə əsas məqsədlər sırasında yoxsulluq səviyyəsinin azaldılması, sosial-iqtisadi inkişaf hədəfləri üzrə daxili resursların səfərbər edilməsi və makroiqtisadi sabitliyin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Dayanıqlı inkişafın daxili mənbələrdən maliyyələşdirilməsində dövlət büdcəsinin planlaşdırılması və icrası mühüm əhəmiyyət kəsb edir. Dövlət büdcəsinin gəlirlərinin formalaşması və xərc istiqamətlərinin düzgün müəyyənləşdirilməsi, vəsaitlərin səmərəli istifadəsinə çevik nəzarət mexanizmlərinin yaradılmasına zərurət güclənir. Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafının əsas maliyyə mənbələrindən biri kimi dövlət büdcəsi xüsusi rol oynayır. Əgər 2000-ci ildə dövlət büdcəsindən sosialyönümlü tədbirlərin maliyyələşdirilməsi vəsaitləri büdcə xərclərinin 50%-dən çoxunu təşkil edirdisə, son illər bu nisbət iqtisadiyyata yönəldilən vəsaitlərin xeyrinə dəyişmişdir. Artıq 2006-cı ildən başlayaraq, bu proses davamlı xarakter almış və büdcədən iqtisadiyyata və sosial istiqamətlərə ayrılan vəsaitlərin nisbəti 32,9:27,6 nisbəti səviyyəsində stabilləşmişdir. Bu da əsas etibarilə, ölkə iqtisadiyyatının inkişafında dövlət büdcəsinin investisiya potensialının güclənməsi və tədricən onun investisiya-sosialyönümlü büdcəyə çevrilməsi fonunda özünü göstərmişdir. Keçən dövr ərzində büdcə xərclərinin 64%-dən çox hissəsi məhz ölkəmizin sosial-iqtisadi inkişaf məqsədlərinin maliyyələşdirilməsinə yönəldilmişdir.

Ümumiyyətlə, son dövrlər dünya bazarında müxtəlif təbii sərvətlərin qiymətlərinin artıb-azalması həmin ölkələrin büdcələrinə daxil olan vəsaitlərin, eləcə də xüsusi ehtiyat fondlarında toplanmış vəsaitlərin həcminə öz təsirini göstərir. Bu baxımdan, təbii sərvətlərdən dövlət büdcəsinə vəsaitlərin daxil olması dayanıqlı həcmdə olmur və bu da ölkədə dayanıqlı inkişafın maliyyələşdirilməsi mənbəyi kimi bu fondların fəaliyyətinə qeyri-stabilləşdirici təsir göstərir.

Aztəminatlı əhali təbəqəsinin sosial müdafiəsinin təmin edilməsində yoxsulluqla mübarizə məsələlərində dövlət büdcəsinin vəsaitlərindən istifadə edilsə də, digər mexanizmlər vasitəsilə əhalinin sosial müdafiəsinin gücləndirilməsi təmin edilməlidir. Bu məqsədlə ölkədə həm dövlət pensiya fondları, həm də qeyri-dövlət pensiya təminatı sisteminin formalaşdırılması stimullaşdırılmalıdır. Yoxsulluqla mübarizə məqsədlərinin reallaşması, aztəminatlı əhali təbəqəsinin

maraqları və hüquqlarının qorunması baxımından sosial sığorta sisteminin inkişafı vacibdir. Aztəminatlı əhalinin yoxsulluq tələsinə düşməməsi üçün sosial yardım sisteminin inkişafı ilə bərabər, insanların öz imkanları hesabına vəziyyətdən çıxmaları istiqamətində tədbirlər həyata keçirilməlidir. Məsələn, təsirli sosial müdafiə tədbirləri sırasında məşğulluğun inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Tam və məhsuldar məşğulluq, əsas gəlir mənbəyi əməkhaqqı olan muzdlu işçilərin təminatlı gəlirlərini formalaşdırır. Bir sıra ölkələrdə dayanıqlı inkişafa investisiya yatırımları məqsədilə vəsaitlərin formalaşmasında "yaşıl səhmlər"in emissiyası həyata keçirilir. Məsələn, 2015-ci ilin ilk yarısında "yaşıl səhmlər"in dünya bazarının həcmi 19,3 mlrd. ABŞ dolları olmuşdur [10].

Aparılmış araşdırmalar göstərir ki, dayanıqlı inkişafın maliyyələşdirilməsi modelləri sırasında beynəlxalq səviyyədə dövlət maliyyələşdirməsi xüsusi əhəmiyyət kəsb edir. Burada əsas məqsəd dayanıqlı inkişafın milli səviyyədə təmin edilməsinə beynəlxalq dəstəyin göstərilməsidir. Bu modelin tətbiqi əsas etibarilə, qlobal miqyasda yoxsulluq səviyyəsinin azaldılması və aradan qaldırılması, makroiqtisadi sabitliyin təmin edilməsi, resursların, nemətlərin regional və qlobal səviyyədə təqdim edilməsinə yardım göstərilməklə dayanıqlı inkişafın təmin edilməsinə istiqamətlənmişdir.

İnkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrə beynəlxalq səviyyədə dəstəyin əsas forma və mexanizmlərindən biri inkişaf məqsədli yardımlardır. Onlar İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının İnkişafa Yardım Komitəsinin üzvləri, çoxtərəfli institutlar və ölkələr tərəfində resipiyent ölkələrə onların məcmu milli gəlirinin 25%-i həcmində verilir. İnkişaf məqsədli rəsmi yardımlar bu ölkələrin dünya bazarına çıxmaları, beynəlxalq ticarətə qoşulmaları, xarici borclanma ilə bağlı problemlərinin həlli, dərman vasitələrinə, müasir texnika və texnologiyalara əlçatanlıqlarının təmin edilməsinə geniş imkanlar yaradır. Hər il bu məqsədlə inkişaf etmiş ölkələrin–donor ölkələrin dövlət büdcələrində vəsaitlərin ayrılması da nəzərdə tutulur. Beynəlxalq əhəmiyyətli fondları da dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində, onların maliyyələşdirilməsində geniş miqyasda iştirak edir.

Özəl sektor tərəfindən dayanıqlı inkişafın maliyyələşdirilməsi isə həm ölkə daxilində, həm də xarici ölkələrin biznes və qeyri-biznes subyektləri tərəfindən həyata keçirilə bilir. Bu tip maliyyələşdirmə modeli böyük həcmdə genişmiqyaslı maliyyə axınlarının hərəkətinə əsaslanır. Burada birbaşa xarici investisiyalar (BXİ), portfel investisiyaları və transmilli (transsərhəd) bank ssudaları, kreditləri geniş tətbiq edilir. Lakin nəzərə almaq vacibdir ki, dünya iqtisadiyyatında baş verən və stabil inkişafa təsir göstərən proseslər səbəbindən 2013-cü illə müqayisədə 2014-cü ildə dünya üzrə birbaşa xarici investisiyaların həcmi 16% azalaraq, 1,47 trln. ABŞ dollarından 1,23 trln. ABŞ dollarına düşmüşdür. İnkişaf etməkdə olan ölkələrdə isə BXİ-nin həcmi davamlı şəkildə artmaqdadır. Hazırda bu ölkələrdən 5-i BXİ-ləri ən çox cəlb edən 10 ölkə sırasına daxildir. Bunlar Çin, Honkonq, Sinqapur, Braziliya, Hindistandır. Digər 5 ölkə isə Çili, Meksika, İndoneziya, Rusiya Federasiyası, Kolumbiya olmuşdur. Eyni zamanda son illər inkişaf etməkdə olan ölkələrə yönəldilən birbaşa xarici investisiyaların xüsusi çəkisi də davamlı şəkildə artmaqdadır və 2014-cü ildə bu nisbət 55,5% həddində olmuşdur [10].

Dayanıqlı inkişafın xarici mənbələrdən maliyyələşdirilməsində miqrantların öz ölkələrinə göndərdikləri vəsaitlərin də rolu böyükdür. Bu vəsaitlər əsas etibarilə, ev təsərrüfatları büdcələrinin formalaşmasında iştirak edir və onların təhsil, səhiyyə, istehlak xərclərinin maliyyələşdirilməsində istifadə olunur. Bu mənada xaricdən pul köçürmələri, ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına da kifayət qədər müsbət təsir göstərir. Ona görə də bu pul köçürmələrinin resipiyent ölkələrin iqtisadiyyatına stimullaşdırıcı təsirləri ilə yanaşı, onlarda sosial, siyasi gərginliyin azaldılmasında da rolu mühümdür. Dünya Bankının hesablamalarına görə 1999-cu ildən keçən dövr ərzində orta hesabla hər il ölkəmizə təxminən 872 mln. ABŞ dolları həcmində pul köçürmələri həyata keçirilmişdir. 1999-2014-cü illər ərzində bu vəsaitlərin həcmi 13951 mln. ABŞ dollarından çox olmuşdur.

Aparılmış araşdırmalar göstərir ki, son illərdə bir çox ölkələrdə dayanıqlı inkişafın maliyyələşdirilməsinin yeni forması olan "qarışıq maliyyələşdirmə" mexanizminin tətbiqinə diqqət artır. Qarışıq maliyyələşdirmə potensial alətlərin geniş dairəsini özündə birləşdirir – buraya özəl maliyyələşdirmənin effektivliyinin artırılması üçün zəruri vasitələr, ənənəvi dövlət-özəl sektor

partnyorluğu formaları, eyni zamanda strukturca formalaşmış dövlət, özəl fondlar və maraqlı tərəflər: hökumət, xeyriyyə cəmiyyətləri, inkişaf bankları və özəl kommersiya müəssisələri arasında innovasiyalı "implementar partnyorluq" formaları daxildir. Qarışıq maliyyələşdirmə mexanizminin tətbiqi investorlarla hökumətin bilik və təcrübəsini birləşdirməklə investisiyalara mane olan bir sıra informasiya məhdudiyyətlərini də dəf etməyə imkan verir.

Ümumiyyətlə, milli və beynəlxalq səviyyədə maliyyə resurslarının qarşılıqlı optimal istifadəsinə əsaslanan çevik və universal maliyyələşmə modelinin formalaşdırılması bu gün dayanıqlı inkişafın təmin edilməsinin başlıca meyarı olaraq öz əhəmiyyətini saxlamaqdadır.

Tədqiqatlarımız göstərir ki, müasir inkişaf mərhələsində ölkəmizdə sosial problemlərin həllində uzunmüddətli perspektiv üçün dövlətin iştirakının minimuma endirilməsi, dövlət institutları ilə yanaşı, qeyri-dövlət institutlarının, özəl sektorun fəal iştirakının təmin edilməsi, vətəndaş fəallığının təmin edilməsi, sosial-iqtisadi həyatda cəmiyyət üzvlərinin fəal iştirakı məqsədilə onun özünün həm maddi, həm də mənəvi baxımdan bu proseslərə hazırlığı üçün şəraitin yaradılmasına hesablanmış yeni inkişaf strategiyasının formalaşdırılması vacibdir. Yeni sosial inkişaf strategiyasının prioritetləri kimi aşağıdakıların seçilməsi məqsədəuyğun hesab edilir:

- insanların sosial-iqtisadi təminatlılıq səviyyəsinin yüksəldilməsi, sosial-iqtisadi resurslara əlyetərliyin təmin edilməsi;
- cəmiyyətdə sosial-iqtisadi institutların fəaliyyətinin genişləndirilməsi vasitəsilə sosial təcrid olunmanın qarşısının alınması, sosial inteqrasiyanın təmin edilməsi;

Tədqiqatlar göstərir ki, Azərbaycanda sosial siyasət mexanizmlərinin təkmilləşdirilməsi aşağıdakıları ehtiva etməlidir:

a) İqtisadi mexanizmlərin təkmilləşdirilməsi:
- Məqsədli inkişaf proqramlarının tətbiqinin genişləndirilməsi və onların nəticələrinin monitorinqi və qiymətləndirilməsi sisteminin yaradılması;

b) Hüquqi mexanizmlərin təkmilləşdirilməsi:
- Sosial xidmət haqqında, sosial əmtəələrin və xidmətlərin kommersiyalaşdırılması və azad rəqabət haqqında qanunun və Sosial təminat məcəlləsinin qəbul edilməsi;
- Pensiya-sığorta sisteminə keçid mərhələləri və onun qanunverici bazasının formalaşdırılmasının sürətləndirilməsi;

c) İnstitusional mexanizmlərin təkmilləşdirilməsi:
- Dövlət və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın daha sürətli inkişafı;
- Sosial standartlar institutunun formalaşdırılması və standartların sosial inkişafa, sosial siyasətə təsir gücünün artırılmasına nail olunması;
- Yerli özünüidarəetmə orqanlarının sosial məsələlərin həllində iştirakı imkanlarının genişləndirilməsi.

Hesab olunur ki, sosial proqramların büdcədən maliyyələşdirilməsinin səmərəliliyinin artırılması üçün aşağıdakı institusional-iqtisadi xarakterli islahatların həyata keçirilməsi məqsədəuyğun olardı:

- Nəticəyə hədəflənən büdcə sisteminin tətbiqi;
- Transfert ödəmələri sisteminin inkişaf etdirilməsi və tədricən qeyri-dövlət təşkilatlarının bu prosesə cəlb edilməsi (xeyriyyəçilik fəaliyyətinin genişləndirilməsi);
- Sığorta-yığım sisteminin tətbiqinin sürətləndirilməsi. Dövlət əmək pensiyalarının yalnız baza hissəsini maliyyələşdirməlidir. Pensiyaların sığorta və yığım hissələri özəl təşkilatlara verilməlidir;
- Özəl pensiya fondlarının inkişafı və gələcəkdə onların maliyyə resurslarının kapitalaşmasına nail olunması, yəni investisiya pensiya fondlarının inkişafı üçün şərait yaradılması, onların maliyyə vəsaitlərinin sığortalanması və bu fondların investisiyalarına dövlət zəmanətinin verilməsi;
- Vahid sosial verginin ləğv edilməsi, sığorta növlərinə və konkret işlərə görə sığorta ödəmələrinin differensiasiyasının tətbiqi, yəni icbari pensiya sığorta sisteminə, icbari tibbi sığorta və icbari sosial sığorta sisteminə keçid;

- Sahibkarlara düşən sosial vergi yükünün azaldılması və onlarla işçilər arasındakı sosial ödənişlərin nisbətinin 60:40 və 50:50-ə çatdırmaq məqsədilə sahibkarlarla işçilər arasında sosial sığorta ödəmələrinin yenidən paylanması;
- İcbari sosial sığortaya cəlb edilən əməkhaqqının maksimum həddinin minimum əməkhaqqının 10 misli qədərində müəyyənləşdirilməsi.

Belə bir tətbiqin həyata keçirilməsi əməkhaqqının gizli hissəsinin leqallaşdırılmasına və onun həcminin artırılmasına şərait yaradardı.

Qeyd olunanların reallaşması, eyni zamanda sosial siyasətin nəticəliliyinin gücləndirilməsi məqsədilə onun maliyyələşdirilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətində aşağıdakıların həyata keçirilməsi məqsədəuyğun olardı:

- elmi əsaslandırılmış yaşayış minimumunun tətbiqi və indeksasiyası;
- əməkhaqları və sosial müavinətlərin indeksasiyası;
- minimum əməkhaqqının yaşayış minimum səviyyəsindən aşağı olmamaq şərti ilə müəyyən edilməsi;
- məcburi sosial sığorta sisteminin bütün iştirakçılarına məxsus fərdi hesablarda yığılan sosial ödəmələr haqqında tam və dolğun informasiyanın təqdim edilməsi.

## Nəticə

Məqalədə proqressiv metodoloji yanaşmalardan istifadə edilməklə Azərbaycan iqtisadiyyatında inkişafın sosial hədəflərinin dəyərləndirilməsi, sosial inkişafın demoqrafik və infrastruktur təminatı mənzərəsi, məşğulluq siyasəti və əmək bazarının adekvatlığı, həmçinin dayanıqlı inkişafın xüsusiyyətləri prizmasından mövcud sosial təminat və sosial müdafiə modelinin səmərəliliyinin qiymətləndirilməsi aparılmışdır. Aparılmış tədqiqatların ümumiləşdirilmiş nəticəsi olaraq, Azərbaycanda sosial keyfiyyət mərhələsinə keçid mexanizminin elmi əsasları haqqında təkliflər formalaşdırılmış, həmçinin Azərbaycanda dayanıqlı inkişafın sosial çağırışları kontekstində yeni sosial siyasət strategiyası və sosial siyasətin yeni maliyyələşdirilmə modeli haqqında əsaslandırılmış tövsiyələr formalaşdırılmışdır.

**Rasim Həsənov**

**Azərbaycan iqtisadiyyatında dayanıqlı inkişafın sosial çağırışları və sosial keyfiyyət modelinin formalaşdırılması vəzifələri**

**Xülasə**

Məqalə müasir inkişaf mərhələsində Azərbaycanda sosial inkişafın yeni keyfiyyət modelinin formalaşdırılması zərurətinin əsaslandırılması və onun əsas vəzifələrinin müəyyənləşdirilməsinə həsr edilmişdir. Müəllif Azərbaycan iqtisadiyyatının son onillikdə inkişafının sosial siyasətin formalaşdırılmasına təsirlərini araşdıraraq və dünya təcrübəsində müasir dövrdə sosial inkişaf siyasəti qarşısında qoyulan məsələləri qiymətləndirərək ölkəmizdə yeni sosial siyasət modelinin ən vacib vəzifələrini və elementlərini elmi cəhətdən əsaslandırmışdır. Məqalə çox böyük əhatə dairəsinə malik olan tədqiqatların materiallarını ehtiva edir. Bu baxımdan, təklif olunmuş modelin bəzi cəhətləri haqqında şərhlər yığcam ifadə olunmuşdur.

**Расим Гасанов**

**Социальные вызовы устойчивого развития в экономике Азербайджана и задачи формирования модели социального качества**

**Резюме**

Статья посвящена вопросам обоснования необходимости формирования новой модели качества социального развития в Азербайджане и определения ее основных задач. Автор статьи, анализируя влияние развития Азербайджанской экономики за последние десятилетия на формирование социальной политики и оценивая современные мировые вызовы политики социального развития, научно обосновывает и выдвигает основные задачи и элементы новой модели социальной политики в стране. Статья подготовлена на основе большого объёма материалов исследования. С этой точки зрения, комментарии по поводу

некоторых аспектов предложенной модели были описаны кратко.

**Rasim Hasanov**

**Social challenges of sustainable development in Azerbaijan economy and duties of formation of social quality model**

**Summary**

This article is dedicated to studying the necessity of formation of new quality model of social development and defining its main duties in the current development level of Azerbaijan. The author scientifically studies main duties and elements of new social policy model through analyzing the effects of the development in Azerbaijan economy in the last decade on the formation of social policy and through assessing the current world challenges of social development. The article encapsulates broad scope of research materials. From this point of view, the comments on some features of the proposed model are briefly described here.

**Ədəbiyyat**

1. "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 2012.
2. R.T.Həsənov. İqtisadi siyasət: Metodologiya və praktika. Bakı, 2010.
3. М. Беккер. Социальная защита – социальная болезнь. Москва, 1996.
4. Наше общее будущее. Доклад Международной комиссии по окружающей среде и развитию. Москва, 1989.
5. Программа действий: Повестка дня на XXI век и другие документы конференции в Рио-де-Жанейро. Ж.: Центр за наше общее будущее, 1993.
6. Программа действий Всемирной встречи на высшем уровне в интересах социального развития. Копенгаген, 1995.
7. Цели развития тысячелетия: Договор между народами об окончании человеческой бедности, Отчет о человеческом развитии, ПРООН, 2003.
8. Официальный перечень показателей достижения ЦРТ. 2008 г.
9. Indicators of Sustainable Development, UN Department for Policy Coordination and Sustainable Development, December, 1994.
10. www.un.org/sustainabledevelopment/ru/
11. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin internet portalı. www.stat.gov.az

# İNFORMASİYA TEXNOLOGİYALARI BAZARI VƏ ONUN MARKETİNQ TƏDQİQİNƏ YENİ YANAŞMALAR

***Eldar Quliyev***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*"Marketinq" kafedrasının dosenti, i.ü.f.d.,*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: eldargeorgia1948@mail.ru*

**Açar sözlər:** dünya iqtisadiyyatının qloballaşması, informasiya və kommunikasiya texnologiyaları, informasiya texnologiyaları bazarı, marketinq tədqiqatları, marketinqin idarə edilməsi, rəqabətqabiliyyətlilik.
**Ключевые слова:** глобализация мировой экономики, информационные и коммуникационные технологии, рынок информационных технологий, маркетинговые исследования, управление маркетингом, конкурентоспособность.
**Keywords:** globalization of the world economy, information and communication technologies, information technology market, marketing researches, marketing management, competitiveness.

Bu gün dünyada gedən qloballaşma prosesləri, müxtəlif ölkələrdə baş verən dəyişikliklərə və çağırışlara qarşı daima hazır olmağı tələb edir. Bununla əlaqədar dünyanın siyasi və iqtisadi məkanında baş verən prosesləri yaxından izləmək, baş verəcək dəyişiklikləri əvvəlcədən müəyyən etmək, yeri gəldikdə onlara qarşı qabaqlayıcı tədbirlərin görülməsi nəinki təsərrüfat subyeklərinin strateji marketinq siyasətində, eləcə də ölkənin iqtisadi və sosial həyatının dövlət tənzimlənməsində üzdə olan ən aktual problemlər siyahısına daxildir [4, səh. 62-66].

Müasir dünyanın təkamül prosesində müşahidə edilən bu problemlərin həll edilməsinin açarı insanların məskunlaşdığı məkanlar arasında sürətli və mötəbər informasiya mübadiləsinə imkan verən mütərəqqi informasiya və kommunikasiya sisteminin qurulmasıdır. Bazar münasibətləri şəraitində kommunikasiya sisteminin imkanlarından istifadə edərək, əmtəə və xidmətlərin inkişaf etdirilməsi son dövrlərdə aktuallaşmışdır. Məhz buna görə ölkəmizdə fəaliyyət göstərən istehsalçı və vasitəçi müəssisələr bu sahədə fəal marketinq siyasəti yürütməyi özlərinə borc bilir.

Dünya iqtisadiyyatının intensiv qloballaşması şəraitində informasiya texnologiyaları bazarının da formalaşması və inkişafında ciddi dəyişikliklər müşahidə edilir. Həmin dəyişikliklərin nədən və necə baş verdiyini, eləcə də nələrə təsir edəcəyi və nələrə yol açacağını aşkar etmək üçün yeni marketinq yanaşması əsasında ciddi təhlil işləri aparılmalıdır.

Belə ki, marketinq tədqiqatlarının daha dürüst nəticələrlə yekunlaşması üçün bu sahənin məhsul və xidmətlərinin spesifik xüsusiyyətləri, fəaliyyətinin sahələrarası xarakter daşıması və bazarının şaxələnməsi, təcrübədə müstəqil milli iqtisadiyyat sahəsi kimi formalaşması, müxtəlif elmlərin qovşağında yaranması və inkişafının müxtəlif milli iqtisadiyyat sahələrinə söykənməsi, maddi-texniki bazasının fərqləndirici cəhətləri, innovativliyə meyilliliyi və sosialyönümlülüyü, marketinq prinsiplərinə uyğun öyrənilməsi və təhlil edilməsi üçün xüsusi tələblərə cavab verən marketinq kompleksinin formalaşdırılması, informasiya sisteminin yaradılması və tədqiqat üsul və metodlarının seçilməsi mütləq nəzərə alınmalıdır.

Marketinq tədqiqatlarından aydın görünür ki, informasiya texnologiyaları bazarı faktiki olaraq, informasiya və kommunikasiya texnologiyaları (İKT) sənayesinin istehsal etdiyi məhsulların, bu sənayenin məhsullarının satışını müşahidə edən xidmətlər, ehtiyat hissələri və aksesuarlarının, kompüter və s. avadanlıq və qurğuların proqram təminatları, mühəndis-texniki işçilər və fəhlələri, informasiya və məlumatlar və internet şəbəkəsi bazarına bölünür. Buna görə həmin bazarlar ayrı-ayrılıqda və kompleks şəkildə öyrənilməlidir. Azərbaycanda qeyd edilənləri həyata keçirərək bu sahədə marketinq siyasəti ona yönəldilməlidir ki, İKT sektoru və informasiya texnologiyaları bazarının indiki inkişaf tempi daha da artırılaraq, ölkəmiz İKT məhsul və xidmətlərinin istehlakçısından istehsalçısına, idxalçısından ixrac edəninə çevrilsin [6, səh.32].

Həyat göstərir ki, elm, texnika və texnologiya inkişaf etdikcə milli iqtisadiyyat sahələrinin də tərkibi və quruluşu dəyişir, onların bəziləri öz aktuallıqlarını itirir və tədricən sıradan çıxır, digər

sahələrin isə sosial və iqtisadi əhəmiyyətləri artaraq, insanların və dövlətlərin həyatında aparıcı rol oynamağa başlayır, yalnız nadir hallarda insanların yaratdığı elm, texnika və texnologiya milli iqtisadiyyat sahələrinə tamamilə yeni informasiya və kommunikasiya texnologiyaları kimi bir sahəni əlavə edə bilir. Bu sahənin, həqiqətən də, digər sahələrə bənzərsizliyini və olduqca spesifik olmasını nəzərə alaraq, onu fərqli bir milli iqtisadiyyat sahəsi kimi qəbul etsək, səhv etmərik.

Mütərəqqi informasiya texnologiyalarından nəinki milli iqtisadiyyat sahələrində, eləcə də təkrar istehsal prosesləri və onların arasında ahəngdarlığın təmin edilməsində istifadə edilməsi məhsul istehsalını bazar tələblərinə uyğun qurmağa ciddi yardım edir, eləcə də dövriyyə sferasında material, informasiya və maliyyə axınlarının logistik idarə edilməsinin iqtisadi səmərəliliyini artırır. Deməli, kommersiya işlərində yeni idarəetmə üsullarının tətbiqi və müasir informasiya texnologiyalarının verdiyi imkanlardan istifadə edilməsi istehsalın optimallaşdırılması və məhsulların satış problemlərinin həll edilməsində aparıcı marketinq məsuliyyəti mərkəzinə çevrilir.

***İnformasiya texnologiyaları bazarı dedikdə informasiya və telekommunikasiya texnologiyaları və sistemlərində müəyyən qanunauyğunluqlarla xarakterizə edilən bu bazarın iştirakçılarının, məhsullarının və onların əlaqələndirilməsi proseslərinin toplusu başa düşülür.*** İnformasiya texnologiyaları bazarının iştirakçıları kifayət qədər genişdir (sxem 1) [2, səh.33].




Sxem 1. İnformasiya texnologiyaları bazarının əsas iştirakçıları

*Məhsul və xidmətlərin əldə edilməsi və satışı ilə əlaqədar informasiya texnologiyaları bazarının iştirakçıları arasında qarşılıqlı əlaqələr yeni məhsulların işlənib hazırlanması, istehsal edilməsi, bazar tədqiqatlarının aparılması, lazımi əmtəələrin axtarılması, sifariş edilməsi, göndərilməsi və istehlakı ilə əlaqədar prosesləri özündə birləşdirir.*

*İnformasiya və kommunikasiya texnologiyaları bazarında marketinq fəaliyyətinin obyekti müəssisələrin (firmaların, şirkətlərin və bu kimi qurumların) informasiya – analitik işləri və ekspert tədqiqatlarından ibarətdir.*

İKT texnologiyaları üzrə ixtisaslaşmış istehsalçı firmalar və onların məhsullarının satışı sahəsində təzə formalaşmaqda olan vasitəçi qurumlar müştərilərlə uzunmüddətli və çoxtərəfli əlaqələr yaradaraq, biznes informasiyası mübadiləsini tam reallaşdırır, habelə marketinq tədqiqatlarının həyata keçirilməsində mötəbər informasiya bazasının yaradılmasında xüsusi rol oynayır. Hazırda ölkəmizin informasiya texnologiyaları bazarında virtual biznes və elektron ticarəti, o cümlədən internet – biznes inkişafda olmaqla informasiya və kommunikasiya məhsulları ilə yanaşı, digər əmtəələrin də satışının əsas ağırlığını öz üzərinə götürür.

Təcrübədə və bir sıra elmi ədəbiyyatlarda informasiya texnologiyaları marketinqi, informasiyaların iqtisadi maraqlara uyğun, yəni kommersiya əsasında satışı və yayılmasını nəzərdə

tutmaqla yanaşı, marketinqin özünün informasiya təminatı sisteminin formalaşdırılmasını da qarşıya qoyur.

Onu da qeyd edək ki, artıq xeyli müddətdir inkişaf etmiş ölkələrdə biznesin yeni növü – elektron kommersiya variantı uğurla inkişaf edir. Lakin Azərbaycanda müasir informasiya texnologiyalarının biznesə tətbiqi sahəsində xeyli problemlər mövcuddur. Həmin problemlərin və internet vasitəsilə firmaların (şirkətlərin) marketinq məsələlərinin elmi-nəzəri və praktiki baxımdan öyrənilməsi dövrün tələbidir.

Müasir zamanda informasiya texnologiyaları marketinqi dedikdə bir qayda olaraq, bunlar nəzərdə tutulmalıdır [2, səh.42-50] :

- informasiya və kommunikasiya texnologiyaları bazarının makromühit və mikromühit amillərinin kompleks tədqiq edilməsi;
- informasiya və kommunikasiya texnologiyaları bazarının konyukturası və tutumunun dəqiqləşdirilməsi;
- informasiya və kommunikasiya texnologiyaları bazarında rəqiblərin və rəqabət mühitinin təhlil edilməsi və qiymətləndirilməsi;
- informasiya və kommunikasiya texnologiyaları məhsul və xidmətlərinin müqayisəli qiymətləndirilməsi və istehlakçı tələblərinə uyğun istehsalının təmin edilməsi;
- informasiya və kommunikasiya texnologiyaları məhsullarının bölüşdürülməsi və satışı kanallarının tədqiq edilməsi və imkanlarının qiymətləndirilməsi;
- informasiya və kommunikasiya texnologiyaları məhsul və xidmətləri üzrə reklam və satışın həvəsləndirilməsi proqramının formalaşdırılması;
- informasiya və kommunikasiya texnologiyaları məhsul və xidmətləri üzrə dəyişkən qiymət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinin təmin edilməsi;
- İnternet-marketinq strategiyasının hazırlanması və əsas prinsiplərinin müəyyən edilməsi;
- virtual biznes və elektron ticarəti mühitindən istifadəolunma imkanlarının araşdırılması;
- elektron informasiya vasitələrində reklamın formalaşdırılmasının zəruriliyinin əsaslandırılması və xüsusiyyətlərinin müəyyən edilməsi;
- virtual biznes elektron internet ticarəti xidməti bazarının müasir vəziyyətinin tədqiq edilməsi və qiymətləndirilməsi;
- informasiya və kommunikasiya texnologiyaları bazarının inkişafı üzrə əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması və müvafiq qurumlara təqdim edilməsi və s.

Bazarın idarə edilməsi konsepsiyası kimi informasiya texnologiyaları marketinqinin əsas prinsipləri bunlar olmalıdır.

- bazarın problemləri və inkişaf meyillərinin öyrənilməsi, o cümlədən bazar subyektlərinin fəaliyyət motivlərinin hərtərəfli tədqiq edilməsi və onlara fəal təsir göstərilməsi;
- bütün fəaliyyətin istehlakçıların və cəmi alıcıların istək və arzuları əsasında onların tələblərinin ödənilməsinə yönəldilməsi;
- strateji təsərrüfat bölmələri və məsuliyyət mərkəzlərinin seçilməsi və onların gələcəyə istiqamətləndirilməsi;
- innovativ tədqiqat mərkəzlərinin yaradılması, onların elmi axtarışlarının nəticələlərinin istehsala tədbiqinin sürətləndirilməsi, yaratdıqları yeni və təkmilləşdirilmiş məhsulların sınaq marketinqlərinin (satışlarının) keçirilməsi;
- informasiya proqram təminatlarının daima təkmilləşdirilməsi və informasiya texnoloji qurğularının texniki və istismar imkanlarının yaxşılaşdırılması və genişləndirilməsi üzrə tədqiqat işlərinə dəstək verilməsi;
- insan amilinin gücləndirilməsi və ondan səmərəli istifadə edilməsi;
- bütün maddi, maliyyə və insan resurslarından, eləcə də vaxtdan qənaətlə və effektiv istifadə edilməsi;
- marketinqin təşkili, planlaşdırılması və idarə edilməsinin bazar tələblərinə uyğunlaşdırılması məqsədilə daima qabaqlayıcı tədbirlərin görülməsi;
- bütün imkanlardan istifadə edərək marketinqin qarşısında duran məqsədin, funksiyaların və vəzifələrin keyfiyyətli icrasının təmin edilməsi.

Azərbaycanda sahibkarlığın və ümumilikdə iqtisadiyyatın inkişafını təmin edəcək, təkmilləşə bilən müvafiq infrastrukturun yaradılması çox aktual bir məsələ kimi qarşıda durur. Bu məqsədlə gələcəyə yönəldilmiş informasiya texnologiyaları bazarı, birjalar, dövlət və özəl banklar, konsaldinq qurumları, müasir tələblərə cavab verən reklam agentlikləri, vergi və gömrük sistemləri, işgüzar dairələrin birlikləri, ticarət-sənaye palatası, azad (sərbəst) iqtisadi zonalar və bir sıra bu kimi digər qurumlar, eləcə də mütərəqqi, korrupsiyadan uzaq olan icraedici və nəzarətedici dövlət strukturları formalaşdırılmalıdır. Bütün bu işlərin görülməsində vacib məsələlərdən biri ölkəmizdə ən yüksək tələblərə cavab verən informasiya və kommunikasiya texnologiyalarının imkanlarından istifadə edilməsidir.

İKT bazarının formalaşması inkişaf etmiş bazar münasibətləri şəraitində özünü daha qabarıq şəkildə büruzə verir. Azərbaycan həm bazar iqtisadiyyatının, həm də informasiya texnologiyaları bazarının formalaşması və inkişafı baxımından bir sıra ölkələrdən xeyli geridə qalır. Bu gün Azərbaycanda bu sahədə xarici təcrübənin öyrənilməsinə böyük ehtiyac vardır. Lakin xarici təcrübənin kortəbii təkrarlanması deyil, onun səviyyəsinin və inkişaf yollarının təhlili və düzgün qiymətləndirilməsi Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları bazarının formalaşmasına və inkişafına yardımçı ola bilər [5, səh. 35-38].

Firmalar tərəfindən şəxsi satışın təşkili və birbaşa marketinqin həyata keçirilməsi də kommunikasiya sisteminin çox təsirli vasitələrindən biridir. Marketinq konsepsiyasına müvafiq qaydada, ənənəvi kommunikasiya tədbirlərindən fərqli olaraq, birbaşa marketinqin tətbiq edilməsi firmalara konkret marketinq təklifləri, fərdi alıcılara birbaşa müraciət etmək, onların həmin təkliflərə cavab reaksiyasını çox qısa müddətdə bilmək, təkliflərin alıcıların tələbinə uyğun gəlməsini müəyyənləşdirmək, bununla da daha çox məhsul satmağa imkan verir.

İnteqrasiya olunmuş marketinq İKT bazarının təkmilləşdirilməsi istiqamətlərindən biri kimi çıxış edir. Baxmayaraq ki, hazırda olduqca azsaylı firmalar bu konsepsiyadan istifadə edirlər. Bir çox mütəxəssislərin fikrinə görə, yaxın gələcəkdə marketinq fəaliyyətini həyata keçirən firmaların əksəriyyəti özlərinin kommunikasiya sistemlərini inteqrasiya etməkdə maraqlı olacaqlar.

İnformasiya texnologiyaları bazarında gedən proseslərlə əlaqədar rəqabətqabiliyyətliliyin təmin edilməsi ilə bağlı müvafiq bir qərar qəbul etmək üçün azı dörd mərhələdən keçmək lazımdır:

- məlumatların toplanması;
- onların seçilməsi və təşkil edilməsi;
- təhlil materialları əsasında nəticəyə gəlinməsi və ya müəyyən qərarların verilməsi;
- verilmiş qərarlar və sərəncamların yerinə yetirilməsinə nəzarət edilməsi.

Göründüyü kimi, informasiya texnologiyaları bazarında marketinq tədqiqatlarının aparılması bu sahənin təşkili və idarəedilməsinin ayrılmaz tərkib hissəsidir. Müasir dövrdə cəmiyyət inkişaf etdikcə bazarlar, o cümlədən İKT bazarları genişləndikcə rəqabət kəskinləşir və bu proseslərin nəticəsi kimi bütün sahələrdə idarəetmə mürəkkəbləşir. Təcrübədən bilirik ki, idarəetmə texniki, texnoloji, təşkilati, psixoloji, sosial, iqtisadi və s. məsələlərlə bağlıdır. Bütün bu amillər toplusu müəssisənin fəaliyyətinə daima təsir göstərə bilir. Marketinq tədqiqatlarının özü məhz qeyd edilən bu istiqamətləri əhatə etməlidir. Hazırda ölkəmizin milli iqtisadiyyatında əksər sahələr elmtutumlu hesab edilməkdədir. Deməli, informasiya texnologiyaları bazarının marketinq tədqiqatları da yeni istiqamətdə inkişaf etdirilməli və təkmilləşdirilməlidir.

Qeyd etmək lazımdır ki, informasiya texnologiyaları bazarının marketinq tədqiqatlarının məzmunu da daima yeniləşərək dəyişməyə meyil edir. Məsələn, inkişaf etmiş ölkələrdə iqtisadi göstəricilərin müqayisəli təhlili statistik fakt kimi qəbul edilir və marketinq tədqiqatları olaraq qiymətləndirilmir. Bu ölkələrdə marketinq tədqiqatları əsasında informasiya və kommunikasiya texnologiyaları bazarlarının təhlili prosesi müxtəlif variantların, müəyyən üsul və metodlardan istifadə edərək müqayisəli təhlilindən başlayır. Öz növbəsində idarəetmə qərarları üzrə variantların hazırlanması da marketinq tədqiqatları çərçivəsində iqtisadi təhlilə əsaslanmalıdır. Qeyd edilənlər isə marketinq tədqiqatlarının elmi-nəzəri və metodoloji aparatının təkmilləşdirilməsini, onun daima inkişaf etdirilməsini, eləcə də dövlət tərəfindən təqdim edilən statistik göstəricilərin dürüstləşdirilməsini tələb edir.

Ölkəmizdə başlıca problemlərdən biri də müasir informasiya texnologiyalarından istifadə edərək cəmi marketinq bazarının tədqiqatları nəticələrinə əsasən bütün bölgələrdə maddi,

maliyyə-iqtisadi və insan resurslarından daha effektli istifadə edilməsi üçün tədbirlər həyata keçirilməlidir. Məsələn, informasiya texnologiyaları sahəsində əmək resursları bu gün elmlə silahlanmalı, qabaqcıl təcrübəyə malik olmalı və yaradıcı-innovativ xarakter daşıyan bir keyfiyyətə malik olmalıdır. Deməli, bu gün nəinki bu sahədə, eləcə də digər milli iqtisadiyyat qurumlarında, kadrların seçilməsi və yerləşdirilməsində qeyd edilən keyfiyyətlər mütləq nəzərə alınmalıdır. Başqa sözlə desək, müasir Azərbaycanda əmək resursları üzrə ehtiyat mənbələrini hər bir işçinin təhsili, yəni ümumi savadı, nəyi bilməlidir, nəyi bacarmalıdır, icraçılıq intizamı və qabiliyyəti, mənəvi-etik keyfiyyətləri, komandada işləmək bacarığı, innovativ düşünmək və təkliflər vermək imkanları prizması və sınaqlardan keçirərək axtarmaq, işə götürmək və müvafiq vəzifə pillələri üzrə irəlilətmək problemi aktual problem kimi nəzarətdə saxlanılmalıdır.

Bazar münasibətləri şəraitində informasiya texnologiyaları məhsul və xidmətlərinin maya dəyərinin marketinq araşdırmalarına da münasibət dəyişməlidir. Təcrübə göstərir ki, maya dəyəri bəzən subyektiv amillərin, eləcə də kollektivin səyindən asılı olmayan səbəblər hesabına enə bilir. Məsələn, o, Tarif Şurası tərəfindən elektrik enerjisinin tariflərinin qaldırılması və neft məhsullarının qiymətlərinin yüksəldilməsi, manatın məzənnəsinin dollara nisbətən aşağı düşməsi əksər təsərrüfatlarda olduğu kimi, informasiya texnologiyaları məhsul və xidmətlərinin də maya dəyərini yuxarı qaldırdı və bu sahədə mənfəət əldə olunmasını azaltdı, bəzi iqtisadiyyat sahələrinə isə daha sarsıdıcı zərbələr endirdi. Deməli, informasiya texnologiyaları bazarının marketinq təhlili zamanı bu amillər də nəzərə alınaraq, maya dəyərinin məsrəf maddələri üzrə kalkulyasiyası aparılmalı və xərclərin azaldılması istiqamətində tədbirlər görülməlidir.

İnformasiya texnologiyaları məhsul və xidmətlərinin bazarda rəqabətin kəskinləşməsi müşahidə edildiyi bir şəraitdə firma və ya şirkətlərin fəaliyyət göstərməsi onların istehsal etdikləri məhsulların keyfiyyətindən və göstərdikləri xidmətlərin səviyyəsindən bilavasitə asılıdır. Burada marketinq elminin tələbinə görə, təhlil yalnız məhsul və xidmətlərin sayı və qiyməti ilə deyil, onların keyfiyyəti ilə bağlı olan bütün problemləri əhatə etməklə istehsal, bölgü və satış mərhələləri üzrə kompleks şəkildə obyektiv təhlil edilməlidir. Eyni zamanda marketinq tədqiqatlarının gedişatı prosesində fəhlələrin ixtisas dərəcələrinin artırılmasının, işçilərin maddi marağının yüksəldilməsinin, onların əmək intizamı və verdikləri təkliflərin məhsul və xidmətlərin keyfiyyətinə təsiri və sair məsələlər dərindən öyrənilməlidir [6, səh.35-59].

İKT bazarının öyrənilməsi məqsədilə marketinq tədqiqinin həyata keçirilməsi prosesində xarici ölkələrin bu sahədə təcrübəsindən də istifadə edilməlidir. Misal üçün, mənfəət kütləsinə İKT şirkətinin istehsal gücündən istifadə etməsinin təsiri, material resurslarından istifadənin məhsulun maya dəyərinə təsiri və s. Bu kimi sintetik göstəricilər istehsal gücünün mənfəətlə bağlı olması barədə müəyyən təsəvvür yaradır, eləcə də şirkətdə qənaətçilik rejimi barədə fikir söyləməyə imkan verir.

İKT ilə bağlı xarici ölkələrin təcrübəsində istehsal fondlarının təsərrüfat vahidləri üzrə istifadəsinin marketinq tədqiqi də diqqəti cəlb edir. Dünyanın qabaqcıl ölkələrinin bu sahədə təcrübəsində diqqəti cəlb edən məsələlərdən biri də əsas istehsal fondlarının iş prosesinə hazır vəziyyətdə saxlanılması üçün işçi heyətinin maddi və mənəvi həvəsləndirilməsidir. Aydındır ki, mühəndis və fəhlə heyətinin sərəncamlarında olan dəzgahlara lazımi səviyyədə texniki xidmət göstərdikdə istismar dövründə və təmir zamanı onlara daha az vəsaitlərin xərclənməsi ehtimalı yüksəlir. Deməli, İKT qurğuları və avadanlıqlarına texniki baxışların vaxtlı-vaxtında keçirilməsi, onların nasazlıqlarının operativ aradan qaldırılması, onlara keyfiyyətli xidmət edilməsi son nəticədə onların təmir-istismar xərclərini azaltmağa imkan verir. Beləliklə, bu yolla əldə edilən qənaətin müəyyən hissəsinin mühəndis və fəhlələrə verilməsi İKT qurğuları və avadanlıqlarının həmişə istismara yararlı vəziyyətdə saxlanılması işçilərdə müəyyən iqtisadi və sosial stimul yaradardı. Bu isə həm İKT məhsul və xidmətlərinin keyfiyyətinin yüksəlməsinə və istehsallarının artmasına, həm də istehsal fondlarının təmir xərclərinə yönəldilən maliyyə vəsaitlərinə xeyli qənaət edilməsinə imkan verərdi [7].

İKT bazarında təqdim edilən məhsul və xidmətlərin iqtisadi cəhətdən səmərəli olması, istehsal resursları arasında formalaşdırılan əlaqələrin optimal qurulmasından bilavasitə asılıdır. Bu sahədə əsas istehsal resursları sayılan əmək resursları, əsas istehsal fondları, xammal və material arasında olan optimal nisbət bir çox amillərin təsiri altında dəyişməyə meyilli olur. Bu prosesi

tənzimləmək məqsədilə nəinki istehsal resursları, eləcə də dövriyyə vəsaitləri arasında yaradılan mütənasibliklər və əlaqələr kəmiyyət, keyfiyyət baxımından təmin edilməlidir.

Bildiyimiz kimi, milli iqtisadiyyat sahələrində və onların tərkibinə daxil olan müəssisələrdə istehsalın effektivliyi müxtəlif olduğu kimi, əsas fondlar və dövriyyə vəsaitlərindən istifadə ilə yanaşı, mənfəətçilik də qeyri-bərabərdir. Bazar münasibətləri şəraitində bu cür vəziyyət həmin ictimai-iqtisadi sistemin prinsipial əsasına-bazar iqtisadiyyatının işləmə mexanizminə tam uyğun gəlir. Bununla belə bu gün cəmi dünya iqtisadiyyatının lokomotivi sayılan informasiya və kommunikasiya texnologiyaları bazarında təqdim edilən məhsul və xidmətlərin istehsalı prosesində iqtisadi səmərəliliyin yüksəlməsində iqtisadi qanunauyğunluqların qorunması, bu sahənin cəmi milli iqtisadiyyat sahələrinə sirayət etməsi ilə əlaqədar olaraq olduqca aktualdır. Misal üçün, iqtisadi qanunauyğunluğa görə, bütün milli iqtisadiyyat sahələrində orta əməkhaqqının artım tempi, əmək məhsuldarlığının artım tempini qabaqlamamalıdır. Tədqiqatlardan isə belə nəticə çıxır ki, bir çox ölkələrdə, bəzən bu qanunauyğunluğun pozulmasına rast gəlmək olur. İqtisadi qanunauyğunluqların bu cür pozulması nəticəsində nəinki həmin özbaşınalıqlar müşahidə edilən sahələrdə, eləcə də ümumilikdə əmtəə və xidmətlər bazarlarında qiymətlər qalxır, istehlakçıların hüquqları pozulmuş olur. Belə ki, ölkəmizin informasiya və kommunikasiya texnologiyaları bazarında təqdim edilən məhsul və xidmətlərin qiymətləri qonşu ölkələrə nisbətən 1,3-1,5 dəfə yüksəkdir və bu vəziyyət ümumilikdə məhsul və xidmətlərin bazar qiymətlərinin yüksək olmasına şübhəsiz təsir edir.

Ümumilikdə milli iqtisadiyyat sahələrində, o cümlədən İKT sahəsində yüksək istehsal nəticələrinin əldə edilməsinə mənfi təsir göstərən amillər, obyektiv və subyektiv hallar, o cümlədən dövlət idarəçiliyində yaradılan və biznesin inkişafına mənfi təsir göstərən problemlərin təhlükəsi hər dəfə qaçılmaz olmasa da, həmişə mövcuddur. Hər bir ölkədə, misal üçün, Ermənistanda olduğu kimi dövlət idarəçiliyi və mütləq hakimiyyət destruktiv elementlərin əlində cəmləşdikdə, öz növbəsində qanunvericilik sistemi, güc strukturları, icra aparatı, nəzarət qurumları vahid komanda kimi işləmədikdə, onların arasında hərc-mərcliyə, yerlibazlığa və korrupsiyaya yol verildikdə, heç vaxt müəssisə və təşkilatlarda marketinq və menecment tələb edilən səviyyədə olmayacaq, mənfi potensial qüvvələr ölkə daxilində və xaricində fəallaşacaq və öz mənfi təsirlərini sosial və iqtisadi həyatın bütün səviyyələrində büruzə verəcəkdir. Elə etmək və elə sistem formalaşdırmaq lazımdır ki, bizim ölkədə bu neqativ hallara heç kəs və heç vaxt yol verə bilməsin, cəmi iqtisadiyyatımız sözdə yox, həqiqətdə dinamik və proporsional inkişaf etsin, milli valyutamız olan manat möhkəmlənsin, milli iqtisadiyyat sahələrimiz, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsi və bazarı müsbət istiqamətdə inkişaf etsin, əhalinin sosial və iqtisadi durumu indiki səviyyəyə nisbətən daha yüksək olaraq inkişaf etmiş Skandinaviya ölkələri səviyyəsinə qalxsın.

İKT bazarının marketinq tədqiqi elə aparılmalıdır ki, bu sahədə baş verən bütün hadisə və proseslərə, o cümlədən həmin sferaya daxil olan firma və şirkətlərdə çalışan rəhbər işçilərin, mühəndis-texniki işçilər və fəhlələrin tərkibi və strukturu, onların professional hazırlığı, iş rejimi, iş yerinin vəziyyəti, avadanlıq və texniki qurğuların gücü, bütün qeyd edilənlərin mövcud standartlara, eləcə də bazarın və isehlakçı tələbinə uyğun gəlib-gəlməməsi marketinq təhlili və qiymətləndirməsindən kənarda qalıb diqqətdən yayınmamalıdır.

Bazarların, o cümlədən İKT bazarının marketinq tədqiqi elə qurulmalı və həyata keçirilməlidir ki, nəticədə ətraf mühitin öyrənilməsindən başlamış, bazarın konyukturası və tutumu, bazarda fəaliyyət göstərən bütün tərəflər və qüvvələr, satışa çıxarılan məhsul və xidmətlərin həcmi və çeşidi, onların bölüşdürülməsi və satışının ahəngdarlığı, onların reklamı və satışlarının həvəsləndirilməsi problemləri, məhsul və xidmətlərin bölüşdürülməsi və satışı ilə əlaqədar logistik məsələlərin praktiki həlli, cəmi qeyd edilən məsələlərlə bağlı firma və şirkət rəhbərlərinin gördükləri işləri və verdikləri qərarları, əsaslı təhlil edilərək qiymətləndirilməsi mümkün olsun. Yuxarıda qeyd edilən problemləri müasir tələblərə uyğun həll etmək üçün informasiya məhsul və xidmətlərinin istehsalçıları və satıcıları öz statistika, uçot, hesabat və nəzarət sistemlərinə yeni prizmadan baxaraq, dövrün tələblərinə cavab verən müasir xüsusi marketinq infomasiya və kommunikasiya təminatı sistemi qurmalıdırlar.

Bazar münasibətləri şəraitində İKT sahəsində təsərrüfat məsələlərinin həllində səhvlərə yol vermək, digər sahələrdəki kimi iflasa uğramaq deməkdir. Hər bir təsərrüfat subyektində belə

arzuolunmaz halların qarşısını almaq mütərəqqi tədqiqat alətləri və aparatından istifadə edən marketinq təhlilinə müraciət etmək lazımdır.

Bazarın, o cümlədən informasiya texnologiyaları bazarının marketinq prinsiplərinə uyğun tədqiq edilməsi əsasında aşağıdakılara nail olmaq mümkündür [9]:

- bazarda gedən proseslərlə yanaşı, onların konyunkturası və tutumu, firma və şirkətlərin bazar payları, onların arasında yaranan rəqabət, alıcıların tərkibi və strukturu, məhsul və xidmətlərin bazar qiymətləri, eləcə də digər aktual məsələlər müasir marketinq elminin cəlb etdiyi təhlil və diaqnostika alətləri və aparatından istifadə etməklə obyektiv araşdırılır və qiymətləndirilir;
- bu cür marketinq tədqiqatları nəticəsində paralel olaraq istehlakçının tələbləri, arzu və istəkləri öyrənilir, onlardan məhsul və xidmətlərin təkmilləşdirilməsi və yeniləri ilə əvəz edilməsinə dair dürüst məlumatlar əldə edilir;
- aparılmış marketinq tədqiqatlarının yekununda bazar və istehlakçı tələbi ilə məhsul və xidmətləri təqdim edən firma və şirkətlərin istehsal və satış imkanları arasında tarazılığın təmin edilməsi üçün lazımi məlumatlar əldə edilir;
- bu cür marketinq tədqiqatları informasiya və kommunikasiya texnologiyaları sahəsində innovativ məhsul və xidmətlərin əldə olunması üçün real əsas yaradılır;
- marketinq tədqiqatları imkan verir ki, hər bir firma və şirkət özünün və rəqiblərinin üstün və mənfi cəhətlərini tam açıqlığı ilə görə bilsin;
- marketinq tədqiqatları zaman və məkandan asılı olaraq, eləcə də real şəraitləri nəzərə alaraq, resursları daha optimal idarə etməyə, uğurların və nöqsanların səbəblərini axtarmağa şərait yaradır;
- marketinq tədqiqatları hər bir firma və şirkətə öz real imkanlarını dəyərləndirməyə və vəziyyətdən asılı olaraq, marketinq xidmətinin özünün təşkili, planlaşdırılması və idarə edilməsinin bazar problemlərinin həll edilməsi məqsədinə uyğun yaxşılaşdırılması üçün dəyərli təkliflər vermək imkanları qazandırır;
- marketinq tədqiqatları dövrün tələblərinə cavab verən xüsusi marketinq uçot, hesabat, nəzarət və informasiya sisteminin yaradılması və formalaşdırılması üçün yol açır;
- marketinq tədqiqatları idarəetmədə olan bütün nöqsanları və gizli mənbələri aşkar etməyə imkan verir;
- marketinq tədqiqatları əsasında informasiya və kommunikasiya texnologiyaları bazarını ətraflı təhlil edərək, onun variantlar üzrə proqnoz inkişaf modellərini qurmağa imkan verir və s.




Sxem 2. İnformasiya və kommunikasiya texnologiyaları bazarının əhatə dairəsi

İKT bazarının marketinq tədqiqi bu sahədə faktiki olaraq, informasiya və kommunikasiya texnologiyaları sənayesinin istehsal etdiyi məhsullar bazarının, onun məhsullarının satışını müşahidə edən xidmətlər bazarının, ehtiyat hissələri və aksesuarlar bazarının, kompüter və s. avadanlıq və qurğuların proqram təminatları bazarının, mühəndis-texniki işçilər və fəhlələr bazarının, informasiya və internet bazarının vahid kompleks kimi və ayrılıqda marketinq təhlilindən keçirilməsini istisna etmir (sxem 2).

İKT üzrə ehtiyat mənbələri elmi-texniki tərəqqinin inkişafı hesabına da çoxalır. Deməli, bu sahədə marketinq tədqiqinin əsas obyektlərindən biri də bu amil olmalıdır. İnkişaf imkanlarının axtarışı və üzə çıxarılması insan amilindən, yəni insan kapitalının formalaşması ilə bağlıdır. İnkaredilməz bir faktdır ki, müəssisə rəhbəri yeniləri ilə əvəz edildikdə onun qarşısında müsbət istiqamətdə dəyişmə və yeniləşmə baş verir. Deməli, marketinq tədqiqatı prosesində ehtiyat mənbələri bu istiqamətdə də araşdırılmalıdır.

İnformasiya texnologiyası-obyektin vəziyyəti, orada baş verən hadisələr haqqında yeni keyfiyyətdə son informasiyanın (informasiya məhsulunun) yaradılması, saxlanılması, seçilməsi, işlədilməsi (istifadə edilməsi) və ötürülməsi məqsədilə spesifik sistem və alətlərdən, eləcə də geniş istismarçılar kütləsi üçün və eksklüziv hazırlanmış xüsusi texniki vasitələr və texnologiyalardan istifadəni nəzərdə tutan işlər və tədbirlər məcmusundan ibarət olan bir prosesdir.

Bir qayda olaraq, informasiya texnologiyaları aşağıdakı şəkildə fərqləndirilir [9]:

- məlumatların işlənməsinin informasiya texnologiyası;
- idarəetmə informasiya texnologiyası;
- ofisin avtomatlaşdırılması ilə əlaqədar informasiya texnologiyası;
- müxtəlif səviyyələrdə iqtisadi, sosial, siyasi və s. ilə əlaqədar müəyyən qərarların qəbulunun təmin edilməsinin informasiya texnologiyası;
- ekspert sistemlərinin informasiya texnologiyası və s.

***İnformasiya texnologiyaları bazarında marketinq tədqiqatlarının istənilən yüksək səviyyədə aparılması üçün bir sıra məqamlar nəzərə alınmalıdır [8]:***

- məhsul və xidmətlərin spesifik xüsusiyyətləri;
- fəaliyyətin sahələrarası xarakter daşıması və bazarının şaxələnməsi;
- təcrübədə müstəqil milli iqtisadiyyat sahəsi kimi formalaşması;
- müxtəlif elmlərin qovşağında yaranması və inkişafının müxtəlif milli iqtisadiyyat sahələrinə söykənməsi;
- maddi-texniki bazasının fərqləndirici cəhətləri;
- innovativliyə meyilliliyi və sosialyönümlülüyü;
- marketinq prinsiplərinə uyğun öyrənilməsi və təhlil edilməsi üçün xüsusi tələblərə cavab verən marketinq kompleksinin formalaşdırılması, informasiya sisteminin yaradılması və tədqiqat üsul və metodlarının seçilməsi.

Aparılmış marketinq tədqiqatları göstərir ki, informasiya texnologiyaları bazarı faktiki olaraq, bir neçə lokal bazar istiqamətinə bölünür:

- informasiya və kommunikasiya texnologiyaları sənayesinin istehsal etdiyi məhsulların bazarına;
- sənaye məhsullarının satışını müşahidə edən xidmətlər bazarına;
- ehtiyat hissələri və aksesuarların bazarına;
- kompüter və s. avadanlıq və qurğuların proqram təminatları bazarına;
- mühəndis-texniki işçilər və fəhlələr bazarına;
- informasiya və məlumatlar bazarına;
- İnternet şəbəkəsi bazarına.

Məlumatların işlənmə texnologiyasının metodologiyası bu sahədə əldə edilən nəzəri və praktiki nailiyyətlərə, habelə elmi yanaşma prinsiplərinə əsaslanmalıdır. Belə ki, marketinq tədqiqatları aparılarkən sosial-iqtisadi və texnoloji proseslərin təşkili səviyyəsi və nəticələrini araşdırmaq üçün geniş iqtisadi təhlil və statistika aparatından, sistemlilik, komplekslilik və optimallıq prinsiplərindən tipləşmə və standartlaşdırma metodik yanaşmalarından istifadə edilməli, perspektiv və fasiləsiz inkişaf təcrübələri nəzərə alınmalıdır. Qeyd edilənlərə əlavə olaraq, iqtisadi informasiyanın avtomatlaşdırılmış işlənməsi sahəsində, inteqrasiya prinsiplərinə uyğun istifadəçilər üçün müvafiq şəraitin yaradılması, informasiyaların ötürülməsi üzrə inkişaf etmiş sistem bazasında məlumatların parçalanaraq ötürülməsi və bütövləşdirilərək işlənməsi, idarəetmənin və hesablama sistemlərinin mərkəzləşdirilməsi və qeyri-mərkəzləşdirilməsinin səmərəli əlaqələndirilməsi, texnoloji proseslərin unifikasiya edilməsi, digər məsələlərin həlli də nəzərə alınmalıdır.

Azərbaycan iqtisadiyyatına gəldikdə isə burada informasiya texnologiyaları bazarı formalaşmaq üzrədir. Elmi müşahidələr göstərir ki, bizim ölkədə informasiya texnologiyaları bazarının inkişaf perspektivləri bilavasitə bu sahədə düşünülmüş və hesablanmış dövlət siyasəti əsasında aparılır.

Təcrübədə hər bir ölkənin iqtisadi inkişafının davamlılığının təmin edilməsində İKT qabaqlayıcı və təkanverici rol oynayır. Müasir dövrdə Azərbaycanın davamlı inkişafı siyasətinin prioritet istiqamətlərindən olan İKT bütün sosial-iqtisadi sahələrə və insanların gündəlik fəaliyyətinə sürətlə nüfuz edərək, ictimai-iqtisadi münasibətlərin ayrılmaz tərkib hissəsinə və iqtisadiyyatın aparıcı elementlərindən birinə çevrilmişdir.

Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da İKT sektoru artım tempinə və yayılma dərəcəsinə görə yüksələn xətlə inkişaf etməkdədir. Həmçinin bu sektor yeniliklərin tətbiqinə, xarici və yerli investisiyaların cəlb olunmasına görə iqtisadiyyatın digər sahələrinə nisbətən öncül mövqedədir.

İnformasiya texnologiyaları bazarında marketinq tədqiqini həyata keçirərkən bu bazarın əsas iqtisadi göstəricilərini nəzərdən keçirmək və təhlil etmək olduqca vacibdir (cədvəl 1).

**Cədvəl 1**

**İKT sektoru və İKT məhsullarının ticarəti üzrə əsas göstəricilər [1, səh. 605]**

| Göstəricilərin adı | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| İKT sektorunda məhsul (xidmət) buraxılışı, milyon manat | .146,2 | 1236,4 | 1420,2 | 1528,0 | 1577,5 |
| rabitə sektoru | .065,4 | 1114,9 | 1289,2 | 1341,6 | 1381,3 |
| İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi, milyon manat | 715,8 | 786,7 | 861,8 | 949,0 | 963,3 |
| rabitə sektoru | 669,7 | 714,6 | 783,5 | 839,4 | 855,5 |
| İKT sektorunda yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, faizlə | 1,7 | 1,5 | 1,6 | 1,6 | 1,6 |
| rabitə sektoru | 1,6 | 1,3 | 1,5 | 1,4 | 1,5 |
| İKT müəssisələri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar, milyon manat | 204,0 | 301,4 | 322,0 | 192,4 | 147,2 |
| İKT məhsullarının idxalı, milyon manat | 180,2 | 262,6 | 249,2 | 203,8 | 214,4 |
| telekommunikasiya avadanlıqları | 92,7 | 136,3 | 116,3 | 112,1 | 92,5 |
| Kompüter və periferiya avadanlıqları | 52,3 | 73,6 | 66,5 | 50,8 | 74,6 |
| elektron avadanlıqları | 15,0 | 23,9 | 19,7 | 18,5 | 19,6 |
| digər İKT məhsulları | 20,2 | 28,8 | 46,7 | 22,4 | 27,7 |
| İdxal olunmuş İKT məhsullarının ölkəyə idxal olunmuş bütün növ məhsulların dəyərində xüsusi çəkisi, faizlə | 3,5 | 2,7 | 3,3 | 2,4 | 3,0 |
| İKT sektorunda çalışan işçilərin siyahı sayı, min nəfər | 18,3 | 18,5 | 19,0 | 19,3 | 19,9 |
| İKT sektorunda çalışan işçilərin iqtisadiyyatın bütün sahələri üzrə muzdlu işçilərin siyahı sayına nisbəti, faizlə | 1,3 | 1,3 | 1,4 | 1,3 | 1,3 |

2014-cü ildə Azərbaycanın İKT sektorunda məhsul (xidmət) buraxılışı 2010-cu ilə nisbətən 431,3 milyon manat və ya 37,6% artaraq 1577,5 milyon manat təşkil etmişdir. Qeyd edək ki, bu sektorda yaradılan məhsul və xidmətlərin 87,6 %-i tək rabitə sektorunun payına düşür.

Cədvəldən göründüyü kimi, 2014-cü ildə İKT sektorunda fəaliyyət göstərmiş müəssisələr tərəfindən 963,3 milyon manatlıq və ya 2010-cu illə müqayisədə 34,6% çox əlavə dəyər yaradılmışdır. Bu göstəricinin də 88,8 %-i yenə də rabitə sektorunun payına düşür.

Təhlildən aydın olur ki, ölkəmizdə İKT sektorunu müəyyən səviyyədə saxlamaq və inkişafını təmin etmək üçün hər il xaricdən böyük miqdarda İKT məhsulları idxal edilir. Yalnız

2010-2014-cü illər ərzində Azərbaycana ümumi dəyəri 1110,2 milyon manat təşkil edən İKT məhsulları gətirilmişdir. Onların tərkibində telekommunikasiya, kompüter və periferiya, elektron və sair avadanlıqlar üstünlük təşkil etmişdir. İdxal olunmuş İKT məhsullarının ölkəyə idxal olunmuş bütün növ məhsulların dəyərində xüsusi çəkisi 3 faiz civarında qalmaqdadır. Təhlil olunan beş il ərzində ölkəmizin İKT müəssisələri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar 1167 milyon manata bərabər olmuşdur.

2014-cü ildə ölkəmizin iqtisadiyyatının bütün sahələrində çalışan muzdlu işçilərin 1,3%-i və ya 19,9 min nəfəri İKT sektorunda çalışmışdır.

Təhlil göstərir ki, informasiya texnologiyaları bazarının formalaşdırılmasında ən çox istifadə edilən məhsullar informasiya-kommunikasiya texnologiyaları məhsullarıdır. Belə məhsullara telekommunikasiya avadanlıqları, elektron cihazları, audio və video qurğuları ilə yanaşı, digər İKT məhsulları da aid edilir. Son illərdə Azərbaycanda bu məhsulların idxalı və satışı çox surətlə həyata keçirilmişdir ki, bu da informasiya-kommunikasiya texnologiyaları bazarının formalaşmasına və inkişafına ciddi təsir göstərmişdir.

Bazar iqtisadiyyatı və milli iqtisadiyyatın müxtəlif sahələrinin yüksək inkişaf templəri şəraitində yeni informasiya komplekslərinin formalaşması və müasir texniki vasitələrlə təchiz olunmuş, şaxələnmiş informasiya texnologiyaları şəbəkəsinin mövcud olması ölkə iqtisadiyyatının inkişafı üzrə məsələlərin uğurlu həlli üçün zəruri şərtdir.

İnformasiya texnologiyaları marketinqi mövcud olduğu illər ərzində uzun təkamül yolu keçmiş və istehsal marketinqindən tutmuş qarşılıqlı təsirlər marketinqinə qədər bütöv bir konsepsiyalar silsiləsi yaşamış marketinqin özünü təşkil edir. İnformasiya texnologiyaları marketinqin əsas hərəkətverici qüvvələri kimi qlobal informasiya texnologiyaları və internet şəbəkəsinin yaranması və bütün dünya üzrə yayılması, müəssisələrin idarə edilməsinin metodologiya və sistemlərinin təkmilləşməsi və informasiya sistemlərinin qurulması üzrə standartların yaradılmasını tələb edir.

## Nəticə

1. XX əsrin sonu-XXI əsrin əvvəllərindən başlayaraq, informasiya texnologiyaları bazarında sürətli inkişaf meyilləri və müsbət keyfiyyət dəyişiklikləri baş vermişdir. Müşahidə olunan inkişaf meyillərinin əsas istiqamətlərindən biri informasiyanın işlənməsinin yeni texnologiyalarının yaranması və tətbiq edilməsidir. İndiki mərhələdə iqtisadi informasiyanın işlənməsinin yeni texnologiyaları elmi-texniki tərəqqinin aparıcı istiqamətlərindən biri olmaqla cəmiyyətin dinamik inkişafına bilavasitə güclü təsir göstərən bir amilə çevrilmişdir.
2. Dünyanın bütün inkişaf etmiş ölkələrində mütərəqqi texnologiyalar və elmi-texniki nailiyyətlər əsasında ayrı-ayrı sahələrin idarəetmə obyektlərinin informasiya təminatının yaradılması üçün yeni üsul və vasitələrin tətbiqi, mövcud informasiya şəbəkələrinin genişləndirilməsi istiqamətində görülən işlərin həcmi sürətlə artır. Hazırda dünya iqtisadi sistemi informasiya təminatlı cəmiyyətin formalaşması dövrünü yaşayır.
3. İnformasiya texnologiyalarının inkişafı dünya iqtisadiyyatının qloballaşmasını sürətləndirən əsas amillərin ən vacibi kimi qəbul edilməlidir. Son dövrlərdə süni intellekt və informasiya məhsullarının yaradılması sahəsində aparılan fundamental işlər dinamik şəkildə inkişaf etməkdədir. Bunun sayəsində yeni informasiya texnologiyalarının gözlənilməz tətbiq sahələri meydana gəlir ki, onların da bazasında yeni elmi-tədqiqat proqramları, konkret layihələr, yeni informasiya texnologiyalarını istehsal edən beynəlxalq birliklər yaranır və sürətlə inkişaf edir.
4. Bu gün Azərbaycanda gələcəyə istiqamətlənmiş, elm və texnologiyaların inkişafını şərtləndirən, milli iqtisadiyyatın hər bir sahəsinin dayanaqlı inkişafına yönəldilmiş və cəmiyyətin hər bir üzvünün rifahına xidmət edən dövlət siyasəti həyata keçirilir. Bu siyasətin tərkib hissəsi kimi Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi və bazarının genişləndirilməsi aktual vəzifə kimi qarşıda durmalıdır.
5. İnformasiya texnologiyaları xidmətlərinin çeşidinə və keyfiyyətinə qarşı tələblərin yüksəlməsi və rəqabətin güclənməsi şəraitində ölkənin informasiya texnologiyaları müəssisələri üçün marketinq getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Bu sahədə marketinq konsepsiyasına müraciətin başlıca məqsədi həmin bazarda olan gizli problem və ehtiyacların aşkar edilməsindən

ibarətdir. Belə bir şəraitdə ölkənin informasiya texnologiyaları müəssisələrinin əsas diqqəti bu məqsəd bazarının vəziyyəti, istehlakçıların tələbatlarının müəyyən edilməsi və onların təmin edilməsi üçün marketinq tədbirləri kompleksinin həyata keçirilməsi üzərində cəmləşməlidir. Yalnız bu cür yanaşma əsasında informasiya texnologiyaları məhsulları üzrə istesalçılar və satıcılar maksimum istehlakçı məmnunluğunu təmin edərək mənfəətlərini sabitləşdirə və artıra bilərlər.

**Eldar Quliyev**

**İnformasiya texnologiyaları bazarı və onun marketinq tədqiqinə yeni yanaşmalar**

**Xülasə**

Təqdim edilən məqalədə informasiya texnologiyaları bazarının əhatə dairəsi, onun əsas iştirakçıları, ölkəmizdə bu bazarın marketinq prinsipləri əsasında tədqiq edilməsinin iqtisadi əhəmiyyəti açıqlanır. Məqalədə informasiya texnologiyaları bazarının spesifik cəhətlərinə, marketinq elminin elmi-nəzəri bazasından istifadə edərək bu sahənin öyrənilməsinin xüsusiyyətlərinə, onun tədqiqinə, perspektiv və kompleks yanaşmalara köklənmiş istiqamətlərə xüsusi yer verilir.

**Эльдар Гулиев**

**Рынок информационных технологий и новые подходы к его маркетинговому исследованию**

**Резюме**

В статье показывается сфера охвата рынка информационных технологий, его основные участники, а также экономическое значение исследования данного рынка в нашей стране на основе принципов маркетинга. Особое внимание отводится специфическим чертам рынка информационных технологий, особенностям изучения данного рынка, с использованием научно-методической базы маркетинговой науки и перспективного и комплексного подхода к его применению.

**Eldar Guliev**

**Information technology market and a new approach to its marketing research**

**Summary**

The article reveals the scope of the information technology market, its main participants, as well as the economic importance of the study of the market in our country based on the principles of marketing. The article emphasizes specific features of information technology market, peculiarities of study of the market through the usage of scientific and methodological basis of marketing science and perspective and complex approach to its application.

## Ədəbiyyat

1. Azərbaycanın statistik göstəriciləri 2015. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2015.
2. В.А.Алексунин, В.В.Родигина. Электронная коммерция и маркетинг в Интернете: Учебное пособие - 2-е изд.- М.: Издательско - торговая корпорация «Дашков и Ко», 2006.
3. T.A.Burenina. İnternet texnologiyaları əsasında marketinq. Rus dilindən tərcümə. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2009, səh. 6-59.
4. E.N.Quliyev. “Dünya iqtisadiyyatının qloballaşmasının bəzi elmi və praktiki problemləri”. “Audit” jurnalı № 4, 2005, səh. 62-66.
5. E.N.Quliyev. “Virtual biznes və elektron ticarəti”. “Audit” jurnalı № 4, 2006, səh.35-38.
6. İ.M.Xeyirxəbərov. Marketinq tədqiqatları. Dərs vəsaiti. Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 2015, səh.35-59.
7. http://www.marketing.spb.ru
8. http://www.marketingsource.com
9. http://www.marketingteacher.com

# ƏHALİNİN TƏBİİ ARTIMINA GENDER DİSPROPORSİYASININ TƏSİRİ

**_Səadət Rəhimova_**
_Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin_
_Statistik innovasiyaların tətbiqi şöbəsinin rəis müavini_
_AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81_
_e-poçt: seadetr@azstat.org_

**_Təmraz Təmrazov_**
_Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin_
_Statistik innovasiyaların tətbiqi şöbəsinin aparıcı iqtisadçısı, b.ü.f.d., dosent_
_AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81_
_e-poçt:ttamrazov@azstat.org_

**Açar sözlər:** demoqrafiya, gender disproporsiyası, təbii artım, gender bərabərliyi, fertillik əmsalı.
**Ключевые слова:** демография, гендерная диспропорция, естественный прирост, гендерное равенство, коэффициент фертильности.
**Keywords:** demography, the gender disproportion, natural growth, gender equality, the fertility coefficient.

Demoqrafik siyasət – əhalinin təkrar istehsalı proseslərinin tənzimlənməsi sferasında dövlət orqanlarının və digər sosial institutların məqsədyönlü siyasətidir. Ölkədə demoqrafik siyasət əhali artımının təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən ibarətdir. Ailə-nikah, doğum, ölüm, əhalinin sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əməkqabiliyyətli əhalinin məşğulluğu və həyat səviyyəsinin yaxşılaşdırılması, miqrasiyası və s. bu kimi prosesləri özündə birləşdirən demoqrafik siyasətdə başlıca məqsəd demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan əhalinin normal təkrar istehsalı prosesini təmin edən şəraitin yaradılmasına nail olmaqdır.

Dünyada gedən demoqrafik proseslərin ölkəmizdən də təsirsiz keçməyəcəyini nəzərə alsaq, o zaman respublikamızda demoqrafik vəziyyəti təhlil edərək bu sahədə bəzi tendensiyalara nəzər yetirmək məqsədəuyğun olardı.

Doğulacaq uşağın cinsinə görə seçimlə bağlı AŞPA-nın 1829 saylı Qətnaməsi (2011) Azərbaycan da daxil olmaqla bir sıra ölkələrdə doğulan uşaqların cinsə görə nisbətinin pozulmasının "narahat doğuran səviyyəyə çatmasını" qeyd etmişdir. Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlərin keyfiyyət və kəmiyyət əsaslı tədqiqatı BMT-nin Əhali Fondu ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2012-ci ildə keçirilmişdir. Sözügedən tədqiqatda doğulan uşaqların cins nisbətinin pozulmasına dair müvafiq dövlət müdaxiləsinin edilməsi üçün bir sıra tövsiyələr də təqdim edilmişdir [4].

Bir sıra elmlər üçün sosial-iqtisadi və təbiət hadisələrinin öyrənilməsində ümumi olan kəmiyyət metodlarından fərqli olaraq, demoqrafik metodların əsasını demoqrafik yekunların əhalinin təkrar istehsalına tətbiqində əhalinin sayını, yaxud koqortanı artıran (doğum, nikah) və onu azaldan (ölüm, boşanma) demoqrafik hadisələrə görə öyrənilməsi üsulları təşkil edir. Demoqrafik hadisələr fasiləsiz baş verir və onların intensivliyinə koqortanın yaş funksiyası və ya demoqrafik funksiya kimi baxılır [5;7].

Bəzi ekspertlərin fikrinə görə, dünya ölkələri üzrə əhalinin əsas tərkibi 25-64 yaş qrupuna aid edilir. Bununla yanaşı, hazırda dünya ölkələri üzrə orta ömür uzunluğu 68 yaş təşkil edir.

Aparılan tədqiqatlara əsasən qeyd etmək olar ki, hazırda dünyanın 20 ölkəsinin əhalisi azalmaqda davam edir və verilən proqnozlara görə bu rəqəm getdikcə daha da arta bilər. Azərbaycanda ölkə əhalisinin yaş qrupları üzrə bölgüsü aşağıdakı şəkildə verilmişdir.




Şəkil 1. Ölkə üzrə əhalinin yaş qruplarına, şəhər və kənd yerlərinə görə nisbi göstəriciləri

Şəkil 1-ə uyğun olaraq, qeyd etmək olar ki, Azərbaycanda yaşayan əhalinin 72%-i 16-64 yaşda, 5,7%-i 65 yaşdan yuxarı, 22,3%-i isə 15 yaşdan aşağı yaşdadır. Bu göstəricilər onu qeyd etməyə əsas verir ki, ölkədə yaşayan əhalinin ən çox hissəsini 16-64 yaş arasında olanlar təşkil edir.

Müxtəlif mənbələrə əsasən qeyd etmək olar ki, hazırda Azərbaycanda ölümün səviyyəsi dünya ölkələri ilə müqayisədə nisbətən aşağı və sabit səviyyə ilə xarakterizə olunur. Lakin müəyyən demoqrafik göstəricilər üzrə qismən narahatedici əlamətlər mövcuddur. Bu narahatlıq nəzərə alınmazsa və ya qabaqlayıcı hər hansı tədbir görülməzsə, doğulan uşaqların sayında cins nisbətinin pozulması (gender disproporsiyası) baş verə bilər.

Beləliklə, ölkədə demoqrafik göstəricilərin müxtəlif illər üzrə və bir neçə əsas parametrə görə təhlilini nəzərdən keçirək.

İlk növbədə 2015-ci ildə ölkə əhalisinin cins bölgüsünə görə təbii artımı, doğulanların və ölənlərin nisbi göstəriciləri şəkil 2-də verilmişdir [1].




Şəkil 2. Respublika üzrə cins bölgüsündə əhali artımı (nisbi göstərici)

Şəkildən aydın olur ki, əhalinin təbii artımında kişilər 53,2%, qadınlar isə 46,8%; doğulanların ümumi sayında nisbi göstərici kişilər üçün 53,2%, qadınlar üçün isə 46,8%; müvafiq olaraq ölüm göstəricisi kişilər üçün 53,3%, qadınlar üçün isə 46,7% təşkil etmişdir.

Göstərilənlərə uyğun olaraq qeyd etmək olar ki, əhalinin təbii artımında cinslər arasındakı fərq də azalmağa başlayır.

Ölkə üzrə doğulanda gözlənilən ömür uzunluğunun dinamikası şəkil 3-də verilmişdir. Verilmiş dinamik sırada 1990-cı il, 2000-ci il, 2010-cu il və 2015-ci il üzrə ölkə əhalisinin doğulanda gözlənilən ömür uzunluğu göstəricisi cins bölgüsü üzrə qiymətləndirilmişdir [1].




Şəkil 3. Doğulanda gözlənilən ömür uzunluğu (yaş sayı)

Göründüyü kimi, 1990-cı ildə hər iki cins üzrə doğulanda gözlənilən orta ömür uzunluğu 71,1 yaş, qadınların doğulanda gözlənilən orta ömür uzunluğu 74,8 yaş, kişilərin isə 67,0 yaş sayına bərabər olmuşdur.

2000-ci ildə isə əvvəlki illərdən fərqli olaraq, hər iki cins üzrə doğulanda gözlənilən orta ömür uzunluğu 71,8 yaş, qadınlarda 75,1 yaş, kişilərdə isə 68,6 yaşa bərabər olmuşdur.

Nəhayət, 2015-ci il üzrə bu göstərici hər iki cins üzrə doğulanda gözlənilən orta ömür uzunluğu 75,2 yaş, qadınların doğulanda gözlənilən orta ömür uzunluğu 77,6 yaş, kişilərin isə 72,7 yaş sayına bərabər olmuşdur.

Beləliklə, aparılan təhlillərə əsasən qeyd etmək olar ki, doğulanda gözlənilən orta ömür uzunluğu artır və buna uyğun olaraq, hər iki cins üzrə artım dinamikası müşahidə olunur.

Aparılan araşdırmalar göstərir ki, bütün canlılarda və ya bioloji varlıqlarda olduğu kimi, insanlarda da genetik xüsusiyyətlərin də öz rolu vardır. Aparılan bir sıra genetik araşdırmaların nəticələrinə əsaslanaraq, qeyd etmək olar ki, qadınlar kişilərə nisbətən uzunömürlü sayılırlar.

Bundan əlavə, şəkil 4-də 1926-cı ildən 2016-cı ilə qədər ölkə əhalisinin cins üzrə say dinamikası əks olunmuşdur [1].

Dinamikadan aydın görünür ki, əhalinin ümumi sayı 1926-cı ildə 2313,7 min nəfər, 2016-cı ildə isə bu göstərici 9705,6 min nəfər təşkil etmişdir. Bu da böyük artım deməkdir [1; 2].

Digər göstəricilərə nəzərən qeyd edək ki, kişilərin sayı müxtəlif illər üzrə dəyişir. Qadınların isə kişilərə nəzərən artımı daha çox müşahidə olunmuşdur.

Statistikaya görə hazırda Azərbaycanda 116 oğlan uşağına 100 qız uşağı düşür. Onu da qeyd edək ki, respublikada 1975-1980-ci illərdə yeni doğulan uşaqların cins nisbəti pozulmamışdır. 1990-cı ildən başlayaraq, cins nisbətində pozulma müşahidə olunmuşdur. 1998-ci ildən isə cins nisbətinin pozulması halları artmışdır.




Şəkil 4. Əhalinin cins üzrə say dinamikası (min nəfər)

Dünyada baş verən demoqrafik proseslərin bizim ölkəyə də müəyyən təsirlərinin olacağı səbəbindən respublikamızdakı bu prosesləri təhlil etməmişdən öncə inkişaf etmiş və ya inkişaf etməkdə olan dünya ölkələrində baş verən demoqrafik tarazlıq nisbətinə nəzər salaq. Şəkil 5-də müxtəlif ölkələr üzrə doğulan uşaqlar arasında cins nisbəti verilmişdir.




Şəkil 5. Müxtəlif ölkələr üzrə doğulan uşaqlar arasında cins nisbəti (2011)

Şəkildə göstərilən ölkələr arasında doğulan uşaqların cins nisbəti üzrə ən yüksək göstərici Çində, ən aşağı göstərici isə Hindistanda müşahidə olunur. Təhlillərə istinadən qeyd etmək olar ki, Azərbaycan 116/100 nisbətində olmaqla doğulan uşaqların cins nisbətinə görə dünyada Çin Respublikasından sonra ikinci yerdədir [2].

Doğulan uşaqların cins nisbətinin pozulmasının qarşısı alınmazsa, gələcəkdə qadınların sayının daha da azalmasına səbəb olacaq və bu da nəticədə gender disproporsiyasına gətirib çıxaracaqdır.

Azərbaycanda müxtəlif illərə görə doğulanlar arasında cins nisbəti göstəricisinin dinamikası aşağıda, şəkil 6-da verilmişdir.




Şəkil 6. Müxtəlif illər üzrə Azərbaycanda doğulan uşaqların cins nisbəti

Şəkildən göründüyü kimi, 1975-1980-ci illərdə respublikada doğulan uşaqların cinsə görə nisbəti 107/100, 1998-ci ildə 118/100, 2010-cu ildə 117/100, 2011-2014-cü illərdə 116/100, 2015-ci ildə isə 114/100 nisbətində olmuşdur [1; 2].

Bu dinamikaya əsasən qeyd etmək olar ki, 1998-ci ildən 2010-cu ilədək doğulan uşaqlar arasında cins nisbətinin artımı müşahidə edilmişdir. 2015-ci ildən isə bu göstəricinin qismən azalması müşahidə olunur.

2018-2058-ci illər üçün Azərbaycan Respublikası əhalisinin gözlənilən (proqnoz) sayında 5 illik yaş qrupları üzrə koqort-komponent üsulu ilə aparılmış hesablamalara görə 5 illiklər ərzində doğulacaq uşaqların proqnoz sayı aşağıdakı kimi gözlənilir (Şəkil 7).




Şəkil 7. 2018-2058-ci illərdə 5 illiklər üzrə cinsə görə doğulacaq uşaqların proqnoz sayı

Şəkildən aydın görünür ki, 2018-2033-cü illərdə (5 illiklər üzrə) cinsə görə doğulan uşaqların proqnoz sayı tədricən azalır, lakin doğulacaq uşaqlar arasında oğlan uşaqlarının sayı yenə üstünlük təşkil edəcəkdir. 2033-2043-cü illərdə isə doğum sayında artım qeydə alınacaq. 2043-2058-ci illərdə yenidən doğum sayında tədricən azalma gözlənilir.

2018-2058-ci illərdə doğulan uşaqların cins nisbəti 117/100 kimi gözlənilir.

Belə hesab etmək olar ki, əhali arasında cins nisbətinin pozulmasının qarşısını almaq üçün respublikada cavabdeh qurumlar bu problemin həllinə cəlb olunmalıdır. Bir sözlə, bu problemi dövlət strukturları, kütləvi informasiya vasitələri və cəmiyyət birgə həll etməlidir. Qeyd olunduğu kimi, bu, çox ciddi hal aldığından müəyyən tələblərin qarşıya qoyulması bu məsələnin tam həlli demək deyildir. Ona görə də bu məsələyə birmənalı yanaşmanın dəyişməsi üçün yeganə yol əhali arasında maarifləndirici tədbirlərin aparılmasıdır.

Əhalinin təbii artımında nəsilvermə əmsalı böyük əhəmiyyət kəsb edir. Müxtəlif illərə görə nəsilvermə əmsalının göstəricisi şəkil 8-də verilmişdir.




Şəkil 8. Müxtəlif illər üzrə ümumi nəsilvermə əmsalı

Aparılan tədqiqatlara əsasən qeyd etmək olar ki, ötən 50 il ərzində ölkədə nəsilvermə əmsalı kəskin şəkildə tənəzzülə uğramışdır. Şəkildən göründüyü kimi, ümumi nəsilvermə əmsalı (hər qadına düşən doğulan uşaqların orta sayı) 1961-ci ildə 5,6 olmuş və bu əmsal azalaraq 2001-ci ildə ən minimum səviyyəyə - 1,8-ə enmişdir. 2010-cu ildə isə bu əmsal artaraq 2,3-ə yüksəlmişdir. Hazırda ümumi nəsilvermə əmsalı 2,1-ə bərabərdir. Nəsilverməda olan regional fərqlərə əsasən ən aşağı göstəricilər Bakıda (1,8), ən yuxarı göstəricilər isə Yuxarı Qarabağ bölgəsində (2,6) müşahidə olunmuşdur [4].

Nəticə olaraq qeyd etmək olar ki, nəsilvermə əmsalı ilə qadınların təhsil səviyyəsi və maliyyə imkanları arasında elə də əhəmiyyətli əlaqələr müşahidə olunmur.

Digər tərəfdən maarifləndirici tədbirlər kimi, xüsusilə gender bərabərliyi, qadınların cəmiyyətin inkişafında rolu barəsində geniş təbliğat xarakterli layihələrin həyata keçirilməsi vacibdir. Həmçinin qız uşaqlarının doğulmasını stimullaşdırmaq məqsədilə sosialyönümlü tədbirlərin həyata keçirilməsi, maddi müavinətlərin ödənilməsi müsbət təsir göstərə bilər.

Aparılan tədqiqatlar nəticəsində müşahidə edilmişdir ki, əsasən doğulan uşaqların cins nisbətinin pozulması demoqrafik tarazlığın dəyişməsinə doğru apara bilər. Bu haqda tam məlumatın əldə edilməsi üçün şəkil 9-da verilmiş dinamikaya nəzər salaq [1].




Şəkil 9. 2005-2015 illər üzrə cins bölgüsünə görə doğulan uşaqların nisbi göstəricisi

Şəkildə 2005-2015-ci illər üzrə cins bölgüsünə görə doğulan uşaqların nisbi göstəriciləri verilmişdir. Dinamikadan aydın olur ki, 2005-2014-cü illərdə doğulan oğlan uşaqlarının

göstəricilərində nisbi artım, qızlarda isə azalma müşahidə olunmuşdur. 2014-cü ildən başlayaraq oğlanların sayında qismən azalma, qızların sayında isə artım qeydə alınmışdır.

Araşdırmalar göstərir ki, doğulanlar arasında oğlanların qızlara nisbətən çoxluq təşkil etməsində müasir tibbi vasitələrin daha çox rolu vardır. Qeyd edək ki, ultrasəs müayinəsi nəticəsində bəzi valideynlər qız övladının doğulmasının qarşısını alırlar. Məhz bu səbəbdən hazırda dünyanın bir çox ölkələrində dünyaya gələcək övladın cinsiyyəti ilə bağlı valideynlərə məlumat verilməsi qadağan edilib. Yalnız uşağın doğulması ananın həyatına təhlükə törədəcəyi təqdirdə dölün məhv edilməsinə icazə verilir.

Müxtəlif tərkibli ailələrdə hamiləliyin süni şəkildə pozulmasının aşkar edilməsi üçün aparılan araşdırmanın nəticəsi aşağıdakı şəkildə öz əksini tapmışdır.




Şəkil 10. Hamiləliyin süni şəkildə pozulması

Şəkil 10-da verilmiş diaqramdan görünür ki, hamiləliyin süni şəkildə pozulması övladsız ailələrdə 3,3%, 1 oğlan övladlı ailələrdə 25%, 1 qız övladlı ailələrdə 23%, 2 oğlan övladı olan ailələrdə 59,1%, 2 qız övladlı ailələrdə 54,1%, 1 qız 1 oğlan övladlı ailələrdə 65,7%, 3 oğlan övladlı ailələrdə 70,9%, 3 qız övladlı ailələrdə 75,9%, 2 oğlan 1 qız övladlı ailələrdə 80,9%, 1 oğlan 2 qız övladlı ailələrdə 74,6% və nəhayət, 2 oğlan 2 qız övladlı ailələrdə 73,6% olmuşdur [2; 4].

Ailədəki uşaqların cinsinə görə süni abortların təşkil etdiyi faizlərin tədqiqi maraqlı məqam üzə çıxarır. Dinamikadan göründüyü kimi, iki oğlan uşağı olan qadınlar arasında hamiləliyin dayandırılması iki qız uşağı olan qadınlara nisbətən üstünlük təşkil edir. Digər tərəfdən isə üç oğlan uşağı olan qadınlara nisbətən üç qız uşağı olan qadınlar arasında hamiləliyin dayandırılması halları üstünlük təşkil edir. Bu onu göstərir ki, belə ailələrdə oğlan uşaqlarının doğulması üçün ultrasəs müayinəsi ilə müəyyən olunmuş qız uşaqlarına görə hamiləliyin dayandırılması düşünülmüş şəkildə atılan bir addımdır.

Bununla yanaşı, abort vaxtı qadınların yaş xüsusiyyətləri mühüm rol oynayır. Ona görə də abort məsələsinin əhalinin təbii artımına ciddi təsir etdiyini nəzərə alaraq, bu sahədə də elmi-statistik araşdırma aparılmışdır. Aparılan araşdırmanın nəticəsinə görə 20 yaşdan kiçik yaşda abort etdirən qadınlar 8,7%, 20-24 yaş arasında 21,4%, 25-34 yaş arasında olan qadınlar 44,3%, 35-44 yaş arasında olanlar 73,4% və 45-49 yaş intervalında olan qadınlar isə 85,7% təşkil edir. Müxtəlif yaş həddində fərqli nəticələr əldə olunmuşdur. Ən maksimal göstərici isə 45-49 yaş həddində müşahidə edilmişdir.

Əhali statistikasında ümumi nəsilvermə (fertillik) əmsalı adlanan göstərici mövcuddur. Bu göstərici, əsasən, uşaq dünyaya gətirmək qabiliyyətində olan qadınlara orta hesabla neçə uşaq düşdüyünü müəyyənləşdirmək üçündür: əgər bu göstərici ikidən kiçik olarsa, deməli, həmin ölkənin əhalisi demoqrafik problemlə üzləşə bilər. Yəni qadın 2-dən az uşaq dünyaya gətirərsə, təhlükəli

tendensiya sayılır. Mövcud durumun stabil olması üçün toplam doğum əmsalı 2-yə bərabər və ya 2-dən böyük olmalıdır.

Əhalinin təbii artımına təsir edən amillərdən digəri nikahla bağlıdır. Əgər nikah səviyyəsi aşağıdırsa, bu əhalinin artımında dövriliyin təmin olunmasına əks təsir göstərə bilər. Ümumiyyətlə, dünyanın əksər ölkələrində doğum səviyyəsinin stimulaşdırılması üçün demoqrafik siyasət həyata keçirilir. Əksər hallarda bir çox dövlətlərdə üçüncü və dördüncü uşağın doğulmasını stimullaşdırmaq məqsədilə müvafiq proqramlar gerçəkləşdirilir. Bu proqramda, əsasən, çoxuşaqlılığı deyil, üçüncü uşağın dünyaya gəlməsini stimullaşdırmaq üçün müəyyən tədbirlər nəzərdə tutulur. Lakin burada bir məqamı da vurğulamaq olar ki, bizim ölkəmizdə həmişə oğlanların “xüsusi” statusu olub.

Əvvəllər oğlan övladı istəyən ailələr, hətta dördüncü, beşinci uşaq qız olduqda belə, oğlan arzusu ilə növbəti uşağın dünyaya gəlməsinə razı olurdular. Amma indi vəziyyət tamamilə dəyişib və yuxarıda qeyd olunduğu kimi, müasir texnologiyanın tətbiqi nəticəsində valideynlər əvvəlcədən dölün cinsini ultrasəs müayinəsi vasitəsilə müəyyənləşdirirlər. Nəticəsindən asılı olaraq, atılan müvafiq addımlar isə demoqrafik balansın təbii formada tənzimlənməsinə maneçilik törədir. Yaranan problemin mənbəyi aparılan selektiv abortlarda deyil, cəmiyyətdə və ailədə qadına olan münasibətdədir.

Qanunvericilikdə qadın hüquqları, bərabər hüquq məsələsi öz əksini tapsa da, qadınların fəaliyyətinin stimullaşdırılması, dəstəklənməsi, irəli çəkilməsi, təhsildə və işdə qadın əməyinin layiqincə qiymətləndirilməsi tam olaraq həyata keçirilmir. Bu münasibət dəyişməyənə qədər, qız uşaqlarının dünyaya gəlməsinin arzu olunmaması gündəmdə qalacaqdır. Yəni yaranmış vəziyyətin fəsadlarının nə olacağı qarşıdakı illərdə daha kəskin hiss ediləcəkdir. Ona görə də qeyd olunan aktual məsələnin üzərində ciddi şəkildə işlənilməlidir.

Ümumiyyətlə, bu cins nisbətində balansı qorumaq üçün ilk növbədə mövcud problemi yaradan səbəblər müəyyənləşdirilməlidir. Yəni təbii olaraq demoqrafik vəziyyətin tənzimlənməsi üçün şərait yaradılmalıdır. Burada əsas qabaqlayıcı tədbir maarifləndirmə və təbliğat işinin güclü olmasıdır. Əsas məqsəd də ölkədə çoxuşaqlı ailələrin sayını artırmaqdan ibarətdir. Ailədə uşaqların sayının çox olduğu təqdirdə, oğlan və qız uşaqlarının balansı pozulmur və bu da sonda ölkədə əhalinin ümumi sayına təsir etməklə yanaşı, ümumilikdə cinslər arasındakı nisbətin saxlanılmasına gətirib çıxarır. Aparılan müxtəlif istiqamətli tədqiqatlar nəticəsində müşahidə edilmişdir ki, əsasən doğulan uşaqların cins nisbətinin pozulması demoqrafik tarazlığın dəyişməsinə doğru apara bilər.

## Nəticə

- Doğulan uşaqlar arasında cins nisbətinin pozulması hallarının qarşısının alınması məqsədilə ölkə üçün Fəaliyyət Planının hazırlanması, hamiləliyin sonrakı dövrlərində ana və ya uşağın sağlamlığı üçün təhlükə olmadığı hallarda hamiləliyin pozulması üçün aparılan süni müdaxilələrə (abortlara) məhdudiyyətlərin qoyulması, bu sahədə çalışan həkimlərin məsuliyyətinin artırılması, qanunvericiliyin sərtləşdirilməsi, kontraseptiv vasitələrdən istifadə səviyyəsinin artırılması və s. istiqamətlərdə geniş ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi vacibdir.
- Qız uşaqları olan ailələrlə bağlı əlavə sosial proqramların hazırlanması, qadınların cəmiyyətdəki rolunun artırılması, onların kişilərdən iqtisadi asılılığının azaldılması, məşğulluğunun artırılması, sosial və iqtisadi mövqelərinin gücləndirilməsi üçün tədbirlərin görülməsi məqsədəuyğundur.
- Ölkədə əhalinin sosial-iqtisadi vəziyyəti ilə nəsilvermə xüsusiyyətləri arasında möhkəm əlaqələrin olduğunu nəzərə alaraq, ailə-uşaq imtiyazları və sosial yardım proqramlarının hazırlanması faydalı olardı.
- Gender bərabərliyi üzrə maarifləndirmə proqramlarının tətbiq edilməsi istiqamətində tədbirlərin, qadınların cəmiyyətin inkişafında rolu barəsində ailələr arasında geniş təbliğat xarakterli layihələrin həyata keçirilməsi vacibdir.

- Əhali artımının təmin edilməsində ilk növbədə ölkənin səhiyyə və məşğulluq xidmətlərinin düzgün təşkil olunması üçün müasir tələbləri ödəyən təkliflərin hazırlanmasında, müvafiq şöbələr üçün informasiya monitorinqi sisteminin və innovasiya mexanizminin yaradılması, əsas sosial-iqtisadi problemləri, bir sözlə, demoqrafiya sahəsində statistik göstəricilərin daha dərindən araşdırılması son dərəcə vacib və aktual məsələdir.


**Səadət Rəhimova, Təmraz Təmrazov**

**Əhalinin təbii artımına gender disproporsiyasının təsiri**

**Xülasə**

Məqalədə əhali artımının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən bəhs olunur. Həmçinin ailə-nikah, doğum, ölüm, təbii artım, əhalinin sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluğu, həyat səviyyəsinin yaxşılaşdırılması, insan ömrünün uzadılması və s. bu kimi demoqrafik hadisələrin təhlilləri aparılmışdır.

Aparılan elmi araşdırmaya əsasən qeyd etmək olar ki, ölkəmizdə demoqrafik göstəricilərin artım dinamikası mövcuddur, əhalinin təkrar istehsalı təmin olunur. Azərbaycanda ölümün səviyyəsi bəzi inkişafda olan ölkələrlə müqayisədə nisbətən aşağı və sabit səviyyə ilə xarakterizə olunur. Lakin bəzi demoqrafik göstəricilər üzrə qismən narahatedici əlamətlər mövcuddur.

Digər tərəfdən isə əvvəlki illərdən fərqli olaraq, hazırda respublikada doğulan uşaqlar arasında cins nisbətinin pozulması halları azalmışdır.



**Саадат Рагимова, Тамраз Тамразов**

**Влияние гендерной диспропорции на естественный прирост населения**

**Резюме**

В статье рассматривается система экономических, социальных и правовых мероприятий, направленных на обеспечение последовательного роста численности населения. Также проанализированы такие демографические явления, как семья, брачность, рождаемость, смертность, естественный прирост, суммарный коэффициент рождаемости, гендерная диспропорция при рождении детей, относительные показатели по возрастным группам населения, ожидаемая продолжительность жизни при рождении и т.д.

На основе проводенного научного исследования можно отметить, что в стране наблюдается рост динамики демографических показателей и обеспечивается воспроизводство населения. По сравнению с некоторыми развивающимися странами, смертность в Азербайджане характеризуется относительно низким и стабильным уровнем. Однако, по некоторым демографическим показателям, имеются признаки беспокойства.

С другой стороны, в настоящее время, в республике гендерная диспропорция среди рожденных детей, по сравнению с предыдушими годами, уменьшилась.



**Saadat Rahimova, Tamraz Tamrazov**

**Influence of gender disproportion on the population natural growth**

**Summary**

The article deals with the ensuring of economic, social and legal measures directed to the implementation of the gradual population growth. Theanalysis of demographic phenomena like the family,marriage, birth, death, natural growth, total fertility rate,gender disparity at childbirth, the relative indicators by population age groups and the life expectancy at birth and etc. have been also analyzed.

According to scientific research, it can be noted that growth of dynamics of demographic indicatorsis observedin the country, the population reproduction is ensured. The mortality in Azerbaijan is characterized by relatively low and stable level in comparison to some developing countries. However there are some disturbing signs in some demographic indicators.

On the other hand, compared to previous years, at present the cases of violation of sex ratio in the number of childbirth in the Republic decreased.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan əhalisi. Bakı, 2016.
2. Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat. Bakı, 2014.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanda qadınlar və kişilər. Bakı, 2013, 96 səh.
4. Demoqrafik proqnozlar, 2014-2050: Azərbaycanda doğulan uşaqların cins nisbətinin müxtəlif ssenariləri. Bakı, 2015.
5. Səlim Müslümov. “Demoqrafiyanın statistik göstəriciləri: təhlillər və proqnozlar”. “Statistika xəbərləri” elmi-praktik jurnal, 2015/1, səh. 22-26.
6. “China`s Gender imbalance and its Economic Performance”, Jane GOLLEY (Centre for China in the World Australian National University). May, 2012
7. “Gender disproportion and society integration”, Anita Kleinberga Secretariat of Special Assignment Minister for Society İntegration Latvia. 2005

# AZƏRBAYCANDA DEMOQRAFİK PROSESLƏRDƏ VƏ ƏHALİNİN MƏŞĞULLUĞUNDA BAŞ VERƏN DƏYİŞİKLİKLƏRİ XARAKTERİZƏ EDƏN STATİSTİK GÖSTƏRİCİLƏRİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**_Cəlil Quliyev_**
*AMEA İqtisadiyyat İnstitutunun*
*"Həyat səviyyəsinin sosial-iqtisadi problemləri"*
*şöbəsinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**_Rza Allahverdiyev_**
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Əhali statistikası şöbəsinin müdiri*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt:rza@azstat.org*

**Açar sözlər:** demoqrafiya, məşğulluq, xalq, əhalinin təbii artımı, doğum əmsalı, ölüm əmsalı, əmək ehtiyatları, peşə, ixtisas, ictimai təsərrüfat, ev təsərrüfatı, şəxsi təsərrüfat.
**Ключевые слова:** демография, занятость, народ, естественный прирост населения, коэффициент рождаемости, коэффициент смертности, трудовые ресурсы, профессия, специальность, общественное хозяйство, домашнее хозяйство, личное хозяйство.
**Keywords:** demography, employment, people, private, vital statistics, birthrate, mortality rate, labor resources, profession, qualification, public economy, household, own household.

## Giriş

Demoqrafiya humanitar və ictimai elmlərin müstəqil sahəsi kimi, müəyyən ərazi məkanında doğum, ölüm, nikah və nikaha nəhayət verilməsi, ər-arvad münasibətləri və ailə təkrar istehsalının, eləcə də bu proseslərin vəhdəti kimi bütövlükdə əhalinin təkrar istehsalının qanunauyğunluqlarını və sosial asılılığını öyrənir; o əhalinin yaş-cins, nikah və ailə quruluşunu, demoqrafik prosesləri və bu proseslərin qarşılıqlı əlaqələrinin, eləcə də qarşılıqlı təsirlərinin nəticəsi kimi əhalinin və ailənin ümumi sayının dəyişilməsinin qanunauyğunluqlarını tədqiq edir.

Demoqrafik proseslərin qanunauyğunluqlarını, onların sosial-iqtisadi amillərini dərk etmədən, gələcəkdə baş verə biləcək dəyişiklikləri əvvəlcədən görmədən, bu dəyişikliklərin nəticələrini qiymətləndirmədən, bu proseslərə təsir göstərmək imkanlarını və yollarını bilmədən ölkəni idarə etmək qeyri-mümkündür. Əhalinin faktiki və yaxın gələcəyə təxmini sayı, yaş-cins quruluşu haqqında məlumatlar əmək ehtiyatlarından səmərəli istifadə edilməsinin, istehlak məhsulları istehsalının, mənzil tikintisinin, təhsilin, səhiyyənin və s. bu kimi digər məsələlərin və sahələrin inkişaf istiqamətlərinin düzgün müəyyən edilməsinin ilkin və əsas şərtidir.

İnsan amilinin ön plana çəkildiyi müasir şəraitdə, demoqrafik proseslərin öz aralarındakı qarşılıqlı əlaqələrinin öyrənilməsi, onların müəyyən məkanda və zamanda baş verən sosial, iqtisadi və siyasi hadisələrdən, eyni zamanda sosial-iqtisadi və siyasi hadisələrin bilavasitə əhalinin inkişafından asılılığının tədqiq edilməsi, təkcə əhalinin deyil, eləcə də maddi nemətlərin geniş təkrar istehsalının qanunauyğunluqlarının düzgün müəyyən edilməsinə geniş imkanlar verir.

Konkret mühitdə əhalinin təkrar istehsalında baş verən dəyişikliklər, cəmiyyətin sosial-iqtisadi həyat tərzi ilə, başqa sözlə, cəmiyyətdə məskunlaşan əhalinin həyat səviyyəsi ilə müəyyən edilir. Çünki insanlar maddi nemətlərin istehsalçısı və istehlakçısı olmaqla təkcə maddi nemətlərin deyil, həm də özlərinin təkrar istehsalını təmin etmiş olurlar.

Bazar münasibətləri şəraitində inkişaf edən hər bir ölkənin iqtisadi cəhətdən müstəqil olması hər şeydən əvvəl insanların əməyə münasibətlərinin yeni istiqamətdə dəyişməsindən, ölkənin malik olduğu əmək potensialından istifadə edilməsi səviyyəsindən və faydalılığından, bütün ərazidə əhalinin tam və səmərəli məşğulluğunun təmin edilməsinin ilkin şərti olan zəruri iş yerlərinin yaradılmasından asılıdır.

Bazar münasibətlərinə keçid dövründə ölkəmizdə yaranan vəziyyət əhalinin ağır olan məşğulluq probleminin daha da kəskinləşməsi, bu sahədə əvvəllər nəzərə çarpmayan keyfiyyətcə

yeni baxışların meydana gəlməsi ilə xarakterizə olunurdu. Məşğulluğun eyni vaxtda həm tam, həm də səmərəliliyinin təmin edilməsi sualı yeni təsərrüfatçılıq şəraitində dövlətin qarşılaşdığı ən ciddi, mürəkkəb və çətin problemlərdən biri idi. Sosializm quruculuğu illərində məşğulluğun tam təmin edilməsi ilə onun səmərəliliyinin artırılması kimi iki mühüm vəzifənin həyata keçirilməsi arasında elə ziddiyyətlər yaranmışdır ki, onları aradan qaldırmadan cəmiyyət qarşısında yeni təsərrüfatçılıq şəraitində duran sosial-iqtisadi problemləri həll etmək qeyri-mümkün idi.

Hər bir ölkədə iş yerlərinin yaradılması üzrə dövlətin milli siyasəti və proqramı hazırlanarkən, əhalinin məşğulluq səviyyəsinə əhəmiyyətli təsir göstərən demoqrafik inkişaf proseslərində baş verən dəyişiklikləri mütləq nəzərə almaq lazımdır. Bu baxımdan, ikinci dünya müharibəsindən sonrakı illərdə ölkəmizdə demoqrafik inkişaf proseslərində baş verən dəyişikliklərin spesifik xüsusiyyətlərinin öyrənilməməsi və onların ölkəmizin sosial-iqtisadi inkişaf planları işlənib hazırlanarkən nəzərə alınmamasının əhalinin məşğulluq və həyat səviyyəsində yaratdığı gərginliyə nəzər salaq.

**Demoqrafik proseslərdə baş verən dəyişikliklər**

İkinci dünya müharibəsindən sonrakı illərdə, xüsusilə 50-ci illərin sonunda və 60-cı illərin əvvəllərində Azərbaycanda doğum əmsalının sürətlə artması və ölüm əmsalının azalması əhalinin təbii artımına əhəmiyyətli təsir göstərmişdir. 1955-1965-ci illərdə demoqrafik proseslərdə baş verən dəyişiklikləri xarakterizə edən qrafikə nəzər salsaq görərik ki, əhalinin hər min nəfərinə görə doğulanların sayı 1950-ci ildəki 31,2 nəfərdən başlayaraq, arta-arta 1960-cı ildə 42,6 nəfərə, təbii artım isə 21,6 nəfərdən başlayaraq 35,9 nəfərə qədər artmışdır ki, bu da həmin ildə respublikamızın tarixində, o cümlədən ittifaq üzrə respublikalar arasında ən yüksək göstərici olmuşdur. Lakin sonrakı illərdə istər ittifaq üzrə, istərsə də ölkəmizdə doğum əmsalı və təbii artım xeyli azalsa da, 1990-cı ildə yenə də ittifaq üzrə orta göstərici ilə müqayisədə Azərbaycanda doğum əmsalı 1,6 dəfə və təbii artım isə 3,1 dəfə yüksək olmuşdu.




Qrafik 1. 1955-1965-ci illərdə Azərbaycanda doğum, ölüm və təbii artımın ümumi əmsalları, əhalinin hər min nəfərinə görə [7, səh. 26]

**Əmək ehtiyatlarının və məşğulluğun formalaşması**

Göründüyü kimi, doğum əmsalının və təbii artımın ən yüksək olduğu 1955-1965-ci illərdə doğulan uşaqlar 16 ildən sonra (həmin illərdə 16 yaş əməkqabiliyyətli yaş kimi qəbul edilmişdir), daha doğrusu, 1971-ci ildən başlayaraq, əməkqabiliyyətli yaşa keçərək əmək ehtiyatlarının daha sürətlə artmasına təsir göstərmişdir. Qeyd edilən dövrdən başlayaraq əmək ehtiyatlarının, xüsusilə əməkqabiliyyətli yaşda əməkqabiliyyətli əhalinin sayı, xalq təsərrüfatında məşğul olanların (yardımçı şəxsi təsərrüfatda məşğul olanlar da daxil edilməklə) və əhalinin ortaillik sayına nisbətən daha sürətlə artmışdı. 1 saylı cədvələ nəzər salsaq görərik ki, əmək ehtiyatlarının artım sürəti əhalinin artım sürətini 1971-75-ci illərdə 11,3 faiz bəndi, 1976-80-cı illərdə 12,2; 1981-85-ci illərdə

3,5 faiz bəndi üstələmiş, 1986-90-cı illərdə isə əksinə, əhalinin artım sürəti əmək ehtiyatlarının artım surətini 3 faiz bəndi üstələmişdir.

İctimai istehsalda məşğul olanların sayı 1970-ci illə müqayisədə 1975-ci ildə 16,1 faiz, 1975-ci illə müqayisədə 1980-cı ildə 15,9 faiz artsa da, onların əmək ehtiyatlarının tərkibində xüsusi çəkisi 1970-ci ildəki 68,1 faizdən 1975-ci ildə 65,2 və 1980-cı ildə 62,8 faizə qədər azalmış, kifayət qədər iş yerləri yaradılmadığından ev təsərrüfatlarında məskunlaşanların xüsusi çəkisi qeyd edilən illərdə müvafiq olaraq 15,4 faizdən 18,2 və 22,6 faizə qədər artmışdı.

Mövcud materialların təhlili göstərir ki, qeyd edilən demoqrafik inkişaf proseslərində baş verən dəyişikliklərin kifayət qədər nəzərə alınmaması ölkədə sonrakı illərdə əmək ehtiyatlarının ictimai istehsala cəlb edilməsində gərgin vəziyyət yaratdı və əhalinin məşğulluq səviyyəsi xeyli aşağı düşdü. Cədvəl 1-dən göründüyü kimi, əmək ehtiyatlarının sayı 1971-75-ci illərdə 21,3 faiz, 1976-80-cı illərdə 20,5 faiz artdığı halda, ictimai təsərrüfatda məşğul olanların sayı 16,1 və 15,9 faiz, ev təsərrüfatlarında məskunlaşanların sayı isə daha sürətlə 31,4 və 36 faiz artmışdır. Ulu öndərimiz Heydər Əliyevin səyi nəticəsində 1976-80-cı illərdə Azərbaycanda pambıqçılığın, üzümçülüyün və şərabçılığın inkişaf etdirilməsi ilə yanaşı, Bakı Məişət Kondisionerləri zavodunun, "Azərelektroterm" İstehsalat Birliyinin Təcrübə-sınaq zavodunun, Yeni Bakı Neftayırma zavodunda neft emalı üzrə ELOU-AVT güc qurğusunun, Əlötdə Ağac Emalı Kombinatının, Yevlaxdakı Yunun İlkin Emalı fabrikinin və bu kimi bir sıra digər radiotexnika, elektronika, yüngül və yeyinti sənaye müəssisələrinin tikilib istismara verilməsi əmək ehtiyatlarının artım sürəti ilə müqayisədə ictimai təsərrüfatda çalışanların artım sürətinin aşağı düşməsinə, əmək ehtiyatlarının tərkibində xüsusi çəkisinin cüzi də olsa (1980-cı ildəki 22,6 faizdən 1990-cı ildə 21,8 faizə qədər), azalmasına şərait yaratdı.

Milli adət-ənənələri ilə seçilən, sovetlər məkanında demoqrafik inkişaf xüsusiyyətlərinə görə fərqlənən Azərbaycanda və Orta Asiya Respublikalarında əmək ehtiyatlarından istifadə edilməsi sahəsində illərlə yaranan gərginliyə və onun törətdiyi ağır sosial fəsadlara SSRİ adlanan imperiyanın məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi üzrə respublikaları bir-birindən və ən çox bütün respublikaların RSFSR-dən daha çox asılı etmək siyasətinin nəticəsi kimi baxmaq lazımdır.

**Cədvəl 1**

**1970-1990-cı illərdə Azərbaycanda əhalinin əmək ehtiyatlarının və məşğulluq növünə görə əmək ehtiyatlarının sayı (min nəfər) və dinamikası (faizlə) [1, səh. 26]**

| | 1970 | 1975 | 1980 | 1985 | 1990 | 1970-ci ilə nisbətən 1975-ci ildə | 1975-ci ilə nisbətən 1980-ci ildə | 1980-ci ilə nisbətən 1985-ci ildə | 1985-ci ilə nisbətən 1990-cı ildə |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 1. Əhalinin ortaillik sayı | 5169,9 | 5689,0 | 6160,5 | 6670,2 | 7175,2 | 110,0 | 108,3 | 108,3 | 107,6 |
| 2. Əmək ehtiyatları-cəmi | 2335,6 | 2832,0 | 3412,0 | 3815,8 | 3959,9 | 121,3 | 120,5 | 111,8 | 104,6 |
| -əməkqabiliyyətli yaşda əhali | 2220,5 | 2702,0 | 3268,0 | 3664,5 | 3818,3 | 121,7 | 120,9 | 112,1 | 104,6 |
| -yuxarı yaşda işləyən şəxslər və 16 yaşa qədər işləyən yeniyetmələr | 115,1 | 130,0 | 144,0 | 151,3 | 141,6 | 112,9 | 110,8 | 105,1 | 103,9 |
| 3. Əmək ehtiyatlarının məşğulluq növünə görə bölüşdürülməsi | 1590,9 | 1847,7 | 2142,0 | 2420,7 | 2570,9 | 116,1 | 115,9 | 113,0 | 106,2 |
| - ictimai təsərrüfatda məşğul olanlar | 226,8 | 304,0 | 345,0 | 349,7 | 305,5 | 134,0 | 113,5 | 101,4 | 87,4 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **- istehsalatdan ayrılmaqla 16 və yuxarı yaşda təhsil alanlar** | 517,9 | 680,3 | 925,0 | 1045,4 | 1082,9 | 131,4 | 136,0 | 113,0 | 103,6 |
| **- ev və şəxsi yardımçı təsərrüfatda məşğul olanlardan:** | | | | | | | | | |
| **- ev təsərrüfatında** | 359,0 | 514,6 | 772,0 | 846,9 | 865,2 | 143,3 | 150,0 | 109,7 | 103,5 |
| **- şəxsi yardımçı təsərrüfatda məşğul olanlar** | 158,9 | 165,7 | 153,0 | 198,5 | 217,7 | 104,3 | 92,3 | 129,7 | 109,7 |

Keçən əsrin 70-ci illərinin sonundan başlayaraq, türkdilli ölkələri təmsil edən Azərbaycan və Orta Asiya Respublikalarında əhalinin sürətlə artması və SSRİ üzrə əhalinin tərkibində getdikcə onların üstünlük təşkil etməsi rus demoqraflarını çox narahat edirdi. Onların əvvəllər ümumittifaq səviyyəsində keçirilən elmi konfranslarda bu barədə öz fikirlərini üstüörtülü və dolayı yollarla bildirsələr də, sonralar, məsələn, 1978-ci ildə Brest şəhərində SSRİ-nin demoqrafik siyasətini işləyib hazırlayarkən öz narahatlıqlarını açıq bildirməyə başladılar. Bu cür yanaşma özünü demoqrafik siyasət hazırlanarkən məhsuldar qüvvələrin yerləşdirilməsində, xüsusilə yeni iş yerlərinin yaradılmasında daha qabarıq göstərməyə başladı. Türkdilli respublikalardakı əhalinin sürətlə artmasının qarşısını müəyyən qədər almaq məqsədilə rus demoqrafları SSRİ-nin ərazisini əmək ehtiyatlarının çatışmadığı və əmək ehtiyatlarının artıq olduğu regionlara bölərək axırıncı qrupa aid edilən respublikalardan artıq əmək ehtiyatlarının bilavasitə əmək ehtiyatlarının çatışmadığı regionlara göndərilməsi ideyasını irəli sürdülər. Həmin respublikalarda artıq əmək ehtiyatlarını, xüsusilə yerli əhali hesabına mütəşəkkil fəhlə toplanışı, ailəliklə köçürmə, gənclərin Rusiyanın qeyri-qaratorpaq ərazilərində boş qalmış texniki peşə təhsili məktəblərinə cəlb edilməsi yolu ilə məşğulluğunun təmin edilməsinə üstünlük verildi. Lakin nəzərdə tutulan tədbirlər həyata keçirilərkən həmin respublikalarda yerli xalqların azhərəkətli və ata yurduna bağlılığı amili nəzərə alınmadığından müsbət nəticə vermədi.

Əhalinin məşğulluq səviyyəsinə, nəticə etibarilə əhalinin sosial vəziyyətinə gənclərin peşə və ixtisasa yiyələnmək imkanlarının genişləndirilməsi də xeyli təsir göstərir. SSRİ məkanında ittifaq üzrə müqayisədə Azərbaycanda ümumi orta təhsil məktəblərinin gündüz şöbələrini qurtaranların texniki peşə, orta ixtisas və ali təhsil məktəblərində peşə və ixtisasa yiyələnmək imkanlarının aşağı olması məşğulluğun təmin edilməsinə ciddi təsir göstərən amillərdən biri olmuşdur. 1 saylı cədvələ nəzər salsaq görərik ki, 16 və yuxarı yaşda istehsalatdan ayrılmaqla təhsili olanların sayı 1971-1975-ci illərdə 34 faiz artdığı halda, sonrakı dövrlərdə azalmış, hətta 1985-ci illə müqayisədə 1990-cı ildə 12,6 faiz bəndi aşağı düşmüşdür. Müəyyən peşə və ixtisasa yiyələnmədən ev təsərrüfatlarında məskunlaşanların sayı isə daha sürətlə artmışdır.

Əhalinin məşğulluğu sahəsində yaranmış gərgin vəziyyətdən çıxmaq üçün ulu öndərimiz Heydər Əliyevin göstərişi ilə “1990-cı ilədək olan dövrə Azərbaycanda demoqrafik inkişaf və əmək ehtiyatlarından səmərəli istifadə edilməsi”nə dair Məqsədli Kompleks Proqramı işlənib hazırlandı və 1986-cı il dekabr ayının 23-də Azərbaycan KP MK-nın bürosunda bəyənildi. Proqrama müvafiq olaraq, 1986-1990-cı illərdə ictimai təsərrüfata 462 min nəfərin cəlb edilməsi, məşğulluq səviyyəsinin 73,2 faizdən 81,2 faizə qədər artırılması, ev və şəxsi yardımçı təsərrüfatlarda məşğul olanların xüsusi çəkisinin 26,8 faizdən 18,8 faizə qədər azaldılması nəzərdə tutulmuşdu [4, səh. 79].

Lakin təəssüflə qeyd etmək lazımdır ki, 80-ci illərin axırında səriştəsiz rəhbərlik və SSRİ-nin dağılması ərəfəsində ölkənin idarə olunmasında yaranan boşluqlardan məharətlə istifadə edən və öz məqsədlərinə nail olmaq üçün uzun illər boyu xəlvəti çirkin planlar hazırlayan erməni millətçiləri, Azərbaycanın ayrılmaz ərazisi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini ortalığa ataraq, Məqsədli Kompleks Proqramda 1988-1990-cı illər üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə imkan vermədi. Bundan başqa, Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə 300 min iş yeri, 4 mindən çox müəssisə və təşkilat itirdik. Aparılan araşdırmalar

nəticəsində müəyyən edilmişdir ki, erməni təcavüzkarları tərəfindən işğal olunan ərazilərdə ictimai istehsala cəlb edilən əmək ehtiyatlarının 45,4 faizi kənd təsərrüfatında, 13,9 faizi sənayedə və tikintidə, 21,9 faizi səhiyyədə və təhsildə məşğul olmuşdu. İşğaldan sonra məcburi köçkün kimi ölkəmizin müxtəlif regionlarında məskunlaşan 48,6 min nəfər ali və orta ixtisas təhsilli mütəxəssislərdən yalnız cüzi bir hissəsi işlə təmin edilmişdir.

Bundan başqa, SSRİ-nin dağılması ilə milli münaqişələrin geniş vüsət alması nəticəsində respublikalar arasında qeyri-mütəşəkkil əhali miqrasiyasının artması əmək ehtiyatları ilə iş yerlərinin arasında illərlə yaranmış tarazlığın pozulmasına, nəticə etibarilə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına və işçi qüvvəsi ilə təmin edilməsinə xeyli mənfi təsir göstərdi.

1988-ci ildən başlayaraq, əksər respublikalarda baş verən milli münaqişələr nəticəsində qaçqın şəklində Azərbaycana Ermənistandan azərbaycanlıların, Özbəkistandan mesxeti türklərinin gəlmələri, erməni siyasətbazlarının təsiri ilə Azərbaycandan ermənilərin və rusdilli xalqların müəyyən qisminin köçüb getmələri, gələnlərin, əsasən, kənd təsərrüfatında məşğul olan kənd əhalisindən, gedənlərin isə, əsasən, sənayedə, tikintidə, ticarətdə və məişət xidməti sahələrində çalışan şəhər əhalisindən ibarət olması ölkəmizdə əhalinin və əmək ehtiyatlarının quruluşuna, məşğulluq və ictimai istehsala cəlb edilməsi səviyyəsinə, nəticə etibarilə əhalinin dolanışığına və yaşayış tərzinə ciddi təsir göstərərək əhalinin onsuz da ağır olan sosial vəziyyətinin daha da gərginləşməsinə səbəb oldu.

Milli münaqişə zəminində respublikalar arasında əhalinin qeyri-mütəşəkkil hərəkət və miqrasiyası, bir tərəfdən əmək ehtiyatlarının tərkibində baş verən peşə və ixtisas dəyişikliklərinin mövcud iş yerlərinin tələbatına uyğun gəlməməsinə, digər tərəfdən də bəzi iqtisadi fəaliyyət sahələrində əmək şəraitinə və işin xarakterinə görə əməkhaqqı səviyyəsinin aşağı olduğu və adamların diqqətini cəlb etməyən xeyli boş iş yerlərinin yaranmasına gətirib çıxartdı. 1989-cu il avqust ayının 1-nə fəhlələrin peşə üzrə, həmçinin mexanikləşmiş və əl əməyində məşğul olan fəhlələrin sayının yekun uçotu üzrə materialların təhlili göstərir ki, sənayedə mövcud iş yerlərinin 36,4, tikintidə 69,6, sovxozlarda 86,3, kolxozlarda 88,3 və məişət xidmətində 70,7 faizində əl əməyi tətbiq edilirdi. O illərin planlarında həmin iş yerlərindən sənayedə 65,6 faizinin, tikintidə 37,1, sovxozlarda 73,3 və məişət xidmətində 37 faizinin ilk növbədə mexanikləşdirilməsi nəzərdə tutulmuşdur [3, səh. 57-136].

**Bazar münasibətlərinə keçidin ilk illərində sosial-iqtisadi sahələrdə yaranan çətinliklər**

SSRİ dağılana qədərki dövrdə Azərbaycanın sosial-iqtisadi inkişafında və demoqrafik inkişaf proseslərində baş verən dəyişikliklərin öyrənilməsi, bu dəyişikliklərin əhalinin məşğulluğunun və sosial vəziyyətinin gərginləşməsinə təsirinin qiymətləndirilməsi göstərir ki, digər ölkələrdən fərqli olaraq, Azərbaycan Ermənistanın ölkəmizə təcavüzü və 20 faiz torpaqlarımızın işğalı, sovetlər dönəminin sonu və müstəqilliyimizin ilk dövründə ölkənin səriştəsiz rəhbərlik tərəfindən idarə edilməsi fonunda yaranmış çətin şəraitdə özünün istər siyasi, istərsə də iqtisadi müstəqilliyini qurmağa başladı.

Əvvəla qeyd etmək lazımdır ki, müəyyən obyektiv və subyektiv səbəblər üzündən bazar münasibətlərinə keçidin ilk illərində aparılan iqtisadi islahatların klassik ardıcıllığı pozulmuşdu. Bazar iqtisadiyyatına keçidin klassik ardıcıllığına əməl edilməməsinə hər şeydən əvvəl ölkənin dəyanətli pul vahidinin olmaması, müstəqillik əldə etmiş digər respublikalar kimi müəyyən müddət vahid rubl məkanında qalması, dövlət gömrük və sərhəd sisteminin tam formalaşmaması, milli adət-ənənələri və beynəlxalq münasibətləri nəzərdə tutan qanunvericilik aktlarının yaradılmaması və digər bu kimi problemlər səbəb oldu. Belə şəraitdə hazırlıq görülmədən, regional xüsusiyyətlər, milli adət-ənənələr nəzərə alınmadan qiymətlərin tələm-tələsik sərbəstləşməsi qısa vaxtda bəzi istehsal sahələrinin tam, bəzilərinin isə qismən dayandırılmasına, nəticə etibarilə əhalinin xeyli hissəsinin tələbatının təmin edilməsinə və həyat səviyyəsinə ciddi mənfi təsir göstərdi.

İkincisi, büdcə kəsrinin böyük olması və onun ildən-ilə artması, əhalinin alıcılıq qabiliyyətinin xeyli aşağı düşməsi, işsizliyin artması, ailədə valideynlərdən birinin, bəzi hallarda, hətta hər ikisinin iş yerini itirməsi və digər bu kimi sosial çətinliklər aztəminatlı əhali qruplarının sosial vəziyyətinin daha da ağırlaşmasına, mahiyyətcə yeni və fərqlənən aztəminatlı əhali qruplarının

meydana gəlməsinə səbəb oldu. Həyata keçirilən investisiya siyasəti mövcud iş yerlərinin qorunub saxlanması və yeni iş yerlərinin yaradılması imkanlarını ciddi surətdə məhdudlaşdırdı.

Üçüncüsü, ölkəmizdə iqtisadi islahatlar, qəribə görünsə də, mövcud olan milli manatın alıcılıq qabiliyyətinin və o dövrdə maliyyə pul-kredit sistemində fəaliyyət göstərən "mütəxəssislərin" səriştəsizliyi üzündən rubla görə məzənnəsinin getdikcə aşağı düşdüyü, dövlət vergi və gömrük sisteminin kifayət qədər səmərəli fəaliyyət göstərmədiyi şəraitdə aparılırdı. Dövlətin sosial-iqtisadi siyasətinin əsas vasitəsi olan pulun hərəkətinə nəzarətin olmaması günü-gündən artan inflyasiyaya qarşı tutarlı tədbirlərin həyata keçirilməsinə imkan vermirdi. Dövlət tərəfindən ciddi nəzarətin olmamasından məharətlə istifadə edən bir sıra işbazlar kommersiya bankları yaratmaqla əhalinin vəsaitlərini toplayıb, xarici ölkələrdən ölkəmizdə istehsal edilməsi mümkün olan kənd təsərrüfatı, ərzaq və qeyri-ərzaq məhsulları gətirərək var-dövlətə sahib olmağa səy göstərirdilər. Bununla da onlar həmin vəsaiti ölkəmizdə yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun təmin edilməsinə və həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəltmək əvəzinə, digər ölkələrdə əhalinin məşğulluğunun və sosial vəziyyətinin daha da yaxşılaşmasına xidmət edirdilər.

Onu da qeyd etmək lazımdır ki, keçid ərəfəsində ölkəmizin bazar münasibətləri şəraitində sosial-iqtisadi inkişaf istiqamətlərini əhatə edən vahid Dövlət Proqramı işlənib hazırlanmamışdır. Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin 2010-cu ildə dərc edilmiş "İctimai və humanitar elmlər: zaman kontekstindən baxış" məqaləsində mövcud vəziyyəti haqlı tənqid edərək göstərmişdir ki, "Ölkəmizin iqtisadi inkişafının vahid konsepsiya çərçivəsində təqdimi məsələsi hələ də öz həllini tapmaq mərhələsindən çox uzaqdır" [2]. Əslində hər hansı bir ölkədə həyata keçirilməsi zəruri olan, iqtisadi islahatları özündə birləşdirən, əlaqələndirən və ünvanlandıran Dövlət Proqramını tərtib etmədən, istər iqtisadiyyatın ayrı-ayrı sahələri, istərsə də iş yerlərinin yaradılması, məşğulluğun təmin edilməsi və digər sosial sahələr üzrə həm dövlət siyasətini, həm də konkret inkişaf proqramlarını işləyib hazırlamaq, həyata keçirmək və müsbət nəticələr əldə etmək qeyri-mümkündür.

Bazar münasibətlərinə keçən ölkələrin təcrübəsi göstərir ki, keçid dövründə əmək bazarının formalaşması və təşəkkül tapması sosial-iqtisadi inkişaf sahəsində əldə edilən uğurların rəhnidir. Çünki bazar münasibətlərinə keçidin ayrı-ayrı mərhələlərində sosial-iqtisadi sahədə yarana biləcək şəraitdən asılı olaraq əməyə tələb və təklifin tarazlaşmasına, başqa sözlə, iş yerlərinin azalmasına və ya yenilərinin formalaşmasına təsir edən amillər müxtəlif olur. Bu müxtəlifliyi nəzərə almadan qarşıya qoyulan məqsədlərə nail olmaq qeyri-mümkündür. Bazar iqtisadiyyatına keçərkən əmək bazarının formalaşmasına təsir göstərən amilləri ümumiləşdirərək aşağıdakı üç qrupa bölmək olar.

Birinci qrupa, ölkənin sosial, iqtisadi və siyasi sahələrində yarana biləcək böhrandan irəli gələn amilləri aid etmək olar. Bu amillərə totalitar rejimin dağılmasının məntiqi nəticəsi kimi, ittifaqa daxil olan respublikaların arasında illərlə formalaşmış iqtisadi əlaqələrin bir anda qırılması və nəticə etibarilə respublikaların daxilində təsərrüfatların inkişafında tarazlığın pozulması; dövlət investisiyasının aşağı düşməsini; xalq təsərrüfatının, xüsusilə sənayenin strukturunda illərlə yaranmış deformasiyanın daha da kəskinləşməsini aid etmək olar. Bu amillərin təsiri ilə MDB-yə daxil olan respublikaların demək olar ki, hamısında istehsalın həcmi və milli gəlir xeyli azalmış, inflyasiya daha da dərinləşmiş, müəssisələrin tam və ya qismən dayanması üzündən iş yerləri ixtisara düşmüş, aztəminatlı əhalinin yeni sosial qrupları yaranmışdır və s.

İkinci qrupa, o dövrün dili ilə desək, qarışıq (çoxukladlı) iqtisadiyyatın formalaşmasından, bazar münasibətlərinin təşəkkül tapmasından və daha da inkişaf etməsindən irəli gələn amillər daxildir. Bu cür amillərə dövlət əmlakının özəlləşdirilməsini və mülkiyyətin dövlətsizləşdirilməsini; təsərrüfatçılığın yeni, alternativ formalarının yaranmasını və inkişafını; bazar münasibətlərinə xas olan iqtisadi məkanın formalaşmasını; suveren ölkənin iqtisadi və siyasi müstəqilliyinin təmin edilməsinə kütləvi şəkildə göstərilən səyləri və idarəetmə strukturunda baş verən dəyişiklikləri və s. amilləri aid etmək olar.

Üçüncü qrup amillərə, respublikaların dünya bazarına inteqrasiya etməsi; iqtisadiyyatın ayrı-ayrı sahələrinə xarici investisiyaların cəlb edilməsi; daxili istehlak bazarının xarici ölkələrdən gətirilən zəruri mallarla zənginləşdirilməsi; sərbəst (və ya azad) iqtisadi zonaların yaradılması və bunlara oxşar başqa amillər daxildir.

İşçi qüvvəsinə tələbatın formalaşmasına təsir göstərən bu üç qrup amillərdən keyfiyyətcə fərqlənən birinci iki qrup amillər, bazar münasibətlərinə keçidin ilk illərində işçi qüvvəsinə tələbatın xeyli azalmasına səbəb oldu. Sosial-iqtisadi və siyasi böhranlarla bağlı amillər iqtisadi fəaliyyətin əksəriyyət sahələrində iş yerlərinin mütləq sayının azalmasına daha çox təsir göstərmişdir.

**Məşğulluğun sahə quruluşunda baş verən dəyişikliklər**

Bazar münasibətlərinə keçidin ilk illərində ölkəmizin iqtisadiyyatında məşğul olanların dinamikasını və sahə quruluşunun dəyişməsini xarakterizə edən 2 saylı cədvələ nəzər salaq.

**Cədvəl 2**

**1990-1995-ci illərdə iqtisadiyyatda məşğul olanların sayı (min nəfər) və sahə quruluşu (faizlə)**

| | 1990 | | 1995 | | 1995 ildə 1990 ilə nisbətən | |
|---|---|---|---|---|---|---|
| | Sayı (min nəfər) | Sahə quruluşu % | Sayı (min nəfər) | Sahə quruluşu % | Sayı +artma -azalma | Faizlə |
| **Cəmi iqtisadiyyatda** | 2907,7 | 100,0 | 2837,3 | 100,0 | -70,4 | 97,6 |
| **O cümlədən:** | | | | | | |
| **- Sənayedə** | 469,1 | 16,1 | 352,1 | 12,4 | -117,0 | 75,1 |
| **- Kənd və meşə təsərrüfatında** | 898,6 | 30,9 | 874,0 | 30,8 | -24,6 | 97,3 |
| **- Tikintidə** | 251,7 | 8,7 | 185,1 | 6,5 | -66,6 | 73,5 |
| **- Nəqliyyat və rabitədə** | 215,8 | 7,4 | 159,1 | 5,6 | -56,7 | 73,7 |
| **- Ticarət və ictimai iaşədə, MTT və satışda** | 289,1 | 9,9 | 396,2 | 14,0 | +107,1 | 137,0 |
| **- Mənzil-kommunal təsərrüfatında, əhaliyə məişət xidmətində** | 99,7 | 3,4 | 81,8 | 2,9 | -17,9 | 82,0 |
| **- Səhiyyə, bədən tərbiyəsi və sosial təminatda** | 169,6 | 5,8 | 174,6 | 6,2 | +5,0 | 102,9 |
| **- Təhsil, mədəniyyət və incəsənətdə.** | 337,8 | 11,6 | 372,6 | 13,1 | +34,8 | 110,3 |
| **- Elm və elmi xidmətdə** | 57,9 | 2,0 | 34,1 | 1,2 | -23,8 | 58,9 |
| **- Kreditləşmə, maliyyə və sığortada** | 10,7 | 0,4 | 14,2 | 0,5 | +35 | 132,7 |
| **- İdarəetmə orqanlarının aparatında** | 51,0 | 1,8 | 66,6 | 2,3 | +15,6 | 130,6 |
| **- Digər sahələrdə** | 56,7 | 2,0 | 127,0 | 4,5 | +70,3 | 224,0 |

Göründüyü kimi, SSRİ dağıldıqdan sonrakı 5 ildə, 1991-1995-ci illərdə iqtisadiyyatda məşğul olanların sayı 70,4 min nəfər, sənayedə 117,0 min, kənd təsərrüfatında 24,6 min, tikintidə 66,6 min, nəqliyyat və rabitədə 56,7 min, mənzil-kommunal təsərrüfatında və əhaliyə məişət xidmətində -17,9 min, elm və elmi xidmətdə 23,8 min nəfər azaldığı halda, ticarət və ictimai iaşədə, maddi-texniki təchizat və satışda 107,1 min nəfər, səhiyyə, bədən-tərbiyəsi və sosial təminatda 5 min, təhsil, mədəniyyət və incəsənətdə 34,8 min, kreditləşmə, maliyyə və sığortada 3,5 min nəfər, idarəetmə orqanlarının aparatında 15,6 min, digər sahələrdə isə 70,3 min nəfər artmışdır. Ən çox azalma elm və elmi xidmətdə (1990-cı illə müqayisədə 1995-ci ildə 41,1 faiz bəndi), tikintidə (26,5 faiz bəndi), sənayedə (24,9 faiz bəndi), nəqliyyat və rabitədə (26,3 faiz bəndi) müşahidə olunmuşdur. Ən yüksək artım isə idarəetmə orqanları aparatında (30,6 faiz), kreditləşmə, maliyyə və sığortada (32,7 faiz), ticarət və ictimai iaşədə (37,0 faiz) baş vermişdir. Təxmini hesablamalar göstərir ki, bazar münasibətlərinə keçidin ilk beş ilində 300 mindən çox iş yeri ya ləğv edilmişdir, ya da boş qalmışdır [5, səh.27].

Qarışıq (çoxukladlı) iqtisadiyyatın formalaşması və təsərrüfatçılığın alternativ formalarının yaranması ilə bağlı olan amillərə gəldikdə göstərmək lazımdır ki, bu proseslərin ləng həyata keçirilməsinə baxmayaraq, onlar işçi qüvvəsinə tələbatın formalaşmasında, yeni iş yerlərinin yaranmasında və məşğulluğun təmin edilməsində əhəmiyyətli rol oynamışdır. Lakin həmin illərdə bu sahədə bir sıra neqativ hallar baş verməsəydi, məşğulluqda əldə edilən uğurlar daha çox olardı.

Statistik materialların təhlili göstərir ki, 1995-ci ilin axırına ölkəmizdə fəaliyyət göstərən 1009 kooperativdə 9,8 min nəfər, 12220 kiçik müəssisədə 76,9 min nəfər, 717 müştərək müəssisədə 15,4 min nəfər və 11412 kəndli (fermer) təsərrüfatında 71,2 min nəfər məşğul olmuşdur ki, bunlar da 1995-ci ildə iqtisadiyyatda məşğul olanların 6,1 faizinə bərabər olmuşdur [5, səh.35]. Lakin bazar münasibətlərinə keçidin ilk illərində dövlət orqanlarında, xüsusilə hüquq-mühafizə orqanlarında və

digər sahələrdə geniş yayılmış rüşvətxorluq, mühafizəkarlıq, səhlənkarlıq, vəzifədən sui-istifadə etmək və digər bu cür hallar əhalinin təsəvvüründə iqtisadiyyatın bu alternativ formalarına mənfi münasibət yaratmasaydı, bu cür müəssisələrin və onlarda məşğul olanların sayı daha çox olardı. Nəticədə əhalinin, xüsusilə onun aztəminatlı hissəsinin sosial müdafiəsi sahəsində dövlətin üzərinə düşən yükün xeyli yüngülləşməsinə şərait yaradardı.

İqtisadiyyatın ayrı-ayrı sahələrində mövcud iş yerlərinin saxlanılması və onların artırılması kapital qoyuluşunun həcmindən və ondan səmərəli istifadə edilməsindən xeyli asılı idi. Təəssüflər olsun ki, bu sahədə də vəziyyət gərgin olmuş və kapital qoyuluşunun həcmi 1990-cı illə müqayisədə 1995-ci ildə 218,7 milyon dollar və ya 45,9 faiz bəndi azalmış, kapital qoyuluşunun ümumi həcmində istehsal təyinatlı obyektlər üzrə kapital qoyuluşunun xüsusi çəkisi 63,6 faizdən 54,7 faizə qədər azalmışdı. Qeyd edilən dövrdə istehsal təyinatlı obyektlər üzrə fəaliyyət göstərən müəssisələrin yeni texnika ilə təchiz edilməsinə və yenidən qurulmasına yönəldilən kapital qoyuluşunun həcmi 39,1 faiz bəndi, fəaliyyət göstərən müəssisələrin genişləndirilməsinə 39,6 faiz bəndi, yeni tikintiyə 4,4 dəfə azalmışdı [5, səh.198]. Baş verən bu dəyişikliklər əslində iş yerlərinin tənəzzülə yuvarlanmasını və fiziki sayının azalmasını göstərir. Təsadüfi deyil ki, qeyd edilən dövrdə tikinti təşkilatlarında işçilərin sayı 90,5 min nəfər və ya 52,6 faiz bəndi, o cümlədən tikinti quraşdırma işlərində məşğul olanların sayı 82,8 min nəfər və ya 46,6 faiz bəndi azalmışdı [5, səh. 210].

Bazar iqtisadiyyatına keçid ərəfəsində və keçidin ilk illərində ölkəmizin sosial, iqtisadi və siyasi sahələrində baş verən hadisələr nəticəsində əhalinin sosial vəziyyətində yaranmış çətinliklər yalnız ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə ölkəyə rəhbərlik etdiyi dövrdən başlayaraq aradan qaldırıldı və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında qətiyyətli addımlar atıldı.

**Əhalinin məşğulluğunda yeni mərhələ**

Yoxsulluq bütün iqtisadi sistemlərə xas olan hal kimi həmişə olmuş və həmişə də olacaqdır. Sadəcə olaraq, bu problem hər bir ölkədə dövlət və ictimai təşkilatların diqqətindən kənarda qalmamalıdır. Əks halda yoxsulluğun yaratdığı fəsadlar dövlətin sosial yükünü daha da ağırlaşdıra bilər. Təsadüfi deyildir ki, bu gün dünyanın bütün ölkələri yoxsulluğa qarşı müharibə elan edib. Böyük imkana malik olan dövlətlər, beynəlxalq maliyyə qurumları inkişaf etməkdə olan və əhalisinin xeyli hissəsinin yoxsul yaşadığı ölkələrə yardım göstərərək onların iqtisadiyyatının dirçəlməsinə köməklik göstərirlər.

21-ci əsrin ilk illərində əhalinin həyat səviyyəsinin dəyişməsi meyillərinin təhlili və yoxsulluğun qiymətləndirilməsi göstərir ki, Azərbaycanda əhalinin məşğulluğunun təmin edilməsi əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasının, nəticə etibarilə yoxsulluq həddinin və ondan aşağı səviyyədə yaşayanların həm mütləq, həm də nisbi sayının azaldılmasının əsas şərtlərindən biri olmuşdur.

Aparılan müşahidələr göstərir ki, muzdla işləyənlərin sayı çox olan ev təsərrüfatlarında ailə gəlirlərinin əsas hissəsini–əməkhaqqı təşkil edir. Bu baxımdan, prezident seçkilərindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü il noyabr ayının 17-də Nazirlər Kabinetinin yeni tərkibi ilə görüşündə ölkənin yaxın gələcəkdə sosial-iqtisadi inkişaf istiqamətlərini dəqiq və aydın göstərərək inkişafımızın yeni mərhələsinin təməlini qoydu. Həmin görüşdən sonra həll edilməsi vacib hesab edilən problemlər və onların həlli yolları Prezidentin 2003-cü il 24 noyabr tarixli ilk Fərmanında konkret öz əksini tapdı. Bu fərmanda əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasını təmin edən əsas istiqamətlərdən biri olan əhalinin, xüsusilə gənclərin məşğulluğunun təmin edilməsi və işsizliyin azaldılması kimi ciddi problemin həll edilməsinə üstünlük verildi. Bu problemin həllində əhəmiyyətli rol oynaya biləcək regionların sosial-iqtisadi inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsinin təmin edilməsi bütövlükdə ölkə iqtisadiyyatının inkişafında əsas və ilkin şərt kimi qəbul edildi. Bu fərmandan sonra 2004-2008: 2009-2013 və 2013-2015-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında və digər mühüm vacib sənədlərdə nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsi ölkəmizin, xüsusilə kənd yerlərinin davamlı inkişafında əhəmiyyətli rol oynadı.

Regional proqramlarda nəzərdə tutulan tədbirlərin uğurla həyata keçirilməsi nəticəsində ölkəmizdə 2004-2015-ci illərdə 1480,4 min yeni iş yerləri açılmışdır ki, onların da 74,4 faizi daimi iş

yerləri olmuşdur. Daimi iş yerlərinin 49,7 faizi 2004-2008-ci illərdə, 50,3 faizi isə 2009-2015-ci illərdə yaradılmışdı [6, səh.683]. Yeni daimi iş yerlərinin açılması əhalinin iqtisadi fəallığının artmasına əhəmiyyətli təsir göstərmişdir.

**Cədvəl 3**

**Əmək ehtiyatlarının və əməkqabiliyyətli yaşda əhalinin sayı, dinamikası və quruluşu**

| | 2003 | | 2009 | | 2015 | | 2009-cu ildə 2003-cü ilə nisbətən %-lə | 2015-ci ildə 2009-cu ilə nisbətən %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| | sayı, min | quruluşu, %-lə | sayı, min | quruluşu, %-lə | sayı, min | quruluşu, %-lə | | |
| **1. Əmək ehtiyatları-cəmi** **o cümlədən:** | 4923,0 | 100,0 | 5915,7 | 100,0 | 6335,9 | 100,0 | 120,2 | 107,1 |
| - əməkqabiliyyətli yaşda əməkqabiliyyətli əhali | 4767,1 | 96,8 | 5773,3 | 97,6 | 6198,7 | 97,6 | 121,1 | 107,4 |
| - əməkqabiliyyətli yaşdan yuxarı işləyən şəxslər | 142,7 | 2,9 | 133,9 | 2,3 | 137,2 | 2,3 | 93,8 | 102,5 |
| - əməkqabiliyyətli yaşdan cavan işləyən yeniyetmələr | 13,2 | 0,3 | 8,5 | 0,15 | _ | _ | 64,4 | _ |
| **2. Əməkqabiliyyətli yaşda əhali-cəmi*** **o cümlədən:** | 5164,4 | 100,0 | 5687,3 | 100,0 | 6330,1 | 100,0 | 110,1 | 111,3 |
| ***a) iqtisadi fəal əhali onlardan:*** | 3690,1 | 71,4 | 4221,8 | 74,2 | 4813,5 | 76,0 | 114,4 | 114,0 |
| - məşğul əhali | 3286,4 | 63,6 | 3961,6 | 69,6 | 4569,8 | 72,2 | 120,6 | 115,4 |
| - işsiz əhali | 403,7 | 7,8 | 260,2 | 4,6 | 243,7 | 3,8 | 64,5 | 93,7 |
| ***b) iqtisadi qeyri-fəal əhali*** | 1475,3 | 28,6 | 1465,5 | 19,3 | 1516,6 | 24,0 | 99,3 | 103,5 |
| **3. Əhalinin iqtisadi fəallıq səviyyəsi** | 71,4 | x | 74,2 | x | 76,1 | x | x | x |
| **4. Məşğulluq səviyyəsi** | 89,1 | x | 93,8 | x | 94,9 | x | x | x |
| **5. İşsizlik səviyyəsi** | 10,9 | x | 6,2 | x | 5,1 | x | x | x |

*Əhalinin iqtisadi fəallığına dair seçmə statistik müayinənin məlumatlarına əsasən

Əhalinin iqtisadi fəallığını xarakterizə edən 3 saylı cədvələ nəzər salsaq görərik ki, 2003-cü illə müqayisədə 2009-cu ildə əməkqabiliyyətli yaşda əhalinin sayı 10,1 faiz bəndi, 2009-cu illə müqayisədə 2015-ci ildə 11,3 faiz artdığı halda, iqtisadi fəal əhalinin sayı müvafiq olaraq 14,4 və 14 faiz, məşğul olanların sayı isə 20,6 və 15,4 faiz artmışdır. Nəticədə əməkqabiliyyətli yaşda əhalinin iqtisadi fəallığı müvafiq olaraq 2,8 və 1,9 faiz bəndi artaraq, 74,2 və 76,1 faiz təşkil etmişdir. Əməkqabiliyyətli yaşda əhalinin iqtisadi fəallığının artması ilə yanaşı, onların məşğulluq səviyyəsi müvafiq dövrlərdə 89,1 faizdən 93,8 və 94,9 faizə qədər artmış, işsizlik səviyyəsi isə 10,9 faizdən 6,2 və 5,1 faizə qədər azalmışdır [8, səh.113].

## Nəticə

Azərbaycanda bazar münasibətlərinə keçid ərəfəsində və müstəqilliyin ilk illərində sosial-iqtisadi demoqrafiya və məşğulluq sahələrində baş verən hadisələrin və proseslərin təhlili, habelə qiymətləndirilməsi göstərir ki, 90-cı illərin ikinci yarısında dövlət əmlakının özəlləşdirilməsi prosesinin başlanması və uğurla davam etməsi; vergi sistemində islahatların aparılması; iqtisadiyyata cəlb edilən investisiyaların artması; sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün əlverişli mühitin yaradılması və onların mənafelərinin müdafiəsi üzrə hüquqi bazanın formalaşması və başqa bu kimi tədbirlərin həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatı tənəzzüldən dirçəlişə doğru inkişaf etmişdir. Üçüncü minilliyin ilk beş ilində əldə edilən uğurlar ölkə iqtisadiyyatının inkişafında yeni mərhələnin – tərəqqi dövrünün başlanmasından və son illərdəki uğurlar isə tərəqqinin uzunömürlü olmasından xəbər verir.

**Cəlil Quliyev, Rza Allahverdiyev**

**Azərbaycanda demoqrafik proseslərdə və əhalinin məşğulluğunda baş verən dəyişiklikləri xarakterizə edən statistik göstəricilərin təhlili və qiymətləndirilməsi**

**Xülasə**

Məqalədə Azərbaycanda demoqrafik proseslərdə və əhalinin məşğulluğunda baş verən dəyişiklikləri xarakterizə edən statistik göstəricilər təhlil edilərək göstərilmişdir ki, Azərbaycan tarixində doğum əmsalının və təbii artımın ən yüksək səviyyəsi keçən əsrin 50-ci illərinin axırına və 60-cı illərin əvvələrinə təsadüf edir. Həmin illərdə dünyaya gələnlərin 70-ci illərdən başlayaraq, əməkqabiliyyətli yaşa keçməsi ilə əlaqədar olaraq, demoqrafik proseslərdə və əhalinin məşğulluğunda nəzərə çarpacaq dəyişikliklər baş vermişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra həyata keçirilmiş tədbirlər nəticəsində ölkədə məşğulluğa dair statistik göstəricilərdə müsbət dəyişikliklər baş verməsi, əhali arasında yoxsulluğun azalması və işsizlik səviyyəsinin aşağı düşməsinə dəlalət edir. Nəticəyə gəlinmişdir ki, ölkə öz tərəqqisinə qədəm qoymuşdur və bu tərəqqi uzunömürlüdür.

**Джалил Гулиев, Рза Аллахвердиев**

**Анализ и оценка статистических показателей, характеризующих изменения в демографических процессах и занятости населения в Азербайджане**

**Резюме**

Анализируя статистические показатели, характеризующие происходящие изменения в сфере занятости и демографических процессах в Азербайджане, в статье было показано, что самый высокий уровень коэффициента рождаемости и естественного прироста в истории Азербайджана приходится на конец 50-х и начало 60-х годов прошлого века. Начиная с 70-х годов, в связи с переходом рожденных в тот период в трудоспособный возраст, произошли серьезные изменения в сфере занятости и демографических процессах. В результате мер, предпринятых после приобретения независимости Азербайджана, положительные изменения в статистических показателях занятости в стране наблюдаются на фоне снижения уровня бедности и безработицы среди населения.

**Jalil Guliyev, Rza Allahverdiyev**

**Analysis and assessment of statistical indicators characterizing the changes in employment and demographic processes in Azerbaijan**

**Summary**

The article analyses statistical indicators characterizing changes in demographic processes and population employment in Azerbaijan and shows that the highest level of birth rate and natural growth in Azerbaijan history falls on the end of 50s and the beginning of 60s. In connection with growing of born since 70s up to able-bodied age the substantive changes have been occurred in demographic processes and population employment.As a result of actions implemented after Azerbaijan gained independence the positive changes in statistical indicators on employment in the country testify the reduction ofpoverty amongpopulation and decreasing of unemployment level. Consequently, the country passed into progress and it is lifelong.

## Ədəbiyyat

1. “Azərbaycan Respublikasında sosial - iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Xalq qəzeti. 2003, 25 noyabr.
2. R. Mehdiyev “İctimai və humanitar elmlər: zaman kontekstindən baxış”. 2010.
3. Итоги учета численности рабочих по профессиям и рабочих, занятых механизированным и ручным трудом на 1 августа 1989 года, II том. Государственный Комитет Азербайджанской ССР по Статистике, г. Баку, 1990 г.
4. Целевая комплексная программа “Демографическое развитие и рациональное использование трудовых ресурсов Азербайджанской ССР на период до 1990 года” Баку, 1986.

5. Azərbaycanın statistik göstəriciləri 1996. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 1996.
6. Azərbaycanın statistik göstəriciləri 2016. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2016.
7. Azərbaycanın əhalisi 2016. Statistik məcmuə. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri.
8. Əmək bazarı. Statistik məcmuə 2016. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri.

# TİKİNTİ STATİSTİKASI SAHƏSİNDƏ ƏSAS İQTİSADİ GÖSTƏRİCİLƏR VƏ ONLARIN TƏHLİLİ

***Anar Əliyev***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Sənaye və tikinti statistikası şöbəsinin baş məsləhətçisi*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: anarali@azstat.org*

**Açar sözlər:** investisiyalar, məhsul istehsalı, xidmət sahələri üzrə obyektlər, əsas kapitala yönəldilmiş investisiyalar, istifadəyə verilmiş yaşayış evləri, ümumtəhsil məktəbləri, xəstəxanalar, poliklinikalar, məktəbəqədər təhsil müəssisələri
**Ключевые слова:** инвестиции, производство продукции, объекты в сфере обслуживания, инвестиции, направленные в основной капитал, сданные в эксплуатацию жилые дома, общеобразовательные школы, больницы, поликлиники, дошкольные образовательные учреждения
**Keywords:** investment, product output, objects of service areas, investments directed to main fixed assets, dwellings submitted into use, general education schools, hospitals, out-patient clinics, preschool educational schools

Müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrdən biri demokratik ölkənin tələblərinə cavab verən və müasir dünya iqtisadiyyatına səmərəli inteqrasiyanı təmin edən, bazar prinsipləri əsasında qurulmuş milli iqtisadiyyatı formalaşdırmaq idi. Zəngin karbohidrogen ehtiyatlarına və bunların hasilatı və emalı sahəsində uzunmüddətli təcrübəyə malik olması ölkədə neft hasilatı və emalı sənayesinin, habelə əlverişli təbii-iqlim və torpaq resurslarının mövcudluğu kənd təsərrüfatı və turizm sahələrinin inkişafına, əlverişli coğrafi mövqe isə ölkənin beynəlxalq tranzit nəqliyyat sisteminə qoşulmasına zəmin yaradırdı. Müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatı məhz bu zəminlər üzərində dəyişməyə və formalaşmağa başladı. Həyata keçirilən iqtisadi islahatlar, habelə beynəlxalq əlaqələrin genişlənməsi, digər sahələrdə olduğu kimi statistika sahəsinə də öz təsirini göstərirdi. Bu zaman ölkədə rəsmi statistikanı həyata keçirən Dövlət Statistika Komitəsinin qarşısında duran əsas vəzifələr: statistik məlumatların yığılması, işlənməsi, yayılması, istifadə edilməsi prinsipləri və metodlarının beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, həmçinin effektiv idarəetmə sisteminin yaradılması, istifadəçi ehtiyaclarına və gözləntilərinə operativ reaksiya verilməsinin təmin edilməsi idi. Yeni yaranmış iqtisadi sistemə uyğunlaşmaq statistika sahəsində bu dəyişikliklərə mobil inteqrasiyanı qaçılmaz etdi. Artıq daha çevik iqtisadi və sosial statistik təhlil aparmaq, illik statistik məlumatlar bazasının dünya təcrübəsinə uyğun əsaslandırılmış şəkildə yenilənməsi tələb olunurdu. Bu tələbin iki əsas səbəbi vardır:

1) Ölkənin sosial-iqtisadi vəziyyətini tam reallığı ilə xarakterizə edən statistik məlumatların statistik bazalarda öz əksini tapması;
2) Ölkənin sosial-iqtisadi vəziyyətini xarakterizə edən statistik göstəricilərin beynəlxalq standartlara uyğun hesablanması.

Bütün bunları nəzərə alaraq, Dövlət Statistika Komitəsində bazar iqtisadiyyatı şəraitində makroiqtisadi prosesləri özündə əks etdirən və bir-biri ilə qarşılıqlı əlaqəli ikitərəfli göstəricilər sistemi olan Milli Hesablar Sisteminin yaradılmasına başlanıldı və az bir zamanda Milli Hesablar Sisteminə keçid tam olaraq həyata keçirildi. Həmçinin digər statistika sahələri ilə yanaşı, tikinti statistikasına dair statistika hesabatları, onların tərtib edilməsinə dair təlimatlar, həmçinin metodoloji materiallar yenidən işlənmiş və beynəlxalq standartlara uyğun olaraq, praktikada tətbiq edilmişdir. Ümumilikdə tikinti statistikası sahəsi özündə ölkədə istifadəyə verilmiş mühüm əhəmiyyətli yeni müəssisələr və obyektlər, inşaat işlərinə yönəldilmiş ümumi investisiya, o cümlədən məhsul istehsalı və xidmət sahələri üzrə obyektlər, xarici və daxili mənbələrdən yönəldilmiş vəsaitlər, neft və qeyri-neft sektoruna yönəldilmiş investisiyalar və onların artım sürəti,

xarici ölkələr üzrə əsas kapitala yönəldilmiş investisiyaların, iri müəssisələr və kiçik sahibkarlar tərəfindən əsas kapitala yönəldilmiş investisiyaların həcmi, iqtisadiyyatın aparıcı sahələrinin inkişafına yönəldilmiş (sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə) investisiyaların həcmi, daxili və xarici investisiyaların iqtisadiyyatın sahələri üzrə və mülkiyyət növləri üzrə bölgüsü, ölkədə istifadəyə verilmiş yaşayış evləri, o cümlədən kənd və şəhər yerlərində istifadəyə verilmiş yaşayış evləri, ümumtəhsil məktəbləri, xəstəxanalar, poliklinikalar, məktəbəqədər təhsil müəssisələri, məktəblər, klublar və digər sosial-mədəni tikililər haqqında məlumatları əks etdirir. Tikinti sahəsinin statistik göstəricilər sistemi aylıq, rüblük və illik dövrləri əhatə edir. Qeyd etmək lazımdır ki, aylıq və rüblük statistik göstəricilər qısamüddətli dövrü xarakterizə edən məlumatlardır. Qısamüddətli göstəricilərin vacibliyi onların cari dövrdə baş verən iqtisadi prosesləri izləməyə imkan verməsidir. Bu iqtisadiyyatda baş verən hadisələrə çevik reaksiya verməyə şərait yaradır. İllik dövrdə isə cari il ərzindəki dəyişikliklər nəzərə alınaraq, dəqiq göstəricilər formalaşır və real sektorun vəziyyəti haqqında tam dolğun məlumatlar əldə edilir.

Davamlı iqtisadi inkişafla yanaşı, dayanıqlı iqtisadi inkişafın təmin edilməsi dünya iqtisadiyyatında əsas problemlərdən biridir və dayanıqlı iqtisadi inkişafın təmin edilməsinin fundamental problemlərindən biri iqtisadiyyatın mühüm sahələrinə daima yeni investisiya mənbələrindən investisiyaların cəlb edilməsidir. İnvestisiyaların cəlb edilməsi istiqamətində əsas işlər dedikdə ilk öncə ölkədə əlverişli investisiya mühitinin və siyasətinin formalaşdırılması başa düşülür. Bu məqsədlə ölkə rəhbərliyi tərəfindən investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılması, “İnvestisiya fəaliyyəti haqqında”, “Xarici investisiyaların qorunması haqqında” Azərbaycan Respublikasının qanunları və bir sıra normativ sənədlər imzalanmışdır. Ölkəyə investisiyaların cəlb edilməsinin əsas şərtlərindən biri də ölkənin siyasi vəziyyətinin sabit olmasıdır. İstənilən halda hər hansı sərmayədar ölkəyə investisiya qoymazdan əvvəl həmin ölkənin iqtisadi vəziyyəti ilə yanaşı, siyasi sabitliyini də mütləq nəzərə alır. Hər iki göstəricinin ölkəmiz üçün müsbət olması son 20 ildə ölkəyə sabit xarici investisiya axınlarını da şərtləndirmişdir. İnvestisiya qoyuluşları isə özlüyündə real investisiya mühitini yaratmışdır.

İqtisadiyyatın bütün sahələrinə diqqət yetirilsə, əsas kapitala yönəldilmiş investisiyaların daha çox hissəni əhatə etdiyini görmək olar. Əsas kapitala investisiyalar dedikdə bütün növ əsas fondların alınmasına, yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına yönəldilmiş kapital qoyuluşlarının məcmusu başa düşülür [6]. Əsas kapitala investisiyalar iqtisadiyyatın bugünkü real vəziyyətini xarakterizə etməklə yanaşı, həm də gələcək dövrün iqtisadiyyatının dayanıqlı olmasını təmin etməyə yönəldilmişdir. Ölkə üzrə əsas kapitala yönəldilmiş investisiyalar, əsasən, məhsul istehsalı obyektlərinin tikintisinə, xidmət sahələri üzrə obyektlərin və yaşayış evlərinin tikintisinə yönəldilir [1]. Son dövrlərə nəzər salsaq görərik ki, 2000-ci ildən 2015-ci ilədək məhsul istehsalı obyektlərinin tikintisinə yönəldilmiş investisiyalar xidmət sahələri və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalardan dəfələrlə çoxdur [1]. Bu isə öz növbəsində gələcək dövrlərdə ölkədə məhsul istehsalı sahəsinin daha da genişlənməsinə və ölkənin yerli məhsulla təminatına zəmin yaradır. İstehsal sahələrinin inkişafı isə öz növbəsində genişləndikcə yeni iş yerlərinin açılmasına və işsizlik probleminin aradan qaldırılmasına kömək göstərmiş olacaqdır.



Şəkil 1. Məhsul istehsalı obyektlərinin, xidmət sahələri üzrə obyektlərin və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar

Əsas kapitala yönəldilmiş investisiyaların son 15 ildə strukturuna nəzər salsaq, burada 3 əsas istiqamət üzrə investisiyaların üstünlük təşkil etdiyini görmək olar [1]. Bunlar tikinti quraşdırma işləri, maşın, avadanlıq, alət və inventarlar və digər əsaslı işlərin yerinə yetirilməsi üzrə əsas kapitala yönəldilmiş investisiyalardır.

**Cədvəl 1**

**Əsas kapitala yönədilmiş investisiyaların strukturu (ümumi yekuna görə, faizlə) [1]**

| | cəmi investisiyalar | tikinti-quraşdırma işləri | maşın, avadanlıq, alət və inventarlar | sair işlər |
|---|---|---|---|---|
| 2000 | 100,0 | 42,6 | 23,5 | 33,9 |
| 2001 | 100,0 | 33,0 | 15,9 | 51,1 |
| 2002 | 100,0 | 44,1 | 30,4 | 25,5 |
| 2003 | 100,0 | 44,6 | 31,7 | 23,7 |
| 2004 | 100,0 | 50,5 | 23,9 | 25,6 |
| 2005 | 100,0 | 53,9 | 23,4 | 22,7 |
| 2006 | 100,0 | 50,7 | 30,0 | 19,3 |
| 2007 | 100,0 | 51,6 | 27,1 | 21,3 |
| 2008 | 100,0 | 59,5 | 27,5 | 13,0 |
| 2009 | 100,0 | 67,1 | 19,1 | 13,8 |
| 2010 | 100,0 | 66,3 | 26,1 | 7,6 |
| 2011 | 100,0 | 61,2 | 18,6 | 20,2 |
| 2012 | 100,0 | 61,1 | 15,2 | 23,7 |
| 2013 | 100,0 | 66,3 | 12,5 | 21,2 |
| 2014 | 100,0 | 75,4 | 11,7 | 12,9 |
| 2015 | 100,0 | 73,5 | 12,4 | 14,1 |

Cədvəldən aydın görünür ki, əsas kapitala yönədilmiş investisiyaların strukturunda əksər illərdə tikinti-quraşdırma işlərinə yönəldilmiş investisiyaların xüsusi çəkisi daha çoxdur. Bunun da əsas səbəbi tikinti-quraşdırma işlərinin daha çox kapitaltutumlu olmasıdır. **Tikinti-quraşdırma işlərinə** daimi və müvəqqəti inşa edilən binaların və qurğuların tikintisi, həmçinin tamamlama və abadlıq işlərinin yerinə yetirilməsi nəticəsində obyektin inşası və ya təmiri, yenidən qurulması, bərpası, eləcə də avadanlıqların quraşdırılması aid edilir, **maşın, avadanlıq, alət və inventarlar üzrə** investisiyalara isə müəssisələrin yenidən qurulması, genişləndirilməsi, onların texniki təchizat vasitələrinin yeniləşdirilməsi, mövcud istehsal güclərinin saxlanması üzrə xərclər daxildir [6].

Əsas kapitala yönəldilmiş investisiyaların maliyyələşdirmə mənbələri müəssisə və təşkilatların öz vəsaitləri (xarici müəssisə və təşkilatlarda daxil olmaqla), büdcə vəsaitləri (dövlət büdcəsi və ya yerli büdcələr), əhalinin şəxsi vəsaitləri, bank kreditləri, büdcədənkənar fondlar və

digər vəsaitlər hesabına formalaşır. Azərbaycan Respublikasının investisiya siyasətinin mahiyyətinə diqqət yetirsək görərik ki, burada əsas hədəflər dövlət investisiyalarının məhdudlaşdırılması və özəl investisiyaların genişləndirilməsi, həmçinin xarici investisiyaların cəlb edilməsidir. Bütün bunların nəticəsidir ki, son dövrlərdə əsas kapitala yönəldilmiş investisiyaların strukturunda müəssisə və təşkilatlar tərəfindən qoyulan investisiyaların xüsusi çəkisi büdcədən qoyulan investisiyaların xüsusi çəkisindən çoxdur. 2015-ci ildə maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların strukturu göstərir ki, müəssisə və təşkilatların öz vəsaitləri (xarici müəssisə və təşkilatlar da daxil olmaqla) 10180,6 milyon manat (63,8 faiz), büdcə vəsaitləri isə 3133,1 milyon manat (19,6 faiz) olmuşdur [3]. Müəssisə və təşkilatların investisiyalarının çox hissəsini istehsal və xidmət sahələrinə yönəltməsi dövlətə imkan verir ki, öz vəsaitlərini daha çox sosial sahələrin inkişafına yönəltsin. Xarici investisiya qoyuluşlarında da müsbət artım dinamikası müşahidə edilir. Məlumatlara nəzər salsaq görərik ki, 2015-ci ildə xarici investisiyalar 6898,5 milyon manat, 2000-ci ildə isə 507,5 milyon manat olmuşdur [3]. Bu isə özlüyündə 15 ildə xarici investisiyaların 12,6 dəfə artdığını göstərir. Bu rəqəmlər investisiya sahəsində gedən müsbət dəyişikliklərdən xəbər verir. Gələcək dövrlərdə qeyri-dövlət sahəsinin pay nisbətinin daha da artacağı gözlənilir. Bu ondan irəli gəlir ki, Azərbaycanda gedən siyasi-iqtisadi proseslər yerli və xarici investorları ölkəmizə investisiya qoyuluşlarına maraqlı edir. Burada dövlət dəstəyini də unutmaq olmaz.

Əsas kapitala investisiya qoyuluşlarının sonrakı mərhələdə prioritet istiqaməti əsas fondların istifadəyə verilməsidir ki, bu da investisiyaların son mərhələdəki yekununu əks etdirir. Belə ki, əsas fondun istifadəyə verilməsi investisiyanın reallaşmasına gətirib çıxarır ki, bu da məhsul istehsalının və xidmətlərin real həcminin artmasına zəmin yaradır.

**Cədvəl 2**

**İqtisadiyyatın sahələri üzrə istifadəyə verilmiş əsas fondların sahələr üzrə strukturu, faizlə [1]**

| | **2012** | **2013** | **2014** | **2015** |
|---|---|---|---|---|
| Əsas fondlar istifadəyə verilmişdir, cəmi | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2,3 | 1,6 | 2,3 | 9,7 |
| Sənaye | 42,8 | 44,9 | 31,7 | 23,9 |
| Tikinti | 14,4 | 13,9 | 19,6 | 17,2 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 5,0 | 4,6 | 6,5 | 2,5 |
| Nəqliyyat və anbar təsərrüfatı | 10,0 | 8,1 | 15,0 | 9,4 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 0,6 | 1,6 | 1,5 | 3,8 |
| İnformasiya və rabitə | 2,9 | 3,5 | 1,7 | 3,0 |
| Maliyyə və sığorta fəaliyyəti | 0,8 | 0,1 | 0,2 | 0,0 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 0,2 | 0,2 | 0,1 | - |
| Peşə, elmi və texniki fəaliyyət | 0,1 | 0,1 | 0,3 | 0,0 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 3,0 | 2,3 | 2,9 | 1,2 |
| Dövlət idarəetməsi və müdafiə;sosial təminat | 4,3 | 6,6 | 8,0 | 2,3 |
| Təhsil | 6,4 | 5,3 | 2,9 | 2,8 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2,5 | 3,5 | 1,8 | 1,9 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 4,7 | 3,5 | 5,2 | 22,1 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 0,0 | 0,2 | 0,3 | 0,2 |

Cədvəldən göründüyü kimi, iqtisadiyyatın sənaye sahəsində əsas fondların istifadəyə verilməsinin xüsusi çəkisi digər sahələrə nisbətən daha çoxdur. Bunun da başlıca səbəbi əsas kapitala yönəldilmiş investisiyaların daha çox hissəsinin sənayedə məhsul istehsalı sahəsinə yönəldilməsidir.

Tikinti sahəsinin strukturunda son 10 ildə əsas dəyişiklik özəl sahənin inkişafı ilə əlaqədar olmuşdur. 90-cı illərin əvvəlinə baxdıqda əsas tikinti göstəriciləri yalnız dövlət mülkiyyətini səciyyələndirirdi. Hazırda isə özəl sektor pay bölgüsündə tikinti sahəsinin aparıcı bölməsinə çevrilmişdir. Belə ki, 1995-ci ildə ölkə üzrə yerinə yetirilmiş tikinti işlərinin həcmində dövlət mülkiyyətinə məxsus müəssisələrin xüsusi çəkisi 84,9 faiz, qeyri-dövlət mülkiyyətinə məxsus müəssisələrin xüsusi çəkisi 15,1 faiz, 2015-ci ildə isə bu göstəricilər müvafiq olaraq, 16,0 faiz və 84,0 faiz olmuşdur [3]. Eyni zamanda qeyd etmək lazımdır ki, dövlət tərəfindən tikinti sahəsi ilə yanaşı, bütün sahələrin kompleks inkişafı və dövlət ehtiyacı üçün mühüm sahələrin inkişaf səviyyəsinin artırılması məqsədilə özəl sahəyə dövlət dəstəyi göstərilir. Rentabelliyi olmayan sahələrə özəl sektorun marağı olsun deyə, dövlət tərəfindən davamlı güzəştlər tətbiq olunur. Bu isə həmin sahələrin inkişafına imkan yaradır.

Tikinti sahələrinə qoyulan investisiyaların ilbəil artması bu sahənin inkişafına səbəb olmuşdur. Son 5 ildə tikinti sahəsində fəaliyyət göstərən müəssisələrin makroiqtisadi göstəricilərinə nəzər yetirsək, əksər illər üzrə artım dinamikasını müşahidə etmək olar.

**Cədvəl 3**

**Tikinti müəssisələri üzrə makroiqtisadi göstəricilər [1]**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Əlavə dəyər, cari qiymətlərlə, milyon manat | 4 141,0 | 5 507,9 | 6 753,7 | 7454,4 | 6599,5 |
| Ümumi mənfəət, zərər (-), cari qiymətlərlə, milyon manat | 305,1 | 129,7 | 291,3 | 308,9 | 556,3 |
| İşçilərin ortaillik sayı, min nəfər | 78,6 | 95,4 | 101,4 | 101,9 | 98,1 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 519,6 | 587,5 | 625,5 | 626,9 | 677,7 |
| Əsas fondların dəyəri (ilin axırına), milyon manat | 2 564,0 | 2 676,8 | 3 172,2 | 3 371,9 | 3 400,4 |
| Tikinti işlərinin dəyəri, milyon manat | 6 115,0 | 7 716,0 | 8 721,2 | 8 591,9 | 7 319,6 |

Tikinti sahəsi üzrə əsas iqtisadi göstəricilərdən danışarkən əsaslı tikinti işlərinə də nəzər salmaq lazımdır. Burada istehsal təyinatlı istifadəyə verilmiş və ya istifadəyə veriləcək müəssisələrin tikintisi və onların istehsal gücü haqqında məlumatlar əks etdirilmişdir. Ölkədə tikinti və yenidənqurma işləri son 15 ildə daha da sürətlənmiş və iqtisadiyyatın bütün sahələrini əhatə etmişdir. Xüsusəndə 90-cı illərin əvvəllərində ölkə rəhbərliyi tərəfindən imzalanan beynəlxalq sazişlər sözün həqiqi mənasında ölkə iqtisadiyyatına öz müsbət təsirini göstərmişdir. Belə ki, karbohidrogen ehtiyatlarının hasil edilməsi üçün ilkin olaraq ölkəyə qoyulan xarici investisiyalar, sonrakı mərhələdə hasilatdan sonra onun pay bölgüsündən ölkəyə gələn vəsait neft büdcəsinin gəlir hissəsindən dəfələrlə artıq idi. Bu isə büdcənin gəlirləri hesabına iqtisadiyyatın digər sahələri ilə yanaşı, ölkənin tikinti sahəsində də yenidənqurma işlərinin aparılması üçün dövlətə şərait yaratdı. Ölkə ərazisində məhsul və xidmət sahələri üçün mühüm əhəmiyyətli yeni obyektlər tikilib istifadəyə verilmiş, fəaliyyət göstərənlər genişləndirilmiş və yenidən qurulmuşdur. Son iki ilə 2014-2015-ci illərə nəzər salsaq görərik ki, Bakı şəhərində "Norm" sement zavodu, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yeni Gəmi İnşası zavodu, Asfalt zavodu, Suraxanı Günəş Elektrik Stansiyası, 110 kilovoltluq "Ağ şəhər-1", "Həzi Aslanov", "Kürdəxanı", "Buzovna-2" və 35 kilovoltluq 11 elektrik yarımstansiyası, Bakı Olimpiya Stadionu, Su İdmanı Sarayı, Atıcılıq Mərkəzi, Velopark, Avropa Oyunları Parkı, Atletlər və Media kəndləri, Bakı Konqres Mərkəzi, "Qafqaz Baku Sport Hotel", "Bulvar Hotel" mehmanxana kompleksləri, "Dalga Beach-Aqua Park" ailəvi istirahət mərkəzi, Sabunçu Məhkəmə Kompleksinin yeni binası, Zirə Mədəniyyət Mərkəzi, Beynəlxalq Avtovağzal ərazisindən Bakı dairəvi yolunu birləşdirən körpü və Stend Atıcılığı Kompleksinə gedən yol, Naxçıvan Muxtar Respublikasında "Arpaçay- 2" Su Elektrik Stansiyası, Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, Sənaye Kompleksi, Günəş Elektrik Stansiyası, Gəncə şəhərində Metaltökmə və Fasiləsiz Yayma zavodu, Təzyiqlə Emal və Boyama zavodu, Sumqayıt şəhərində Beton məmulatı və Texniki avadanlıqlar zavodları, Etilen-polietilen zavodunda yeni

qurğular, “Alyans Tekstil” tikiş Fabriki, Naftalan şəhərində “Qarabağ SPA and Resort” Hotel Kompleksi, Abşeron rayonunda Şahmat və Musiqi məktəbləri, Stadion, Xırdalan Metal Konstruksiyalar zavodu, 35 kilovoltluq “Sarıqaya”, “Fatmayı”, “Məhəmmədi” elektrik yarımstansiyaları, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi və Qolf klubu, Ağdaş rayonunda Yem zavodu və Meyvə emalı Zavodu, “Ağdaş” Elektrik yarımstansiyası, Beyləqan rayonunda Şahmat məktəbi, Daşkəsən rayonunda Avtovağzal Kompleksi, Füzuli rayonunda Tikiş fabriki, Göygöl rayonunda Olimpiya İdman Kompleksi, İsmayıllı rayonunda Çörək istehsalı zavodu, Qəbələ rayonunda “Tufan” Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi, “Qafqaz Yengicə Termal Hotel və SPA” Hotel Kompleksi, Lənkəran rayonunda Çörək istehsalı zavodu, Ağsu rayonunda İdman Kompleksi, Göyçay rayonunda “Göyçay” Su Elektrik Stansiyası, Qusar rayonunda “Park Chalet Shahdag” Hoteli, Şabran rayonunda “Qalaaltı Hotel and SPA” Müalicə-İstirahət Kompleksi, Şəki şəhərində Məhkəmə Kompleksinin yeni binası, Zaqatala rayonunda Azərbaycan Dövlət İqtisad Universitetinin yeni filialı, ölkənin müxtəlif bölgələrində 161,0 km avtomobil yolları, 451,0 paqon metr körpülər, 55,9 min nömrəlik avtomat telefon stansiyaları, 352,8 kilometr uzunluğunda Fiberoptik magistral kabel xətti və digər obyektlər istifadəyə verilmişdir. Burada əsas məqamlardan biri də məhsul və xidmət sahələri üçün mühüm əhəmiyyətli yeni obyektlərin tikilib istifadəyə verilməsi və mövcud olanların yenidən qurulması təkcə iri şəhərlərdə deyil, ümumilikdə bütün regionlarda aparılmasıdır. İllərlə davam edən iqtisadi və sosial layihələrin nəticəsidir ki, bu gün ölkəmiz dünyanın qabaqcıl ölkələri ilə eyni sıralarda durur.

Əsas tikinti işləri iqtisadiyyatın müxtəlif sahələri ilə yanaşı, mənzil tikintisi və sosial sahəyə də yönəldilmişdir. Əsasən sosial obyektlərin tikintisinə diqqət artırılmışdır. Son 15 ildə ümumi sahəsi 24,96 milyon kvadrat metr olan 173,4 min yeni mənzil tikilib istifadəyə verilmiş, ölkədə 8097 çarpayılıq 112 xəstəxana, növbədə 8939 xəstəni qəbul edən 159 poliklinika, 527,3 min şagird yerlik 1435 ümumtəhsil məktəbi, 17644 yerlik 177 məktəbəqədər təhsil müəssisələri, 6200 yerlik 35 klub və digər sosial-mədəni obyektlər tikilib istifadəyə verilmişdir [3]. Sosial sahədə tikililərin bir çoxu dövlətin sifarişi ilə həyata keçirilmişdir. Bunun da əsas səbəbi iqtisadi inkişafla yanaşı, sosial sahənin də davamlı inkişafını təmin etmək olmuşdur. İqtisadi sahənin inkişafı olmadan biz sosial sahənin inkişafından söz aça bilmərik.

Tikinti sahəsi iqtisadiyyatın elə sahəsidir ki, özlüyündə onun artımı bir neçə aparıcı sahənin inkişafına zəmin yaradır. Tikinti sahəsinin inkişafı iqtisadiyyatın təməl prinsiplərindən olan ilkin real infrastrukturun qurulmasına şərait yaradır. Bu isə öz növbəsində tikinti sahəsinə investisiyaların artmasına səbəb olur. İnvestisiyaların əsas hissəsinin tikinti sahəsinə qoyulması, ölkədə bu sahədə lazım olan xammal bazasının inkişaf etməsinə gətirib çıxarmışdır. Artıq tikinti sahəsinə lazım olan xammal və materialların çox hissəsi ölkə müəssisələrində istehsal olunur. Belə ki, son illərdə sənaye sahəsində tikintiyə xammal verən müəssisələrin sayı və dövriyyələri milyonlarla manatla ölçülür. Bu isə investorlarda kefiyyətli və ucuz yerli xammaldan istifadə edilməsinə maraq yaradır.

**Cədvəl 4**

**Tikinti sahəsi üzrə əsas məhsul növlərinin natura ifadəsində istehsalı [2]**

| **Məhsulların adı** | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|
| Sement, min ton | 1286 | 1279 | 1425 | 1966 | 2296 | 2941 | 2683 |
| Hörmə üçün hazır beton qarışığı, min ton | 1256 | 953,7 | 1122 | 896,3 | 1204 | 1692 | 942,1 |
| Sementdən yığma tikinti konstruksiyaları, min kub m. | 19 | 50,9 | 49 | 47,3 | 28,3 | 36 | 27,3 |
| Tikinti kərpici, min kub m. | 258,7 | 272,1 | 240,3 | 213,2 | 450 | 426,1 | 280,6 |
| Tikinti gipsi, min ton | 45,6 | 49,2 | 100,8 | 150,5 | 249,8 | 222,7 | 196,5 |
| Sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpicləri, min ton | 96,9 | 122,8 | 113,3 | 132,5 | 145,8 | 143,8 | 177,6 |

Cədvəldən göründüyü kimi, tikinti materiallarının istehsalı sahəsində sement istehsalı xüsusi yer tutur. Bunu nəzərə alaraq, ölkədə böyük sement istehsalı sənayesinin yaradılmasına dövlət tərəfindən xüsusi əhəmiyyət verilmişdir. Hazırda ölkədə fəaliyyət göstərən müasir texnologiyalarla təchiz olunmuş Norm Sement zavodu, Holcim Sement zavodlarının illik istehsal gücləri 5 milyon tona bərabərdir. Ümumiyyətlə son 5 il ərzində sənayenin tikinti materialı istehsalı sahəsində natura ifadəsində məhsul buraxılışı 2 dəfədən çox artmışdır. Bu isə iqtisadiyyatın digər sahələrinin inkişafına da zəmin yaradır. Tikinti sahəsinin inkişafının digər bir hissəsi isə əsaslı tikinti işləri ilə yanaşı əsaslı təmir işləridir. Bu sahənin inkişafı sosial infrastrukturun yenidən qurulmasına kömək etmiş olacaqdır. Əsaslı təmir işlərinin üstün cəhəti ondan ibarətdir ki, az maliyyə vəsaiti hesabına yenidən sosial infrastruktur binalarını yaratmağa kömək edəcəkdir.

Tikinti statistikası sahəsində əsas göstəricilər sırasında iqtisadiyyatın aparıcı sahələrində (sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə) əsas kapitala yönəldilmiş investisiyaların həcmidir. İnvestisiya qoyuluşlarına nəzər salsaq görərik ki, neft sənayesinə qoyulan vəsaitlər üstünlük təşkil edir. Lakin dünyada son maliyyə böhranlarından sonra qərar verilmişdir ki, ölkəmizin karbohidrogen ehtiyatlarından asılılığı azaldılsın və qeyri-neft sahəsinin inkişafına maksimum zəmin yaradılsın. Azərbaycan dövlətinin müəyyən etdiyi inkişaf strategiyasında prinsipial məqamlardan biri də ondan ibarətdir ki, neft məqsəd yox, vasitədir, Azərbaycan iqtisadiyyatının gələcəyini təkcə neftlə bağlamaq olmaz. Odur ki, qeyri-neft sektorunun daha sürətli inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. 2015-ci ildə əsas kapitala 15957,0 milyon manat yönəldilmiş investisiya qoyuluşunun 8819,9 milyon manatı qeyri-neft sahəsinə yönəldilmişdir [2]. Gələcək dövrlərdə də bu göstəricinin neft sektoruna nisbətən pay hissəsinin artması üçün artıq bu gün dövlət tərəfindən tədbirlər paketinin həyata keçirilməsi istiqamətində təxirəsalınmaz addımlar atılır. Əsas addımlardan biri də Kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsidir.

Kənd təsərrüfatı sahəsinin inkişafı 2014-cü ildən sonra daha da aktuallaşıb. Bu aktuallaşma onunla bağlıdır ki, artıq post-neft dövrüdür və aqrar sənayenin inkişafı vacib məsələlərdən biridir. Bununla bağlı daxili tələbatı ödəmək və idxalı aradan qaldırmağa ehtiyac yaranmışdır, çünki uzun müddət Azərbaycan aqrar məhsulların əhəmiyyətli hissəsini xaricdən idxal edirdi ki, bunun nəticəsində də valyuta ölkədən kənara gedirdi. İdxaldan asılılığın azaldılması və kənd təsərrüfatı məhsullarına olan tələbin daxildə yerli istehsalın hesabına ödənməsi aqrar sektoru daha cəlbedici edir. Artıq bu sahəyə investisiya qoyuluşları daima artmaqdadır. Belə ki, 2015-ci ildə iqtisadiyyata qoyulmuş investisiyalardan 2,2 faizi kənd təsərrüfatı sahəsinə qoyulmuşdur. 2004-cü ildə bu göstərici kənd təsərrüfatında 0,7 faiz olmuşdur [1]. Bunu nəzərə alaraq, gələcək layihələrdə bu sahənin önə çəkilməsi prioritet istiqamət olaraq qalmalıdır. Nəzərə alsaq ki, ölkəmizin coğrafi iqlim şəraiti və münbit torpaqları bu sahənin inkişafına birbaşa zəmin yaradır, o zaman ilkin proqnoz olaraq, bu sahənin inkişafının nəticələrinin yetəri qədər qənaətbəxş olacağını aydın görmək mümkündür. Qeyri-neft sahəsinə qoyulmuş investisiyalar özlüyündə bu sahənin inkişafı ilə yanaşı, iqtisadiyyatı balanslaşdırmış olacaqdır. İqtisadi fəaliyyət sahələrinin balanslaşması isə artıq ölkəmiz üçün yeni inkişaf istiqamətini müəyyənləşdirməyə bizə yaxından kömək olacaqdır. Bu isə öz növbəsində qlobal dünya böhranının ölkənin iqtisadiyyatına təsirinin qarşısının alınması yollarından biridir.

Hazırda iqtisadiyyata yönəldilən investisiya axınlarının köməyi ilə daimi iş yerlərinin yaradılması və dövlət dəstəyinin göstərilməsi, həmçinin sərmayədarların ehtiyacını ödəyəcək qədər xammal və materialların ölkə ərazisində istehsalına başlanılması əsas vəzifələrdəndir. Yüksəkixtisaslı kadrların yetişdirilməsi də daima diqqət mərkəzində olan vacib şərtlərdən biridir. Belə ki, yüksəkixtisaslı kadrların yetişdirilməsi insan kapitalıdır və digər müsbət cəhət ondan ibarətdir ki, dəfələrlə ucuz maliyyə vəsaitinə başa gələcəkdir. İstər yeni məhsulun istehsalı, istərsə də ixtisaslı kadrların yetişdirilməsi özlüyündə ölkəyə daxil olmuş investisiyaların kənara axmasının qarşısını almış olacaqdır. Ölkə iqtisadiyyatının investisiyatutumlu sahələrində müntəzəm monitorinqlərin aparılması da vacib şərtlərdəndir. Belə ki, həmin monitorinqləri keçirmək, alınmış nəticələri təhlil etmək statistika orqanlarının üzərinə düşür. Mövcud vəziyyətin real qiymətləndirilməsi iqtisadi proqram və proqnozların həyata keçirilməsində mühüm rol oynayır.

Real qiymətləndirilmədə inkişafa ehtiyacı olan sahələrin inkişaf etdirilməsi əsas cəhətlərdən olmalıdır.

**Nəticə**

Son 15 ildə tikinti sahəsində iqtisadi göstəricilərin yaxşılaşdırılması aparılan düzgün iqtisadi islahatlar nəticəsində baş vermişdir və burada əsaslı kapitala yönəldilmiş investisiyaların rolu böyük olmuşdur. Bu illərdə əsas kapitala investisiya qoyuluşları dövlətlə yanaşı, özəl sektorun da marağına səbəb olmuşdur. Tikinti sahəsinə investisiya qoyuluşları, əsasən, məhsul istehsalı sahəsinə qoyulmaqla gələcək dövrlər üçün iqtisadi mühiti daha da dayanıqlı etməyə istiqamətlənmişdir. Əsas istehsal sahələrinə qoyulmuş investisiyalar isə gələcək dövrlərdə ÜDM-in artmasına gətirib çıxardacaqdır. Bununla bağlı dövlət dəstəyinin olması isə gələcək dövrlər üçün bu sahənin daha da inkişafına zəmin yaradacaqdır.

**Anar Əliyev**

**Tikinti statistikası sahəsində əsas iqtisadi göstəricilər və onların təhlili**

**Xülasə**

Məqalədə Azərbaycan Respublikasında tikinti sahəsinin inkişafını xarakterizə edən göstəricilər, həmçinin əsas kapitala yönəldilmiş ümumi investisiyanın, o cümlədən məhsul istehsalı və xidmət sahələri üzrə obyektlərin, neft və qeyri-neft sektoruna yönəldilmiş investisiyalar, iqtisadiyyatın aparıcı sahələrinin (sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə) inkişafına yönəldilmiş investisiyalar, habelə ölkədə istifadəyə verilmiş yaşayış evləri, ümumtəhsil məktəbləri, xəstəxanalar, məktəbəqədər təhsil müəssisələri, klublar və digər sosial-mədəni tikililər haqqında məlumatlar təhlil edilmişdir.

**Анар Алиев**

**Основные экономические показатели в области статистики строительства и их анализ**

**Резюме**

В этой статье проанализирована информация по показателям развития строительного сектора в Азербайджанской Республике, об общем объеме инвестиций, направленных в основной капитал, в том числе производственных объектов и объектов сферы услуг, нефтяного и ненефтяного секторов, ведущих секторов экономики (промышленности, сельского хозяйства, транспорта, связи), а также по сданным в эксплуатацию жилым домам, средним школам, больницам, дошкольным учебным заведениям, клубам и другим социально-культурным сооружениям в стране.

**Anar Aliyev**

**Main economic indicators of construction statistics and analysis**

**Summary**

This article analyzed information about indicators characterizing development of construction area in the Republic of Azerbaijan as well as total investments directed to fixed assets, including product output and objects of service areas, investments directed to oil and non-oil sector, investments directed to development of keyareas of economy (industry, agriculture, transport, communication) as well as dwellings submitted into use in the country, general educational schools, hospitals, preschool educational schools, clubs and other social-cultural buildings.

**Ədəbiyyat**

1. "Azərbaycanda tikinti", Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, 2016.
2. "Azərbaycanın sənayesi", Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, 2015.
3. http://www.stat.gov.az/MESearch/search?departament=4&lang=az
4. "İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi" S.Z.İsayev, Bakı, 2011.
5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin veb-saytı http://www.stat.gov.az.
6. "Obyektlərin, əsas fondların istifadəyə verilməsi və əsas kapitala yönəldilmiş investisiyalar haqqında" 2-investisiya №-li aylıq rəsmi statistika hesabatı formalarının doldurulmasına dair təlimat.

# ZİYARƏTÇİ AXINLARININ STATİSTİK ÖYRƏNİLMƏSİ

***Rauf Əliyev***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Xidmət statistikası şöbəsi müdirinin müavini*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: raufa@azstat.org*

**Açar sözlər:** səyahət, ziyarətçi, turist, birgünlük ziyarətçilər, səfərin əsas məqsədi, adi yaşayış mühiti, daxili turizm, gəlmə turizm, getmə turizm, turizm xərcləri.
**Ключевые слова:** путешествие, посетитель, турист, однодневные посетители, основная цель путешествия, обычная среда, внутренний туризм, въездной туризм, выездной туризм, расходы на туризм.
**Keywords**: travel, visitor, tourist, same-day visitors, main purpose of a trip, usual environment, domestic tourism, inbound tourism, outbound tourism, tourism expenditure.

Turizm insanların öz daimi yaşayış yerlərini müvəqqəti tərk edərək digər yerlərə hərəkətləri ilə əlaqədar sosial, mədəni və iqtisadi hadisələri özündə əks etdirir, iqtisadiyyata, təbiətə, antropogen mühitə və səfər edilən məkanın yerli əhalisinə, həmçinin səfər edənlərin özlərinə əsaslı təsir göstərir. Bu cür zəncirvari-təsiredici amillər, həmçinin ölkələr arasında iqtisadi-mədəni əlaqələrin genişlənməsi, gediş-gəliş prosedurlarının yüngülləşdirilməsi (bəzən bu sahədə inzibati nəzarətin götürülməsi) turizmə geniş formada yanaşmanı tələb edir və turizmin inkişafına, idarə edilməsinə və nəzarətinə zərurət yaradır.

Bu sahədə statistik müşahidələr aparmadan turizm sektorunun mövcud vəziyyəti, turizm infrastrukturu, turizmin iqtisadiyyatda xüsusi çəkisi və s. barədə məlumatların əldə edilməsi qeyri-mümkündür. Digər sahələrdən fərqli olaraq, turizmin statistik müşahidəsi zamanı müəyyən çətinliklər meydana çıxır ki, bu da hər şeydən əvvəl turizm məhsulunun müxtəlif növ fəaliyyət sahələrində formalaşması ilə əlaqədardır. BMT-nin Statistika şöbəsi və Ümumdünya Turizm Təşkilatının müəyyənləşdirdiyinə görə turizm sənayesinə turistlər üçün mal və xidmətlərin yaradılması istiqamətində istehsal və qeyri-istehsal formada fəaliyyətlərin məcmusu daxildir [1].

Turizmə dair statistik göstəricilərin beynəlxalq statistika sistemi ilə müqayisəliliyinin və uyğunluğunun təmin edilməsi üçün ilk növbədə təsnifatların və təriflərin eyniliyini təmin etmək lazımdır. Bunun üçün aşağıda qeyd olunan məsələlərə diqqətli yanaşma tələb olunur [1]:

- “turizm” anlayışına “səyahət” anlayışının alt kateqoriyası kimi baxılması;
- turist səfərləri və turistlər (ziyarətçilər) anlayışlarının konseptual əsaslarının müəyyənləşdirilməsi;
- turizm növlərinin müəyyənləşdirilməsi;
- “adi yaşayış mühiti” anlayışının müəyyənləşdirilməsi;
- turist axınlarının əlverişli ölçülməsi üsulları üzrə tövsiyələrin verilməsi.

Səyahət - səyahətə çıxan şəxslərin səyahət zamanı fəaliyyətlərinin məcmusu deməkdir. Səyahətə çıxmış şəxs hər hansı bir məqsədlə və hər hansı bir müddətə müxtəlif coğrafi məkanlar arasında hərəkət edən şəxsdir. Ölkədə daimi yaşayanların öz ölkə əraziləri daxilində səyahətləri daxili səyahətlər, ölkəyə daimi yaşamayanlar tərəfindən edilən səyahətlər gəlmə səyahətlər, ölkədə daimi yaşayanlar tərəfindən ölkə xaricinə (digər ölkəyə) edilmiş səyahətlər getmə səyahətlər adlandırılır. Daxili, getmə və gəlmə səyahətləri həyata keçirən səyahətçilər müvafiq olaraq, daxili, getmə və gəlmə səyahətçilər adlandırılır.

Səfər dedikdə hər hansı bir şəxs tərəfindən daimi yaşayış yerini tərk etdiyi andan geri qayıdanadək etdiyi səyahət başa düşülür. Səfər müxtəlif yerlərə baş çəkilməsidir. Gəlmə səfərlər hər hansı bir ölkəyə gəlmə və onun tərk edilməsi səyahətlərinə uyğun gəlirsə, daxili və getmə səfərlər daimi yaşayış yerini tərketmə və geriqayıtma səyahətlərini əhatə edir. Daxili turizmdə əsas təyinat məntəqəsi səyahətçilərin daimi yaşadığı ölkədədirsə, getmə turizmdə əsas təyinat nöqtəsi ölkədən kənarda hesab olunur.

Ziyarətçi öz daimi yaşayış yerindən kənara bir ildən çox olmamaq şərti ilə hər hansı bir məqsədlə (səfər etdiyi ölkənin rezidentləri tərəfindən muzdlu işə cəlb olunmamaq şərti ilə) səfər edən səyahətçidir. Ziyarətçilər tərəfindən həyata keçirilən bu cür səfərlər turizm səfərləri adlanır.

Yaşayış yeri konsepsiyası turistləri gəldikləri ölkələr üzrə təsnifatlaşdırmağa və təyinat məntəqəsini xarakterizə etməyə imkan verir ki, bu da turizmin müxtəlif növlərini fərqləndirmək imkanı yaradır. Ev təsərrüfatlarının daimi yaşadığı ölkə termini tədiyə balansı və Milli Hesablar Sistemində olduğu kimi müəyyənləşdirilir. Bu sistemlərdə nəzərdən keçirilən xüsusi hallar və istisnalar turizm statistikasında da tətbiq edilir. Bunun nəticəsində müxtəlif məlumat mənbələrindən alınmış məlumatların mübadiləsi həyata keçirilir və onların müqayisəsi aparılır. Eyni zamanda beynəlxalq səyahətçi axınları və onların xərcləri kimi bir-biri ilə bağlı olan mövzular üzrə də əlaqələndirilmiş işlər aparmaq olar.

Milli səviyyədə daxili turizmin öyrənilməsi və təhlil edilməsi baxımından tədqiq edilən ölkənin rezidentlərinin təsnifatı ev təsərrüfatlarının müayinəsində olduğu kimi onların yaşayış yerinə müvafiq olaraq aparılmalıdır. Ev təsərrüfatı üzvlərinin daimi yaşayış yerini və müvafiq olaraq, hazırda yaşadıqları mənzili müəyyənləşdirmək heç də asan iş deyildir. Belə ki, bəzən bir çox ev təsərrüfatları üzvləri uzun müddət eyni bir yerdə yaşamırlar.

Hər hansı bir fərdin *adi yaşayış mühiti* anlayışı turizm sahəsinin əsas anlayışlarından biri olub, fərdin gündəlik həyat tərzini sürdüyü coğrafi region (rayon) başa düşülür. Bu xarakteristika yalnız fərdə aid olub, Milli Hesablar Sistemində və tədiyə balansında istifadə olunan daimi yaşadığı ölkə və ev təsərrüfatları statistikasında istifadə edilən daimi yaşadığı yer anlayışlarını tamamlayır. Fərdin adi yaşayış mühiti anlayışının daxil edilməsinin əsas məqsədi səyahətçilərin ümumi sayından öz daimi yaşayış yerindən mütəmadi olaraq işə, təhsil müəssisələrinə, yaxud gündəlik həyat tərzinin bir hissəsi olaraq, gedilən yerlərə (məsələn, dostların və qohumların evinə, ticarət mərkəzlərinə, dini, tibbi və digər müəssisələrə) baş çəkən ziyarətçilər kateqoriyasını fərqləndirməkdir. Bu müəssisələrin onların daimi yaşadığı evdən kifayət qədər uzaqlıqda və ya digər inzibati ərazi vahidində yerləşməsinə baxmayaraq, tez-tez və müntəzəm olaraq ziyarət edilir. Bağ evi ev təsərrüfatının üzvləri tərəfindən istirahət və məzuniyyətin keçirilməsi üçün nəzərdə tutulur. İkinci adi yaşayış mühitinə çevrilməməsi üçün bağ evinə edilən səfərlər müntəzəm xarakter daşımamalıdır və orada keçirilən vaxt əsas yaşayış yerində keçirilən vaxtdan çox olmamalıdır. Bağ evlərinə səfərlər, adətən, turizm səfərləridir. Bu cür səfərlərin miqyasının artdığı ölkələrin sayının çoxalması xərclərin və fəaliyyətin spesifik xüsusiyyətləri nəzərə alınmaqla turizm statistikasında bu səfərlər təhlil və müqayisəlilik məqsədləri baxımından ayrıca hesablanır.

Müəyyən edilmiş meyarların tətbiq edilməsi nəticəsində ziyarətçilərə aşağıda göstərilmiş şəxsləri aid etmək olmaz:

- dövlət (və ya inzibati) sərhədlərini daimi yaşamadıqları ölkədə (inzibati ərazidə) işləmək üçün mütəmadi olaraq keçən şəxslər (sərhədyanı işçilər);
- daimi yaşamadıqları ölkədə qısamüddətli əmək müqaviləsi əsasında işləməyə gələnlər (bura kənd təsərrüfatında, tikintidə çalışan mövsümi işçilər, mehmanxana, restoran biznesində və digər xidmət sahələrində çalışan işçilər, eləcə də digər işçilər aiddir). Bu zaman bir halı da nəzərə almaq lazımdır ki, bu səyahətçilər daimi yaşamadıqları ölkənin rezident müəssisəsi ilə əmək münasibətlərinə cəlb edilmiş olmalıdırlar.

Digər tərəfdən ziyarətçilərin tərkibinə adi yaşayış mühiti xaricində işgüzar məqsəd və biznesin təşkili ilə əlaqədar olaraq, dövlət və ya inzibati sərdhədləri keçən aşağıdakı səyahətçiləri əlavə etmək lazımdır:

- qeyri-rezident müəssisələrin (gedilən ölkənin və ya regionun), eləcə də fərdi sahibkarların avadanlığın quraşdırılması, təmiri və bu sahədə müəyyən məsləhətlərin verilməsi kimi işləri yerinə yetirmək üçün qısa müddətə (bir ildən az) gəlmiş muzdlu işçiləri (əgər bu zaman rezident müəssisə ilə güman edilən muzdlu əmək münasibətləri mövcud deyilsə).
- səfər edilən ölkənin və ya regionun rezident müəssisələri ilə işgüzar danışıqların aparılması və yaxud işgüzar imkanların öyrənilməsi, o cümlədən alqı-satqı məqsədilə gələnlər.




Şəkil 1

Şəkil 1-də ölkə sərhədlərini keçən ziyarətçilər və digər səyahətçilər göstərilmişdir: onların bir qismi ölkədə daimi yaşamır, bir qismi isə daimi yaşayır. Köçərilərin və qaçqınların isə xüsusi statusu vardır və onlar ayrıca nəzərə alınmalıdır.

Turizm statistikasının əsas məqsədlərindən biri də ziyarətçiləri səyahət edən şəxslər kateqoriyasından ayırmaqdır. Bununla əlaqədar statistikanın aparılması və göstəricilərin təhlil edilməsi məqsədləri üçün tədqiq olunan ölkədə yaşamayan səyahətçi kateqoriyasının müəyyənləşdirilməsi xüsusi əhəmiyyət daşıyır:

- xaricdə daimi yaşayan ölkə vətəndaşları;
- tranzit şərnişinlər;
- ekipaj/heyət;
- kruiz gəmilərinin və yaxtaların sərnişinləri;
- sərhədi mütəmadi keçən şəxslər;
- təhsil alanlar;
- müalicə alanlar;
- işgüzar və peşə məqsədləri ilə gələnlər.

*Xaricdə daimi yaşayan ölkə vətəndaşları.* Bəzi ölkələrin miqrasiya xidməti ölkəyə gələn bu qrup qeyri-rezidentlər üzrə informasiya toplamaqda maraqlı olmadığı üçün bir çox ölkələr milli pasport və ya şəxsiyyəti təsdiq edən sənəd göstərildiyi təqdirdə bu qrup şəxsləri gəliş/gediş kartlarını doldurmaq öhdəliyindən azad edir. Buna baxmayaraq, bu şəxslər baxılan ölkə nöqteyi-nəzərindən qeyri-rezident hesab olunur və qeyri-rezident səyahətçilərin sayına əlavə olunmalıdır. Təhlil məqsədlərinə ehtiyac yarandıqda səyahətçilərin bu altkateqoriyası ayrıca nəzərə alına bilər.

*Tranzit səyahətçilər.* Prinsip etibarilə, dayanacaq etmək şərti ilə ölkənin hüquqi və iqtisadi sərhədlərini keçən şəxslər ziyarətçilər (turistlər) sayılır və onların səfərinin məqsədi də tranzit kimi nəzərə alınmalıdır. Gəldikləri ölkədə gecələməyən şəxslər ekskursantlar, bu ölkədə heç olmazsa, bir gecə qalan şəxslər isə turist hesab olunur.

*Müntəzəm və ya qeyri-müntəzəm reyslər həyata keçirən ictimai nəqliyyat növlərinin ekipajı (heyəti)* öz adi yaşayış mühitində olanlar kimi qəbul edilir və ziyarətçilər kateqoriyasından çıxarılır. Xüsusi nəqliyyat vasitələrinin (korporativ təyyarələr, yaxtalar) komanda heyəti və ya ekipajı isə ziyarətçi hesab edilir.

Bir çox ölkələr üçün *kruiz gəmilərinin və yaxtalarının* sərnişinləri öz həcminə görə turizm bazarının əsas hissəsini təşkil edir. Yaşayış yeri və iqtisadi ərazi terminlərini Milli Hesablar Sistemi və tədiyə balansında istifadə edilən analoji anlayışlarla uzlaşdırmaq məqsədilə turizm statistikasında bu anlayışların uçotu sərnişinlərin səyahət etdikləri kruiz gəmilərinə nəzərən istifadə edilməklə aparılır.

*Sərhədi müntəzəm olaraq keçən şəxslər.* Quru sərhədləri olan ölkələrdə müxtəlif səbəblərdən (ailəyə baş çəkmək, iş axtarışı, şəxsi istifadə üçün alış-veriş etmək) insanların tez-tez sərhədi keçməsi müşahidə olunur ki, bu da turizm fəaliyyəti baxımından bu axınların ölçülməsi və təsnifatlaşdırılmasında nəzəri və praktiki cəhətdən problem təşkil edə bilər. Nəzəri baxımdan adi yaşayış mühiti anlayışını həmsərhəd olan ölkə ilə razılaşdırılmış şəkildə istifadə etmək tövsiyə olunur. Praktiki cəhətdən çətinliklər o zaman meydana gələ bilər ki, sərhədə yaxın ərazidə yaşayan əhali çox zaman gəliş/gediş kartlarını doldurmaqdan azad edilir və yaxud gömrük işçiləri və miqrasiya orqanlarının nəzarəti olmadan sərhədi keçir. Nəticədə, belə yerdəyişmələrin müşahidə olunması çox zaman kifayət etmir və yanlış təsnifatlaşdırmaya gətirib çıxara bilər. Zərurət yarandıqda bu tip səyahətçilərin altkateqoriyaları təhlil məqsədləri üçün ayrıca qeyd şəklində nəzərə alınır.

*Tələbələr.* Qısamüddətli təlim kursu keçən şəxslər ziyarətçilər sayılır, lakin bir il və ya daha artıq müddətə təhsil almağa gedənlər isə təhsil aldıqları yerdə öz adi yaşayış mühitlərində hesab edilir və ziyarətçi kateqoriyasına aid edilmirlər, baxmayaraq ki, hər iki halda onlar qeyri-rezident hesab olunurlar. Əgər miqrasiya orqanları tərəfindən toplanılan məlumatlar ölkədə təhsil alan xarici vətəndaşlar haqqında faktiki vəziyyətin necə olduğu barədə məlumat əldə etməyə imkan vermirsə (ən çox da bu şəxslərdə təzələnə bilən illik viza olarsa), bu zaman digər məlumat mənbəyi tələb olunur. Bundan başqa, belə hesablamaları təhsil alanların qısa müddətə öz ölkələrinə və ya digər yerlərə getməsi halları da əlavə olaraq çətinləşdirir, amma yenə də təhsil aldıqları yer onların adi yaşayış mühiti hesab edilir.

*Müalicə alan şəxslər.* Eyni cür problemlər uzunmüddətli müalicə alan şəxslərlə də yaranır. Tədiyə balansı və Milli Hesablar Sistemində bu şəxslərə onların müalicə aldıqları yerdə qaldıqları

müddətdən asılı olmayaraq, öz ölkələrinin rezidentləri kimi baxılır. Turizm statistikasında isə bu şəxslərin müalicə olunduqları yer onların adi yaşayış mühiti hesab edilir (müalicə bir il və daha artıq davam edərsə). Lakin müalicə müddəti bir ildən az olan şəxslər ziyarətçi (turist) hesab edilir. Bu cür halların aydınlaşdırılması metodları miqrasiya orqanları ilə əməkdaşlıq etməklə işlənib hazırlanmalıdır.

*İşgüzar və peşə məqsədləri ilə gələn şəxslər.* İşgüzar və peşə məqsədləri ilə gələn şəxslərin digər səyahətçilərdən, yəni işləmək məqsədləri ilə gələnlərdən (ziyarətçi hesab olunmayanlar) ayrılması üçün gəliş və gediş kartlarındakı məlumatlardan daha əhatəli informasiya toplanılması tələb olunur. İlk növbədə sərhədi müntəzəm keçmələri səbəbindən sərhədyanı ərazidə işləyən işçiləri ayırmaq lazımdır. Ziyarətçi hesab olunmayan digər qısamüddətli işçilər rezident-işəgötürənlə mövcud və ya fərz edilən əmək müqaviləsinin olması ilə xarakterizə edilirlər. Əmək münasibətlərinin mövcudluğu, adətən, müəyyən bir vizanın alınması tələbi ilə müşayiət olunsa da, gizli əmək münasibətlərinin müəyyən edilməsi daha çətindir.

Turizm səfərlərinin məqsədləri haqqında məlumat turizm xərclərinin təhlili zamanı daha çox istifadə olunur. Eləcə də o, turizm tələbatının əsas seqmentinin formalaşdırılması zamanı infrastrukturun planlaşdırılması, marketinq və reklam məqsədləri üçün istifadə olunmasında vacib rol oynayır. Qrup halında həyata keçirilən səyahətlər zamanı hər bir qrup üzvünün ayrı-ayrı məqsədləri ola bilər. Bu zaman səyahətin həyata keçirilməsinə səbəb olan qərar səfərin əsas məqsədi kimi götürülür.

Səfərlərin məqsədə görə təsnifatlaşdırılması səfər müddətində səyahətçilərin əsas fəaliyyətləri ilə əlaqədardır. Bu meyarı əsas götürsək, işəgötürənlər tərəfindən işçilərin əməyinin mükafatı olaraq, təşkil edilmiş və dəyəri ödənilmiş intensiv turlar (harada ki iştirakçılar istirahət edir, əylənir və idman fəaliyyəti ilə məşğul olur) istirahət, əyləncə və tətil kateqoriyasına aid edilir. Mümkün olduğu zaman isə intensiv səfərlər ayrıca göstərilməlidir.

Hər bir turizm səfərinin yalnız bir əsas məqsədi ola bilər, baxmayaraq ki, ziyarətçi səfər etdiyi zaman bir neçə başqa fəaliyyətlə də məşğul ola bilər. Hər bir əsas məqsəd (1.7 bəndindəki tranzit məqsəd çıxılmaq şərti ilə) səfər zamanı aşağıda göstərilmiş əsas fəaliyyət qrupundan biri ilə əlaqədar olmalıdır:

Əsas məqsədlərinə görə turist səfərlərinin təsnifatı [2]:

**1. Şəxsi məqsədlər**

1.1 istirahət, tətil və əyləncə
1.2 dostların və qohumların ziyarəti
1.3 təhsil və peşə hazırlığı
1.4 müalicə və sağlamlıq
1.5 dini ziyarətlər
1.6 bazarlıq (alış-veriş) məqsədilə
1.7 tranzit
1.8 digər məqsəd.

**2. İşgüzar və peşə məqsədilə**

***1. Şəxsi məqsəd.*** Bura biznes və peşə fəaliyyəti ilə əlaqədar olmayan digər turizm məqsədləri daxildir.

*İstirahət, əyləncə və tətil.* Bura gəzməli, görməli yerlərə baş çəkilməsi (təbii və ya insan tərəfindən yaradılmasından asılı olmayaraq), mədəni və idman tədbirlərində iştirak, qeyri-peşəkar idmanla məşğul olunması (xizəklə sürüşmə, at sürmə, qolf, tennis, dayving (suya dalma), piyada turist səfərləri (hikinq və trekinq, dağa dırmanma və s.), çimərliklərdən, üzmə hovuzlarından və eləcə də digər növ istirahət və əyləncə qurğularından istifadə edilməsi, kruiz səyahəti, qumar və mərc oyunları, gənclər üçün yay düşərgələrində iştirak, bal ayı səyahəti, ixtisaslaşdırılmış hotellərdə dincəlmə, fitneslə məşğulolma (müalicə məqsədini çıxmaq şərti ilə) məqsədilə edilən səfərlər, eləcə də ev təsərrüfatlarının sahib olduğu və ya kirayə götürdüyü istirahət (bağ) evlərinə edilən səfərlər daxildir.

*Dostların və qohumların ziyarəti.* Bu kateqoriyaya qohumlara və dostlara baş çəkilməsi, toylarda, dəfn mərasimlərində və digər ailə tədbirlərində iştirak; yaşlı və xəstələrə qısamüddətli qulluq edilməsi məqsədilə edilən səfərlər daxildir.

*Təhsil və peşəkarlıq hazırlığı.* Bu kateqoriyaya işəgötürənlər və ya digər təşkilatlar (şəxslər) tərəfindən haqqı ödənilmiş qısamüddətli kurslarda iştirak (işgüzar və peşəkar məqsədlər kateqoriyasına aid edilən istehsalatdan ayrılmadan peşə hazırlığı istisna edilməklə), hər hansı bir elm sahəsinin fərdi proqram əsasında öyrənilməsi (formal və ya qeyri-formal olaraq) və yaxud da rəsmi şəkildə təşkil olunmuş kurslar vasitəsilə xüsusi bilik və bacarıqların əldə edilməsi məqsədilə edilən səfərlər daxildir. Bura ödənişli təhsil, dil, peşə və digər ixtisaslaşdırılmış kurslar, akademik məzuniyyət və s. daxildir.

*Sağlamlıq və müalicə.* Bu kateqoriyaya xəstəxanalardan, klinikalardan, sağlamlaşdırıcı müəssisələrdən, daha ümumi şəkildə sağlamlıq və sosial təşkilatların göstərdiyi tibbi xidmətlərin alınması, tibbi məsləhət əsasında talossoterapiya*, SPA** və sağlamlıq kurortlarında müalicə alınması və kosmetik əməliyyatların aparılması məqsədilə edilən səfərlər daxildir. Bu kateqoriya qısamüddətli müalicə kurslarını əhatə edir, belə ki, uzunmuddətli müalicə bir il və daha artıq müddəti əhatə etdiyindən o turizm səfərlərinə aid edilmir.

*Dini ziyarətlər.* Bura müqəddəs və dini yerləri ziyarət, dini mərasimlərdə, tədbirlərdə və s. iştirak edilməsi məqsədilə həyata keçirilən səfərlər daxildir.

*Bazarlıq (alış-veriş).* Bu kateqoriyaya şəxsi istehlak və ya digər şəxslərə hədiyyə edilmək məqsədi ilə və sonradan istehsal prosesində istifadə edilməyən və üçüncü tərəfə satılmayan (əks halda bu biznes və professional məqsədlə edilmiş səfər hesab olunacaq) istehlak mallarının alınması üçün edilən səfərlər daxildir.

*Tranzit.* Bu kateqoriyaya səyahət edərkən hərəkət marşrutunun üzərində olan hər hansı bir ərazidə heç bir başqa məqsəd olmadan dayanma halları ilə meydana çıxan səfərlər aid edilir.

Digər məqsədlər. Bura könüllü fəaliyyət, işləmək və miqrasiya imkanlarının öyrənilməsi; müvəqqəti olaraq, haqqı ödənilməyən və digər kateqoriyalara aid edilə bilinməyən fəaliyyət və s. daxil edilir.

***2. İşgüzar və peşə məqsədli səfərlərə*** səfər etdiyi ölkənin rezidentləri ilə rəsmi və ya qeyri-rəsmi formada heç bir əmək münasibətləri olmayan işçilərin, fərdi sahibkarların, investorların və işgüzar şəxslərin səfərləri daxildir. Bu növ turizm səfərlərinə, həmçinin müşavirələr, konfranslar (konqreslər), seminarlar, ticarət yarmarkaları və sərgilərdə iştirak, mühazirələrin oxunması, konsert və ya digər təqdimatlarla çıxış, xarici hökumətlərin missiyasında iştirak edən diplomatlar, hərbçilər və beynəlxalq təşkilatların nümayəndələrinin xidməti ezamiyyətləri (bura uzunmüddətli – bir ildən artıq davam edən səfərlər daxil edilmir), qeyri-hökumət təşkilatlarının tədbirlərində, elmi-fundamental və elmi-tətbiqi müşahidələrdə iştirak, peşəkar idman tədbirlərində, istehsalatdan ayrılmadan formal və ya qeyri-formal kurslarda iştirak, eləcə də danışıqların aparılması və müqavilələrin imzalanması, avadanlıqların montajı və qaydaya salınması (sazlanması) və s. məqsədlərlə həyata keçirilən səfərlər aiddir.

Ölkəmizdə gəlmə və getmə turizminə dair statistik məlumatlar sərhəd-buraxılış məntəqələrində aparılan sorğular əsasında əldə olunur. Hər il orta hesabla 12 minə yaxın ölkəmizə gəlmiş əcnəbi vətəndaş və 15 minə yaxın xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşı sorğuya cəlb olunur. 2014-cü ildə aparılmış sorğunun nəticələrinə əsasən turizm məqsədilə ölkəmizə gələn xarici vətəndaşların sayı 2159,7 min nəfər olmuşdur. Ölkəmizə gələn əcnəbi ziyarətçilərin arasında qonşu ölkələrin vətəndaşları çoxluq təşkil edir. Belə ki, Rusiya Federasiyasından gələnlərin yekunda xüsusi çəkisi 36,7%, Gürcüstandan gələnlər 29,6%, Türkiyədən gələnlər 14,1%, İrandan gələnlər 5,9% təşkil etmişdir [3].

Ölkəmizə gələn əcnəbi ziyarətçilər səfər zamanı daha çox quru yol nəqliyyatından istifadə etmişlər. Bu nəqliyyat növündən istifadə edənlərin ümumi yekunda xüsusi çəkisi 51,9% təşkil

---

* dəniz suyundan, palçıq və dəniz yosunlarından istifadə edilməklə həyata keçirilən sağlamlaşdırıcı prosedurlar

** SPA kurortlar- mineral və dəniz sularının, dəniz yosunları və duzunun, müalicəvi palçıq və müalicəvi otların köməyi ilə müalicə metodlarının təklif edildiyi sağlamlıq müəssisələri

etmişdir, hava nəqliyyatından istifadə edənlər 47,4%, su nəqliyyatından istifadə edənlər isə 0,7% təşkil etmişdir [3].

Əcnəbi ziyarətçilərin turizm məqsədli xərcləri 1281,2 milyon manat olmuşdur ki, xərclərin 43,9%-ni nəqliyyat, 28,2%-ni yerləşmə, 22,2%-ni qidalanma, 1,0%-ni mədəniyyət, 0,2%-ni turpaketin alınması, 0,3%-ni nəqliyyat vasitələrinin icarəyə götürülməsi, 0,6%-ni idman və əyləncə, 3,6%-ni digər xərclər təşkil etmişdir. Bu dövr ərzində ölkəmizə gələn bir xarici vətəndaşın səfər dövründə turizm məqsədilə çəkdiyi xərc orta hesabla 593 manat olmuşdur. Bir nəfərin nəqliyyat xərci 260 manat, yerləşmə xərci 172 manat, qidalanma xərci 132 manat təşkil etmişdir. Bir ziyarətçinin gün ərzindəki xərci isə orta hesabla 116,0 manat olmuşdur.

İşgüzar məqsədlə ölkəmizə gələn turistlər 534,4 milyon manat, istirahət və əyləncə məqsədilə gələnlər 533,7 milyon manat, dostları və tanışları ziyarət edənlər 171,1 milyon manat, müalicə məqsədilə gələnlər 15,4 milyon manat, dini ziyarətə gələnlər 3,9 milyon manat, bazarlıq (alış-veriş) məqsədilə gələnlər 0,3 milyon manat, tranzit turistlər 0,7 milyon manat və digər turizm məqsədilə gələnlər 22,1 milyon manat xərcləmişlər [3].

**Cədvəl 1**

**Azərbaycana gəlmiş xarici ziyarətçilərin turizm məqsədli xərclərinin dinamikası, min manat** [3]

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| **Xərclər – cəmi** | **966 253,5** | **1 161 903,9** | **1 255 370,4** | **1 281 243,8** | **1 153 131,2** |
| o cümlədən nəqliyyat | 398 825,9 | 496 089,4 | 557 584,8 | 562 082,2 | 505 879,1 |
| yerləşmə | 301 611,1 | 330 701,2 | 354 063,3 | 361 822,6 | 325 643,7 |
| qidalanma | 191 471,1 | 244 418,3 | 280 026,0 | 284 570,2 | 256 115,8 |
| mədəniyyət | 20 643,1 | 22 711,5 | 12 743,8 | 12 969,9 | 11 673,0 |
| turpaketin (yollayış) alınması | 2 255,4 | 3 082,2 | 2 531,8 | 2 724,0 | 2 451,6 |
| nəqliyyat vasitələrinin icarəyə götürülməsi | - | - | 3 235,2 | 3 288,0 | 2 959,2 |
| idman və əyləncə | - | - | 6 952,1 | 7 065,3 | 6 358,8 |
| digər xərclər | 51 446,9 | 64 901,3 | 38 233,4 | 46 721,6 | 42 050,0 |

Əcnəbi ziyarətçilərin 32,9%-i istirahət və əyləncə, 31,0%-i işgüzar, 31,4%-i qohumları (tanışları) ziyarət etmək, 2,1%-i müalicə və sağlamlıq, 0,6%-i dini ziyarət, 0,2%-i bazarlıq, 0,3%-i tranzit, 1,5%-i digər turizm məqsədilə ölkəmizə səfər etmişdir. Bu dövr ərzində xarici turistlər ölkəmizdə 11040,6 min gecələmə keçirmişdir. Gecələmələrin 49,8%-i Bakı şəhərinin, 9,6%-i Quba-Xaçmaz, 5,1%-i Aran, 14,6%-i Gəncə-Qazax, 5,1%-i Lənkəran, 2,2%-i Şəki-Zaqatala, 6,5%-i Naxçıvan, 3,1%-i Abşeron, 4,0%-i digər iqtisadi rayonlarında keçirilmişdir. Bir turist ölkəmizdə orta hesabla 5,2 gecələmə keçirmişdir [3].

**Cədvəl 2**

**Azərbaycana gəlmiş xarici ziyarətçilərin səfərin məqsədləri üzrə dinamikası, min nəfər** [3]

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| **Ölkəyə gəlmiş xarici ziyarətçilərin sayı, cəmi** | **1 561,9** | **1 985,9** | **2 129,5** | **2 159,7** | **1921,9** |
| o cümlədən biznes, işgüzar | 591,9 | 595,3 | 648,9 | 670,5 | 632,3 |
| istirahət, əyləncə | 519,8 | 687,8 | 705,2 | 709,9 | 668,8 |
| qohumları (tanışları) ziyarət etmək | 374,7 | 607,8 | 673,7 | 677,1 | 542,0 |
| müalicə, sağlamlıq | 33,3 | 43,0 | 46,2 | 46,3 | 36,5 |
| dini ziyarət | 10,5 | 13,2 | 13,6 | 13,7 | 11,5 |
| bazarlıq (alış-veriş) | 3,7 | 4,3 | 4,2 | 4,2 | 3,8 |
| tranzit | 4,0 | 5,3 | 5,7 | 5,8 | 4,3 |
| digər turizm məqsədi | 24,0 | 29,2 | 32,0 | 32,2 | 22,7 |

2014-cü ildə 3319,4 min nəfər Azərbaycan vətəndaşı turizm məqsədi ilə səyahətə çıxmışdır. Həmvətənlilərimiz digər xarici ölkələrə nisbətən daha çox qonşu ölkələrə səfər etmişlər. Rusiya Federasiyası, Gürcüstan, Türkiyə və İrana gedənlərin ümumi yekunda xüsusi çəkisi 70,2% olmuşdur. Xarici ölkələrə getmək üçün Azərbaycan turistlərinin 46,4%-i quru yol nəqliyyatı, 52,9%-i hava nəqliyyatı, 0,7%-i isə su nəqliyyatından istifadə etmişdir.

Ölkə vətəndaşlarının 38,5%-i işgüzar, 30,6%-i istirahət və əyləncə, 17,0%-i qohumları (tanışları) ziyarət etmək, 5,1%-i müalicə və sağlamlıq, 3,5%-i dini ziyarət, 3,7%-i bazarlıq (alış-veriş) və 1,6%-i digər turizm məqsədilə səfər etmişdir [3].

**Cədvəl 3**

**Xarici ölkələrə getmiş Azərbaycan vətəndaşlarının səfərin məqsədləri üzrə dinamikası, min nəfər** [3]

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| **Xarici ölkələrə getmiş ziyarətçilərin sayı, cəmi** | **2 308,2** | **2 828,9** | **3 306,7** | **3 319,4** | **3 256,2** |
| o cümlədən, biznes, işgüzar məqsədlə | 1 150,3 | 1 172,3 | 1 290,9 | 1 277,8 | 1185,3 |
| istirahət, əyləncə məqsədilə | 513,1 | 897,6 | 1 053,9 | 1 014,7 | 1045,2 |
| qohumları (tanışları) ziyarət etmək | 344,1 | 443,5 | 579,9 | 565,0 | 592,6 |
| müalicə, sağlamlıq məqsədilə | 92,6 | 116,5 | 169,0 | 169,8 | 140,0 |
| dini ziyarət | 64,0 | 66,1 | 82,5 | 117,8 | 133,5 |
| bazarlıq (alış-veriş) məqsədilə | 70,4 | 70,9 | 81,2 | 124,5 | 110,8 |
| digər turizm məqsədilə | 73,7 | 62,0 | 49,3 | 49,8 | 48,8 |

Bu dövrdə xarici ölkələrə getmiş ziyarətçilərin turizm məqsədilə çəkdikləri xərclər 2013-cü illə müqayisədə 1,4% artaraq 1888,5 milyon manata çatmışdır. Xərclərin 45,1%-ni nəqliyyat, 29,1%-ni yerləşmə, 15,0%-ni qidalanma, 2,3%-ni turpaketin alınması, 1,0%-ni mədəniyyət, 0,4%-ni nəqliyyat vasitələrinin icarəyə götürülməsi, 0,7%-ni idman və əyləncə, 6,4%-ni digər istehlak xərcləri təşkil etmişdir. Xarici ölkəyə getmiş hər bir Azərbaycan vətəndaşının turizm məqsədilə çəkdiyi xərc orta hesabla 569 manat təşkil etmişdir [3].

**Cədvəl 4**

**Turizm məqsədilə xarici ölkələrə getmiş Azərbaycan vətəndaşlarının xərclərinin dinamikası, min manat** [3]

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| **Xərclər - cəmi** | **1 306 379,5** | **1 617 944,0** | **1 861 691,1** | **1 888 471,7** | **1 852 777,8** |
| o cümlədən nəqliyyat | 656 236,3 | 757 880,9 | 876 507,0 | 852 077,2 | 835 972,1 |
| yerləşmə | 347 407,2 | 472 810,4 | 532 779,6 | 549 396,0 | 539 011,9 |
| qidalanma | 153 823,0 | 197 210,0 | 282 073,6 | 283 669,6 | 278 308,0 |
| mədəniyyət | 9 500,3 | 8 427,4 | 18 944,6 | 19 182,0 | 18 819,4 |
| turpaketin (yollayış) alınması | 21 960,6 | 28 339,9 | 41 628,0 | 42 629,4 | 41 823,7 |
| nəqliyyat vasitələrinin icarəyə götürülməsi | - | - | 6 992,8 | 7 025,9 | 6 893,1 |
| idman və əyləncə | - | - | 12 082,0 | 12 775,5 | 12 534,0 |
| digər istehlak xərcləri | 117 452,1 | 153 275,4 | 90 683,5 | 121 716,1 | 119 415,6 |

Ölkə iqtisadiyyatının sürətli və dinamik inkişafı nəticəsində turizm infrastrukturunun əsas elementlərindən biri olan hotel sistemində mühüm nailiyyətlər əldə edilmiş, 2005-ci illə müqayisədə mehmanxanaların sayı 2 dəfə artaraq 536 vahid, onlarda nömrələrin (otaqların) sayı 1,7 dəfə artaraq 18,0 min, birdəfəlik tutum isə 1,6 dəfə artaraq 37,3 min çarpayı-yer olmuşdur.

Mehmanxana obyektlərində müasir tələblərə uyğunlaşdırılmış kommunal sistemlərin yaradılması və xidmət keyfiyyətinin yaxşılaşdırılması bu müəssisələrin xidmətlərindən istifadə edən müştərilərin sayının artmasına xüsusi təsir etmişdir. Əgər 2005-ci ildə ölkə ərazisində fəaliyyət göstərən mehmanxanalarda 264,1 min nəfər qonaq olmuşdursa, 2015-ci ildə onların sayı 3,2 dəfə artaraq 838,1 min nəfərə çatmışdır.

Ölkəmizin qədim tarixi-mədəni abidələrə, zəngin mədəniyyətə, incəsənətə, mətbəxə, cəlbedici təbiətə malik olması və beynəlxalq standartlara uyğun turizm infrastrukturunun yaradılması, həmçinin son dövrlərdə bir sıra beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməsi ölkəyə gələn əcnəbi ziyarətçilərin sayının artmasına öz müsbət təsirini göstərmişdir. Belə ki, əgər 2005-ci ildə mehmanxanalarda 130,2 min nəfər əcnəbi vətəndaş gecələmişdirsə, 2015-ci ildə onların sayı 3,8 dəfə artaraq 495,6 min nəfərə çatmışdır ki, bu da mehmanxanalarda gecələyənlərin ümumi sayının 59,1 faizini təşkil edir. Mehmanxanalarda keçirilən gecələmələrin sayında da artım müşahidə edilmişdir. 2005-ci illə müqayisədə 2015-ci ildə gecələmələrin sayı 1,5 dəfə artaraq 1644,1 min adam-gecə təşkil etmişdir.

2015-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrin gəliri 183,1 milyon manat olmuşdur ki, bu da 2005-ci ilin müvafiq göstəricisindən 2,8 dəfə çoxdur.

## Nəticə

Turizmə dair statistik məlumatların beynəlxalq müqayisəliliyinin təmin edilməsi üçün ilk növbədə tərif və anlayışlar uyğunlaşdırılmalıdır. Belə ki, turizm səfərləri digər səyahətlərdən, turizm məqsədli xərclər səfər ərəfəsində çəkilən ümumi xərclərdən fərqləndirilməlidir. Həmçinin

statistika müşahidəsi zamanı adi yaşayış mühiti anlayışından istifadə edilməli və istənilən məqsədlə mütəmadi edilən səfərlər (ayda 5-7 dəfə) turizm səfərlərinə aid edilməməlidir.

**Rauf Əliyev**
**Ziyarətçi axınlarının statistik öyrənilməsi**
**Xülasə**

Məqalədə turizm statistikasının aparılması üçün beynəlxalq praktikada tətbiq edilən metodlardan, əsas tərif və anlayışlardan bəhs olunur. Burada səfərlərin əsas məqsədi ətraflı göstərilmiş, turizm məqsədləri üzrə xərclərin təsnifatı verilmiş, ziyarətçi kateqoriyasını digər səyahətçilərdən fərqləndirən xüsusiyyətlər göstərilmişdir. Gəlmə və getmə turizmə dair statistik məlumatlar cədvəllərdə əks olunmuş, seçmə statistika müşahidələri nəticəsində əldə olunan məlumatların statistik təhlili aparılmışdır.

**РауфАлиев**
**Статистическое изучение потока посетителей**
**Резюме**

В статье речь идет о методах, основных понятиях и определениях применяемых в международной практике для ведения статистики туризма. Подробно показаны основные цели визитов, дана классификация расходов по туристическим целям, указаны особенности, отличающие категорию посетителей от других путешественников. Динамика въездного и выездного туризма отражена в статистических таблицах, проведен статистический анализ данных, полученных в результате выборочных статистических наблюдений.

**Rauf Aliyev**
**Statistical investigation of a flow of visitors**
**Summary**

The article deals with the methods,maindefinitions and concepts applied in international practice for conduction of tourism statistics.The main purpose of visits, classification of expenses by purposes of tourism, features distinguishing category of visitors from other travellers are shown here in details. Dynamics of arrivals and departures is reflected in statistical tables, the statistical analysis of the data obtained as a result of sample statistical surveys is carried out.

## Ədəbiyyat

1. Международные рекомендации по статистике туризма, 2008 год (Серия M № 83/Rev.1 Мадрид и Нью-Йорк 2010 год);
2. Вспомогательный счет туризма: рекомендуемая методологическая основа, 2008 год; (Серия F № 80/Rev.1; Люксембург, Мадрид, Нью-Йорк, Париж, 2010 год)
3. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu (4 iyun 1999-cu il);
4. http://www.unwto.org/step/index.php;
5. http://www.unstats.un.org/unsd/tradeserv/default.html

# RƏSMİ STATİSTİK MƏLUMATLARIN İSTEHSALINDA İNZİBATİ MƏLUMATLARIN ROLU

**Qasım Əliyev**
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: gasima@azstat.org*

**Toğrul Əcəlov**
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsi müdirinin müavini*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: togrula@azstat.org*

**Açar sözlər:** inzibati məlumatlar, statistik yük, reyestr, respondent, vahid identifikasiya, Avropa İttifaqının Statistika Bürosu
**Ключевые слова:** административные данные, статистическая нагрузка, реестр, респондент, единая идентификация, Статистическое Бюро Европейского Союза
**Keywords:** administrative data, statistical burden, register, respondent, unique identification, Statistical Office of European Union

“2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”nda statistika orqanları qarşısında qoyulmuş əsas vəzifələrdən biri elektron statistikanın tətbiqi, vahid informasiya sisteminin inkişaf etdirilməsi yolu ilə statistika işlərinin təkmilləşdirilməsi, istifadəçilərin keyfiyyətli statistik məlumatlarla təminatının genişləndirilməsi və ölkənin milli statistik göstəricilər sisteminin inkişaf etdirilərək dünya standartları səviyyəsinə çatdırılmasıdır [10].

Son 10 il ərzində beynəlxalq təcrübədə statistika sahəsində baş vermiş dəyişikliklər iki əsas hərəkətverici qüvvə ilə - statistik informasiyaya olan yeni ehtiyacların ödənilməsi və respondentlərə düşən statistik yükün azaldılması ilə xarakterizə olunur ki, bu da Dövlət Proqramında əsas prioritet istiqamətlərdən biri kimi öz əksini tapmışdır. Göstərilən vəzifələrin yerinə yetirilməsi statistika praktikasında inzibati məlumatlardan istifadənin əhəmiyyətini olduqca artırır, rəsmi statistik məlumatların istehsalında əlavə məlumat mənbələrindən istifadəni zəruri edir və bu zaman respondentlərə düşən statistik yükün azaldılması ilə bağlı yerinə yetirilən tədbirlər statistik məlumatların keyfiyyətinə neqativ təsir göstərməmək şərtilə həyata keçirilməlidir.

İnzibati məlumatlar statistika üçün xüsusi əhəmiyyətə malik olduğuna görə dünyanın bir çox statistika təşkilatları statistik məqsədlər üçün inzibati məlumatlardan istifadəni artırmaq istiqamətində davamlı işlər aparırlar. İnzibati məlumatlar statistik ehtiyaclardan asılı olmayaraq toplanılır. Belə məlumatlardan istifadə etməklə rəsmi statistikanın aparılması iqtisadi cəhətdən səmərəli olur, eyni zamanda müəssisə və təşkilatlar tərəfindən sorğu anketlərinin cavablandırılmasına ehtiyac qalmır.

Müvafiq inzibati məlumatdan istifadə edilməsi üçün bir neçə şərtin mövcud olması tələb olunur və onlar aşağıdakılardan ibarətdir:

1) hüquqi əsas, 2) ictimaiyyət tərəfindən statistik məqsədlər üçün inzibati məlumatlardan istifadə olunmasının əhəmiyyətinin qəbul olunması, 3) istifadə olunan müxtəlif mənbələr arasında vahid eyniləşdirmə sisteminin yaradılması, 4) dövlət orqanları arasında hərtərəfli və etibarlı məlumat mübadiləsi sisteminin qurulması və 5) dövlət orqanları arasında əməkdaşlığın mövcud olması [4]. Adı çəkilən şərtlərin mövcudluğu statistikanın inzibati məlumatlardan müntəzəm istifadəsi üçün əlverişli imkan yaradır.

Avropa İttifaqının Statistika Bürosunda yaradılmış məqsədli işçi qrupu statistikanın müxtəlif sahələrində inzibati mənbələrdən istifadə ilə bağlı işin daha yaxşı əlaqələndirilməsi yollarını araşdırmışdır. Bu qrup inzibati məlumatların necə müəyyən olunmasını nəzərdən keçirmək məqsədilə məlumat mənbələri toplusunun sadə tipologiyasından istifadə etmişdir. Belə ki, bütün məlumat mənbələri ilk mənbələrə (statistik məqsədlərlə toplanmış məlumatlar) və əlavə mənbələrə (bütün digər məlumatlar) bölünmüşdür [3].

Statistik məqsədlər üçün istifadə oluna biləcək inzibati məlumatlar çoxdur və getdikcə artmaqdadır. Aşağıda göstərilən siyahı tam deyildir, lakin inzibati məlumatın operativ müəyyənləşdirilməsinə nail olunması istiqamətində son addımlar olaraq, potensial məlumat toplusu və növlərini göstərir [6].

Nümunə:

- Vergi məlumatları
    - Gəlir vergisi
    - ƏDV
    - Mənfəət vergisi
    - Mülkiyyət vergisi
    - İdxal/ixrac rüsumları
- Sosial sığorta məlumatları
    - Ödəmələr
    - Güzəştlər
    - Pensiya
- Səhiyyə/təhsil məlumatları
- Şəxs/biznes/mülkiyyət/nəqliyyat vasitələri üçün qeydiyyat sistemləri
- Eyniləşdirmə kartları/pasport/sürücülük vəsiqəsi
- Biznes üzrə aparılan daxili uçot məlumatları
- Məlumat sahibləri olan:
    - Kredit təşkilatları
    - Biznes-analitikləri
    - Kommunal müəssisələri
    - Telefon məlumat kitabçaları
    - Anbar uçotunu aparan pərakəndə satıcılar və s.

İnzibati məlumatlardan istifadənin əsas üstünlüyü statistik tədqiqatlardan fərqli olaraq, daha az xərcin tələb olunmasıdır. Müayinələr, xüsusilə də siyahıyaalmalar vasitəsilə məlumatların toplanması külli-miqdarda maliyyə vəsaitini tələb edən prosesdir. İnzibati məlumatlar isə əksinə, məlumatların müayinə və ya siyahıyaalınma vasitəsi ilə toplanması üsullarından daha az maliyyə vəsaitinin xərclənməsi ilə əldə olunur. Məlumatların işlənməsi üçün daha az işçi qüvvəsi tələb olunur və statistik vahidlərdən cavabların alınması üçün səy göstərməyə ehtiyac qalmır.

Müqayisə üçün qeyd etmək olar ki, əhalinin siyahıyaalınmasını tamamilə inzibati məlumatlar əsasında həyata keçirən Finlandiya ilə ənənəvi qaydada təşkil edən Böyük Britaniya və Avstriya kimi ölkələr arasında adambaşına düşən xərclərdə böyük fərq vardır (cədvəl 1) [1]. Bu da inzibati məlumatlardan daha geniş istifadə edilməsinin üstünlüyünü göstərir.

**Cədvəl 1**

**İnzibati məlumatlar əsasında və ənənəvi üsulla əhalinin siyahıyaalınmasını təşkil edən bəzi Avropa ölkələri**

| Ölkə | Ümumi xərc (milyon avro) | Hər nəfərə düşən xərc (avro) |
|---|---|---|
| Belçika | 24 | 2,3 |
| Yunanıstan | 50 | 4,5 |
| İspaniya | 167 | 4,1 |
| Fransa | 248 | 4,1 |
| İrlandiya | 44 | 11,2 |

| Ölkə | Ümumi xərc (milyon avro) | Hər nəfərə düşən xərc (avro) |
|---|---|---|
| İtaliya | 298 | 5,3 |
| Lüksemburq | 5 | 10,6 |
| Avstriya | 56 | 6,9 |
| Portuqaliya | 46 | 4,5 |
| Finlandiya | 0,8 | 0,2 |
| Birləşmiş Krallıq | 367 | 6,2 |
| Norveç | 15 | 3,3 |
| İsveçrə | 99 | 13,6 |
| Çex Respublikası | 80 | 7,8 |
| Estoniya | 10 | 7,4 |
| Macarıstan | 40 | 3,9 |

İnzibati məlumatlar əsasında və ənənəvi üsulla əhalinin siyahıyaalınmasını təşkil edən bəzi Avropa ölkələrinin ümumi və hər nəfərə düşən xərcləri aşağıdakı diaqram 1-də daha aydın görünür [1].




Diaqram 1

İnzibati məlumatdan istifadə, eyni zamanda respondentə düşən yükün azaldılmasına kömək edir. Müəssisələr qeydiyyat və vergi məqsədləri üçün təqdim etdikləri məlumatların məqsədini başa düşdüyü halda, bunu etmək istəməsələr də, onlar statistik məqsədlər üçün toplanan məlumatları əlavə yük və ya əhəmiyyətsiz iş kimi qəbul edə bilərlər. Əgər müəssisələr digər dövlət qurumlarına ətraflı məlumatlar təqdim ediblərsə, onlar oxşar məlumatın statistika orqanları tərəfindən əldə olunması sorğusuna narazılıqla yanaşacaqlar. İnzibati məlumat, adətən, baş məcmunu təxminən və yaxud bütövlükdə əhatə etdiyi halda, seçmə müayinə kiçik bir hissəni əhatə edir. Buna görə də

inzibati məlumatdan istifadə seçmə xətasını, cavabsız anketlərin mümkünlüyünü kənarlaşdırır və müxtəlif alt məcmular üzrə daha əhatəli qiymətləndirmələr aparır. Əhatəlilik daha çox biznes reyestrlər tərəfindən maraq doğurur, çünki belə reyestrlər bütün müəssisələri əhatə edir.

Daha yeni məlumatlara giriş imkanını yaradaraq, inzibati məlumatlardan istifadə etməklə biznes reyestrin keyfiyyətinin artırılması mümkündür, məsələn: vahidin yaradılması və bağlanması tarixi, iqtisadi fəaliyyət növünün kodu (müəssisələr qrupunda, altqrupda, müəssisə və yerli vahid səviyyəsində), vahidin yerləşməsi haqqında məlumat (yerli vahid səviyyəsində), məlumatların ölçüsü (işçilərin sayı və ya dövriyyə). Dəyişənlərin dövriliyini yaxşılaşdırmaqla yanaşı, inzibati məlumatlardan istifadə bəzi hallarda, biznes reyestrdən, yaxud birbaşa müayinələrdən alınan statistik məlumatların da dövriliyini yaxşılaşdırır. Bu ona görə baş verir ki, müayinənin keçirilməsi üçün layihələndirmə, planlaşdırma, sınaq müayinənin keçirilməsi, baş məcmunun təhlili və seçmə məcmunun optimallaşması işlərinə xeyli vaxt tələb olunur. Adətən, bu, xüsusi, yaxud illik məlumatların toplanmasına aiddir. Buna görə də reyestr vasitəsilə müvafiq inzibati məlumatlara giriş daha əlverişli həll yolu ola bilər. Qeyd etmək lazımdır ki, inzibati məlumatdan istifadə etməklə qısamüddətli göstəricilərin dövriliyinin azaldılması halları baş verə bilər.

Hazırda Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi üçün inzibati məlumatları olan qurumların əməkdaşlığa cəlb edilməsi və inzibati məlumatlardan statistik müşahidələrin təşkilində istifadə edilməsi əsas prioritet sahələrdən biridir və bu sahədə fəaliyyətin daha yaxşı təşkil olunmasına mövcud qanunvericilik tam imkan verir. Belə ki, “Rəsmi statistika haqqında” Qanunun 13-cü maddəsinə əsasən statistik vahidlərin məlumat yükünü azaltmaq, məlumatların yığılmasında təkrarçılığa yol verməmək məqsədilə, müvafiq icra hakimiyyəti orqanları (Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları) topladıqları, işlədikləri və özlərinin məlumat bazalarında yerləşdirdikləri inzibati məlumatlarına, məlumatlar reyestrlərinə və digər fayllara rəsmi statistika materiallarının hazırlanması üçün dövlət statistika orqanlarının girişini zəruri olan səviyyədə, həcmdə və vaxtda təmin edirlər və proqramla müəyyənləşdirilmiş vaxtda və formada məlumatları onlara təqdim edirlər. Dövlət orqanlarının statistika hesabatları Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilir ki, bu da paralelçilikdən, ikiqat işdən qaçmağa imkan verir, vahid təsnifat və metodlardan istifadəni və əldə edilmiş nəticələrin rəsmi statistikaya uyğunluğunu təmin edir. İnzibati məlumatlardan istifadəni 2 istiqamətdə qruplaşdırmaq olar. Birinci əsas məsələ reyestrin, o cümlədən inzibati və statistik reyestrlərin inzibati məlumatlar əsasında formalaşdırılması, ikinci isə rəsmi statistikanın istehsalı üçün məlumatlara malik olan mənbələrdən istifadə edilməsidir.

Dövlət Statistika Komitəsi tərəfindən statistik vahidlərin Dövlət reyestri aparılır, orada təsərrüfatçılıq-sahibkarlıq fəaliyyəti göstərən və qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növləri ilə məşğul olan hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyətini, əsas və qeyri-əsas fəaliyyətini səciyyələndirən ünvan və iqtisadi göstəriciləri əks etdirilir [12]. Hüquqi şəxslərin və fərdi sahibkarların dövlət reyestrini aparan müvafiq icra hakimiyyəti orqanlarından (Vergilər və Ədliyyə Nazirliyi) alınmış və digər məlumatlar əsasında statistik vahidlərin dövlət reyestrinin tərtib edilməsi və aparılması Dövlət Statistika Komitəsinin vəzifəsidir. Hüquqi şəxslərin və fərdi sahibkarların dövlət reyestrini aparan müvafiq icra hakimiyyəti orqanlarından (Vergilər və Ədliyyə Nazirliyi) statistik vahidlərin Dövlət reyestrinin tərtib edilməsi və aparılması üçün zəruri olan məlumatları almaq Dövlət Statistika Komitəsinin hüququdur. Dövlət Statistika Komitəsinin bu vəzifəsi və hüququ Qanunla və Dövlət Statistika Komitəsinin Əsasnaməsi ilə təsdiqlənir.

Dövlət Statistika Komitəsində 20 ilə yaxın fəaliyyət göstərən reyestr sistemi aşağıdakı 3 – alt reyestrdən ibarətdir:

1. hüquqi şəxslərin reyestri;
2. fərdi sahibkarların reyestri;
3. torpaq payı almış ailə təsərrüfatlarının reyestri.

Reyestr üzrə inzibati məlumatların toplanması ilk əvvəl ölkənin Vergilər Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu, Mərkəzi Bank, Əmlak Məsələləri Dövlət Komitəsindən başlanmışdır. Bu təşkilatlarda olan inzibati məlumatların siyahıları əldə edilmiş, onlardan statistika praktikasında istifadə olunacaqları planlaşdırılmışdır. Göstərilən təşkilatlar üçün “Rəsmi statistika haqqında”

Qanun və həmin təşkilatların fəaliyyətinə təsir edən digər müvafiq qanunların nəzərə alınması şərti ilə spesifik razılaşmalar hazırlanmış və təsdiq edilmişdir. Razılaşmaların spesifik olmasının əsas səbəbi hər bir təşkilatın təşkilati strukturunun, məlumatların toplanma dövriliyinin və Dövlət Statistika Komitəsindən istəyə biləcəyi məlumatların müxtəlif olmasıdır. Statistika praktikasında inzibati məlumatlardan istifadə edilməsini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsi ilə Mərkəzi Bank, Vergilər Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu arasında statistik məlumatların mübadiləsi haqqında razılaşmalar imzalanmışdır. Razılaşmaların əsas məqsədi iqtisadi proseslərin hərtərəfli və səmərəli diaqnostikasına imkan verən qarşılıqlı məlumat mübadiləsinin genişləndirilməsi və bu mübadilənin çevikliyinin artırılmasından ibarətdir. Razılaşma nəticəsində tərəflər hüquqi və fiziki şəxslərin fəaliyyətinə dair texniki-iqtisadi məlumatlar mübadiləsinin müasir informasiya texnologiyalarından istifadə etməklə aparılmasını məqsədəuyğun hesab edir və tələb olunan həcmdə məlumatların ötürülməsinə imkan verən zəruri texniki məsələləri həll etməyi öz öhdələrinə götürürlər. Eyni zamanda tərəflər razılaşma nəticəsində əldə etdikləri məlumatların yalnız təşkilatdaxili xidməti məqsədlər üçün istifadə ediləcəyinə və üçüncü tərəflərə verilməyəcəyinə təminat verirlər. Belə razılaşmalar rəsmi statistika hesabat formalarının ixtisara salınmasına imkan verir. Misal olaraq, Mərkəzi Bankla razılaşma imzalandıqdan sonra 3-bank, 6-MB (aylıq) və 6-MB (rüblük) hesabat formalarının ləğv edildiyini qeyd etmək olar. Son nəticədə isə qeyd etmək lazımdır ki, əgər 2013-cü ildə Mərkəzi Bank üzrə yalnız 6 işin yerinə yetirilməsində inzibati mənbələrdən istifadə edilmişdirsə, 2016-cı ildə bu mənbələrin sayı 42-yə çatdırılmışdır. Bu qrafik 1-də daha aydın görünür.




Qrafik 1. İnzibati mənbələrdən istifadə etməklə Mərkəzi Bank üzrə
yerinə yetirilən işlərin sayı

Dövlət statistika müşahidələrinin aparılmasına çəkilən xərclərin azaldılması məqsədi ilə inzibati məlumatlardan maksimum istifadə edilməlidir və bu zərurət dövlət statistika orqanlarının Normalar Məcəlləsinin "qənaətçilik" prinsipində də öz əksini tapmışdır [13]. Dövlət statistika orqanları statistik məqsədlər üçün istifadə edilən inzibati məlumatların konfidensiallığına zəmanət verir. Konfidensiallığın qorunması Qanunda, dövlət statistika orqanlarının əsasnamələrində, həmçinin Normalar Məcəlləsinin "statistik məlumatların konfidensiallığı" prinsipində vurğulanmışdır.

Respondentlərə düşən statistik yükün azaldılması istiqamətində həyata keçiriləcək ən mühüm addım statistik vahidə xas olmayan hesabat göstəricilərini istisna edən, göstəricilər arasında uyğunsuzluqları aradan qaldıran, onların təkrarlanmasını minimuma endirən və ciddi əhəmiyyət kəsb etməyən digər göstəricilərin sayını azaldan hesabat formasının, yəni "Ağıllı hesabat"ın tətbiqidir. Respondentlərə düşən statistik yükün azaldılması məqsədilə Dövlət Statistika Komitəsi tərəfindən statistik vahidlərin əhatə dairəsini dəqiq müəyyənləşdirən, statistik vahidlər tərəfindən təqdim olunan hesabatlar, onların məzmunu, dövriliyi, təqdimolunma müddəti haqqında məlumatları özündə birləşdirən onlayn elektron sorğu kitabları yaradılmış və tətbiq edilmişdir.

Gələcəkdə statistika sistemində respondentlərə düşən statistik yükün azaldılması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur ki, bunlara əvvəlki dövrə aid olan

göstəricilərin müəssisələrdən yığılmadan məlumat bazasından yüklənməsi, təqdim olunan hesabatların bir bazada yığılmasının təmin edilməsi, Komitənin struktur vahidlərinin öz aralarında və digər dövlət orqanları arasında məlumat mübadiləsi və icmal məlumatların onlayn təqdimat imkanlarının yaradılması, müasir texnologiyaların tətbiqi və istifadəsinin təşkili, inzibati məlumatlardan istifadənin genişləndirilməsi, onların məlumat resurslarının statistikanın informasiya sisteminə inteqrasiyası, sahibkarlara düşən informasiya yükünün müəyyənləşdirilməsinə dair statistik müayinələrin təşkili və s. aiddir.

Respondentlərə düşən statistik yükün azaldılması Dövlət Statistika Komitəsinin daim diqqət mərkəzində olan bir sahədir. Yeni statistik tələbləri qəbul etməzdən ilk əvvəl respondentlərə düşən statistik yükün ölçülməsi və təhlil işlərinin aparılması çox vacibdir. Beləliklə, gələcək illərdə mövcud olan bütün statistik məhsullar üzrə yüklərin ölçülməsi aparılacaqdır. Bunun üçün respondentlərə düşən statistik yükün ölçülməsi ilə bağlı ümumi bir metodologiyanın hazırlanmasına ehtiyac vardır. Bu gün bu sahədə vahid metodologiya olmasa da, bir çox ölkə təcrübələri və yanaşmaları mövcuddur. Misal üçün, pilot layihə kimi 2006-cı ildə Niderland Statistika İdarəsi tərəfindən hazırlanmış və həyata keçirilmiş ticarət, dəmir yolu və aviasiya statistikası sahələrində tətbiq olunan təmiz xərclər metodu vardır. Lakin bu metod üzrə də nəticə gözlənildiyi kimi ürəkaçan olmamış və yükün hesablanma metodikasının təkmilləşdirilməsinə ehtiyac yaranmışdır.

Yüklənmə və xərclər fərqli ölçmə metodlarından asılı olaraq, ayrı-ayrı ölkələr üzrə fərqlənirlər. Dünya praktikasında müxtəlif ölkələr tərəfindən təqdim olunan ölçməyə dair informasiyaların müxtəlif səviyyələri nəticələrin fərqlənməsinə təsir göstərir və müqayisə edilə bilən rəqəmlər olmadığına görə həm statistik xərclərin dəyişikliyini, həm də statistik yüklənmənin ümumi tendensiyasını müəyyən etmək qeyri-mümkün olur. Bununla belə qeyd etmək lazımdır ki, bir çox ölkələrdə ümumi inzibati yüklənmənin cəmi 1-2 faizini statistik yüklənmə əhatə edir ki, bu da olduqca aşağı göstəricidir.

Respondentlərə düşən statistik yükün ölçülməsi dedikdə ilk öncə bunun statistik institutlar tərəfindən necə həyata keçirildiyi maraq doğurur. Birinci növbədə bəzi fundamental suallar cavablandırılmalıdır: Hər hansı istifadəçi tələbləri varmı? Bütün suallara ehtiyac varmı və ya onlardan bəzilərini nəzərə almamaq olarmı? və s. Əvvəllər bəlkə də mövcud statistikada bu cür suallara cavab axtarmaq qeyri-mümkün idi. Lakin bu gün bu suallar daha çox müzakirə olunur.

Respondentlərə düşən statistik yükü azaltmaq üçün bir çox metodlardan istifadə olunur. Bunlara aşağıdakıları aid etmək olar:

- Fərdi məlumatların yığılması əvəzinə inzibati mənbələrdən istifadə;
- Seçilmiş (nümunə) prosedurun optimallaşdırılması;
- “Ağıllı hesabat”ın tətbiqi (elektron vasitələrin köməkliyi ilə);
- Məlumatların müəssisələrin ilkin bazasından avtomatik şəkildə götürülməsi (yəni müəssisə statistika orqanlarına imkan verir ki, müvafiq məlumatlar onun sistemindən avtomatik rejimdə götürülsün);
- “Ölü” (aktuallığını itirmiş) göstəricilərin silinməsi;
- Elektron xidmətlərin genişləndirilməsi və s.

Statistika təşkilatlarını mümkün olan təqdirdə ən çox fərdi məlumatların əvəzinə, sorğu anketinə əsaslanan inzibati məlumatlardan istifadə maraqlandırır. Burada 2 əsas üstünlük vardır: İnzibati reyestrlərdən istifadə edən statistika orqanlarının xərclərin azalması və respondentlərə düşən statistik yükün ixtisara salınması və ya aradan qaldırılması.

Rəsmi statistika hesabatlarını sadələşdirmək baxımından hesabatın mövcud vəziyyəti mütəmadi təhlil olunmalı, göstəricilərin sayının çoxluğu, təkrarçılığın olması, aidiyyatı olmayan sualların mövcudluğu öyrənilməli və qiymətləndirilməlidir. Müəssisə tərəfindən doldurulan bütün hesabat formalarına sərf olunan vaxt, adam-saatla ölçülən vaxt itkisi, eyni zamanda hesabat formalarının doldurulması ilə bağlı rast gəlinən çətinliklərdən azad olmaq üçün müəssisələrin təklifləri, həmçinin hesabat formasının təkmilləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb edə biləcək təkliflərin öyrənilməsi milli statistika orqanları tərəfindən aparılan müşahidələrlə əhatə olunmalıdır.

Beynəlxalq təcrübədən istifadə edərək statistik yükün azaldılması üçün məlumatların toplanması, birləşdirilməsi və inteqrasiyasının koordinasiya olunması, hesabat formalarının (göstəricilərin sayına toxunmamaqla) və göstəricilərin sayının azaldılması, hesabat formalarının

unifikasiyası (sadələşdirilməsi), müşahidələrin koordinasiya olunması, məlumatların elektron mübadiləsi kimi metod və üsullardan geniş istifadə olunması istiqamətində fəaliyyət proqramlarının işlənməsi zəruridir. Yuxarıda qeyd olunan tədbirlərin həyata keçirilməsi statistik yükün azaldılması istiqamətində ən əsas mərhələ olan "Ağıllı hesabat"ın tətbiqinə gətirib çıxarır. Bu hesabat formasının ən mühüm özəlliyi hesabatı dolduracaq respondentə (müşahidə vahidinə) xas olmayan göstəriciləri avtomatik olaraq istisna etməsi, bəzi göstəriciləri birləşdirməsi, artıq öz əhəmiyyətini itirmiş bir sıra göstəriciləri azaltması və s.-dən ibarətdir.

Respondentlərə düşən statistik yükü azaltmaq üçün istifadə olunan metodlardan biri yuxarıda qeyd edildiyi kimi, məlumatların müəssisələrin ilkin bazasından avtomatik şəkildə götürülməsidir. Belə ki, statistik vahid tərəfindən statistika orqanına müəyyən vaxt intervalında lazım olan informasiyaya çıxış imkanı yaradılır və statistika orqanı müvafiq statistik məlumatları müəssisənin məlumat sistemindən avtomatik şəkildə əldə edir. Sözsüz ki, bu proses statistika orqanı tərəfindən ilkin məlumatların məxfiliyinin təmin edilməsi şərtləri çərçivəsində həyata keçirilir. Beləliklə, həm statistika orqanı lazımi məlumatları əldə edir, həm də respondent statistik məlumatların təqdim edilməsində vaxt itkisinə yol vermir. Bu metoddan, əsasən, beynəlxalq təcrübədə, məsələn, Norveç Mərkəzi Statistika Bürosunda istifadə edilir.

Respondentlərə düşən statistik yükün azaldılmasında elektron xidmətlərin genişləndirilməsini də qeyd etmək lazımdır. Məsələn, əvvəllər statistik vahidlər hesabatları kağız formasında təqdim edirdilərsə, artıq informasiya və kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində ilkin məlumatların məxfiliyi təmin edilərək hesabatlar elektron formada qəbul edilir. Burada respondentlər (müşahidə vahidləri) məlumatları kağız üzərinə-blanka köçürmür, hesabatlar şəbəkə vasitəsilə statistika orqanlarına ötürülür. Statistika orqanları isə hesabat məlumatlarını hesabatdan kompüterə mexaniki qaydada deyil, birbaşa nəticələrin alınmasına yönəldir. Nəticədə, hesabatların doldurulması, statistika orqanlarına gətirilməsi, qəbulu və məlumatların kompüterlərə daxil edilməsi zamanı yaranan vaxt itkisi minimuma endirilir. Respondentlərin və statistiklərin üzərinə düşən yük azalır və əmək məhsuldarlığı artır.

Son illər Dövlət Statistika Komitəsində respondentlərə düşən statistika yükünün azaldılması istiqamətində aparılan işlərin nəticəsi olaraq qeyd etmək olar ki, rəsmi statistika hesabatları 2016-cı il yanvarın 1-i vəziyyətinə 3 ədəd azalaraq 261, onlardakı göstəricilərin sayı 124890, o cümlədən statistika orqanları tərəfindən icmallaşdırılan rəsmi statistika hesabatları 151 və onlardakı göstəricilərin sayı 38765 olmuşdur. İnzibati məlumatlar əsasında formalaşan reyestr ümumi reyestr məlumatlarının 5-6 faizini təşkil etdiyindən Komitənin əsas hədəfi bu göstəricinin ümumi reyestr məlumatlarına nisbətdə xüsusi çəkisinin artırılmasıdır. Bu istiqamətdə həyata keçirilən prosedurların məntiqi nəticəsini aşağıdakı dinamika sıralarından da görmək olar.

**Cədvəl 2**

**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 1992-2016-cı hesabat illəri üçün təsdiq edilmiş rəsmi statistika hesabatları və göstəricilərinin sayı**

| İllər | Hesabatların sayı, ədədlə | Hesabatlarda olan göstəricilərin sayı, min vahid |
|---|---|---|
| 1992 | 877 | 561,6 |
| 1995 | 501 | 281,1 |
| 2000 | 387 | 221,2 |
| 2005 | 337 | 119,3 |
| 2010 | 315 | 114,7 |
| 2011 | 297 | 114,4 |
| 2012 | 279 | 113,7 |
| 2013 | 275 | 121,0 |
| 2014 | 268 | 120,5 |
| 2015 | 264 | 121,5 |
| 2016 | 261 | 124,9 |

Həmçinin qeyd etmək lazımdır ki, 4-əmək (aylıq) №-li formanın respondentlər tərəfindən doldurulmasına sərf edilən vaxt sərfiyyatı 2014-cü illə müqayisədə 2015-ci ildə 12,5% azalaraq 12,6 dəqiqə, 1-əmək (illik) №-li forma üzrə 16,1% azalaraq 43,8 dəqiqə, 1-müəssisə (illik) №-li forma üzrə 14,63% azalaraq 21 dəqiqə, 1 №-li forma (İKT) (illik) üzrə 4,35% azalaraq 14,4 dəqiqə olmuşdur.




Diaqram 2

**Nəticə**

Ölkədə mövcud olan inzibati məlumat potensialından rəsmi statistik məlumatların hazırlanmasında mümkün qədər çox və sistemli istifadə olunması üçün aşağıdakı işlərin həyata keçirilməsi vacibdir:

**İnzibati məlumat sahibləri ilə məlumatların inteqrasiyasının təşkili**

– inzibati məlumat mənbələri ilə müqavilələrin bağlanılması (hüquqi əsas);
– məlumatların ötürülməsinə və qəbul edilməsinə cavabdehlik daşıyan şəxslərin adları və vəzifələrinin qeyd olunması;
– ötürüləcək məlumatların ətraflı təsviri;
– ötürüləcək məlumatların vaxtlılığı;
– ötürüləcək məlumatların keyfiyyət standartlarına cavab verməsi;
– tətbiq olunacaq statistik məxfilik rejimi;
– məlumatların ötürülməsi üçün lazım ola biləcək hər hansı maliyyə vəsaiti ehtiyatları;
– texniki standartlar;
– metaməlumatların təqdim olunması;
– baş verəcək proseduranın vaxtının müəyyənləşdirilməsi.

**Vahid identifikasiya sistemlərinin müəyyənləşdirilməsi**

– fərqlərin təhlili və təsirin qiymətləndirilməsi;
– statistik standartlara cavab verəcək keyfiyyətin qiymətləndirilməsi;
– keçid matrislərin və ya açarların yaradılması;
– vaxtlılıq fərqinin qiymətləndirilməsi: modellərin və yaxud digər uyğun gələn vasitələrin işlənməsi;
– eyni mövzulu müxtəlif mənbələrin müqayisəsi;
– ən etibarlı həll yolu üçün alternativ mənbələrin axtarılması.

**İnzibati məlumatların keyfiyyətinin təmin edilməsi ilə bağlı tədbirlər**

- statistik məqsədlər üçün istifadə olunacaq inzibati məlumatların metodoloji uyğunluq nəzarətinin qurulması, statistikada qəbul olunmuş məlumatların hesablanması metodologiyası və istifadə olunan milli təsnifat standartları ilə uyğunluğun təmin edilməsi;
- istifadə olunan metodologiyalarda, reyestrlərdə və informasiya sistemlərində baş verən dəyişikliklərin fasiləsiz monitorinqinin aparılması, eyni zamanda əldə olunacaq

məlumatların istifadəsinin mümkünlüyünün qiymətləndirilməsi üçün ehtiyacların müəyyən edilməsi;
- statistik müayinə metodlarının təkmilləşdirilməsi üçün inzibati məlumat mənbələrindən istifadə olunması;
- məlumatların məxfiliyinin qorunması şərti ilə inzibati məlumatlardan statistik məqsədlərdə istifadə olunması üçün müvafiq infrastrukturun yaradılması;
- inzibati məlumat mənbələri ilə məlumat mübadiləsinin həyata keçirilməsində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq olunması;
- statistik metodologiyanın, həmçinin məlumatların yığılmasının yeni metodları ilə bağlı tədris kurslarının və treninqlərin təşkili;
- işçi qrupların yaradılması, dəyirmi masalarda mütəxəssislərin iştirakının təşkil olunması;
- göstəricilərin dinamikasının aparılması üçün daimi nəzarətin və qeyd edilmiş alternativ mənbələrdəki məlumatlarla müqayisəliliyin təşkili;
- statistik müşahidələrdən, eyni zamanda inzibati mənbələrdən əldə edilmiş iqtisadi statistikaya dair məlumatların istifadəçilər tərəfindən düzgün istifadə olunması üçün təlimlərin təşkili;
- beynəlxalq tövsiyələrlə və milli qanunvericilik normaları ilə uyğunlaşan ilkin hesabatın, statistik və inzibati hesabat formalarının təkmilləşdirilməsi üzrə təkliflərin və hazırlıqların görülməsi.

**Qasım Əliyev, Toğrul Əcəlov**

**Rəsmi statistik məlumatların istehsalında inzibati məlumatların rolu**

**Xülasə**

Beynəlxalq və milli statistika təşkilatları statistik məlumatların əldə edilməsində səmərəliliyin artırılması və bu zaman xərc və insan ehtiyatlarına qənaət edilməsinə səy göstərirlər. Eyni zamanda statistik müayinələrdə respondentlərə düşən yükün azaldılması üçün tələblər də artmaqdadır. Bunları nəzərə alaraq, statistiklər məlumat toplanması vasitələri kimi ənənəvi yanaşmalara alternativ olan üsullara baxmalıdırlar. Məqalədə inzibati məlumatların statistika üçün əhəmiyyəti, bu sahədə qabaqcıl ölkələrin təcrübəsi, inzibati məlumatlar sahəsində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən görülən işlər və respondentlərə düşən statistik yükün azaldılması istiqamətində statistika orqanları qarşısında duran vəzifələr öz əksini tapmışdır.

**Гасым Алиев, Тогрул Аджалов**

**Роль административных данных в производстве официальной статистики**

**Резюме**

Международные и национальные статистические организации вкладывают большие усилия для повышения эффективности в сборе статистических данных, что способствует экономии финансовых и кадровых ресурсов. В то же время, растут и потребности в уменьшении статистической нагрузки на респондентов. Учитывая вышесказанное, статистики, наряду с традиционными методами сбора данных, должны рассматривать и альтернативные методы. В статье приведен пример значимости использования административных данных для статистики, рассмотрен опыт некоторых передовых стран в этой области, показан опыт работы с административными данными Государственного Комитета по Статистике Азербайджанской Республики и указаны задачи статистических органов, связанные с уменьшением нагрузки на респондентов.

**Gasim Aliyev, Toghrul Ajalov**

**The role of administrative data in production of official statistics**

**Summary**

International and national statistical offices put great efforts on increasing of efficiency in collecting of statistics that would bring savings in financial and staff resources. At the same time, there are growing demands for reducing of statistical burden on respondents. Taking into account above mentioned, statisticians, along with traditional data collection methods should seek

alternative methods. Article includes an example of significance of administrative data for statistics, experience of advanced countries in this area, ongoing works with administrative data by the State Statistical Committee of the Republic of Azerbaijan and duties of statistical bodies related with reduction of the burden on respondents.

### Ədəbiyyat


1. Register-based statistics in the Nordic countries. Review of the best practices with focus on population and social statistic. UN, New York and Geneva, 2007.
2. Availability, infrastructure, use and reuse of administrative data in statistics production. Sweden experience.
3. Business registers Recommendations manual. Eurostat, 2010 edition.
4. Using Administrative and Secondary Sources for Official Statistics. Steven Vale, UNECE, 2011.
5. İnzibati məlumat mənbələrindən alınan məlumatların statistika məlumatlarının hazırlanması mərhələlərinə, o cümlədən reyestr və hesabat sisteminə inteqrasiya olunmasına dair tövsiyələr. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2013.
6. Statistika üzrə əsas metodoloji göstərişlər. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2008.
7. Using administrative data to achieve better policy outcomes, http://www.pc.gov.au/about/governance/annual-reports/2012-13/02-annual-report-2012-13-chapter1.pdf
8. Use of Registers and Administrative Data Sources for Statistical Purposes. Best practice statistics in Finland. 2004.
9. Potential of administrative data in business statistics – a special focus in improvements in short term statistics, Hannele Orjala, Director, Business Trends Statistics, Statistics Finland, 9 October 2025.
10. “2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı - 21.12.2012, № 2621.
11. “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanunu - 18.02.1994, № 789.
12. “Azərbaycan Respublikasının statistik vahidlərin Dövlət registrinin yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı – 09.09.1992, № 496.
13. Azərbaycan Respublikası dövlət statistika orqanlarının Normalar məcəlləsi - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2011.

# KƏND TƏSƏRRÜFATI STATİSTİKASI ÜZRƏ SEÇMƏ MÜAYİNƏNİN TƏŞKİLİ

**Zərifə Nağıyeva**
*Elmi-Tədqiqat və İnnovasiyalar Mərkəzinin*
*Elmi araşdırmalar və statistik tədqiqat şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt:zarifan@azstat.org*

**Saleh Mövlamov**
*Elmi-Tədqiqat və İnnovasiyalar Mərkəzinin*
*Elmi araşdırmalar və statistik tədqiqat şöbəsinin aparıcı iqtisadçısı, i.ü.f.d.*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt:movlamov@azstat.org*

**Açar sözlər:** kənd təsərrüfatı statistikası, seçmə müayinə, reprezentativliyin qiymətləndirilməsi, seçmə xətası, seçmə həcmi
**Ключевые слова:** статистика сельского хозяйства, выборочное обследование, оценка репрезентативности, ошибка выборки, объем выборки
**Keywords:** agricultural statistics, sample survey, assessment of representativeness, sampling error, sample size

## 1. Giriş

Kənd təsərrüfatı statistikası dedikdə kənd təsərrüfatının vəziyyətini və inkişafını səciyyələndirən statistik məlumatların toplanması, işlənib hazırlanması, təhlili və yayılması üzrə işlərin təşkili başa düşülür.

Bütün sahələrdə olduğu kimi kənd təsərrüfatında da statistik məlumatların toplanması vahid proqram və metodologiya əsasında həyata keçirilir. Bu vahidlik onunla təmin edilir ki, hesabat və digər statistik müayinələrin blank formaları, eləcə də hesabatların doldurulması və bütün statistik müayinələrin aparılması üzrə təlimat ölkədə Dövlət Statistika Komitəsi tərəfindən işlənib hazırlanır.

Kənd təsərrüfatı üzrə statistik məlumatlar dövri hesabatlar, xüsusi siyahıyaalma və seçmə müayinələr əsasında əldə olunur. Toplanmış məlumatların keyfiyyəti təmin olunduqdan sonra qruplaşma, müxtəlif ümumiləşdirilmiş statistik göstəricilərin hesablanması, iqtisadi-statistik təhlillərin aparılması, yekun cədvəllərin alınması üzrə işlər həyata keçirilir.

Rəsmi statistikada kənd təsərrüfatı və kənd ərazilərinin vəziyyəti haqqında statistik məlumatların yığılması və işlənməsi aşağıdakı qurumlar tərəfindən formalaşdırılır [1]:

- ✓ əsasən icmallaşdırılması statistika sistemində mərkəzləşdirilmiş informasiya;
- ✓ Kənd Təsərrüfatı Nazirliyində - kənd təsərrüfatı bitkilərinin əkin (səpin) və yığımı, ot biçimi və yemin tədarükü, kənd təsərrüfatı texnikasının vəziyyəti və hərəkəti, yanacaq və enerji istehlakı, mineral gübrələrin təchizatı və s. haqqında operativ informasiya;
- ✓ Dövlət reyestrində - mövcud torpaqlar haqqında və onların kateqoriyaları, təsərrüfat yerləri və istifadəçilər üzrə bölgüsü, bu torpaqların vəziyyəti və kənd təsərrüfatı məhsullarının istehsalı üçün istifadəsi haqqında informasiya;
- ✓ gömrük orqanlarında - kənd təsərrüfatı məhsulları, maşın və avadanlıqların ixrac və idxalı haqqında informasiya.

Yuxarıda qeyd edildiyi kimi, statistik məlumatların əldə edilməsi yollarından biri seçmə statistik müayinələrin təşkilindən ibarətdir. Kənd təsərrüfatı üzrə seçmə müayinənin təşkili seçmə məcmunun formalaşdırılması qaydasını, seçmə məlumatların baş məcmuya şamil edilməsi və şamil olunmuş məlumatların reprezentativliyinin qiymətləndirilməsi üsulunu özündə əks etdirir. Bu

statistik müayinə bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı və satışı, kənd təsərrüfatı bitkilərinin əkin sahələri, mal-qaranın ümumi sayı haqqında informasiyanın əldə olunmasına imkan verir.

**2. Seçmə məcmunun formalaşması**

Ailə kəndli təsərrüfatları üzrə seçmə məcmunun formalaşmasında tipik (stratalı) seçmə üsulundan istifadə olunur. Seçmə vahidi və müşahidə vahidi ailə kəndli təsərrüfatlarıdır. Tipik qruplar bitkiçilikdə əkin sahəsi, heyvandarlıqda mal-qaranın və quşların sayı əsasında müəyyən olunur.

Tədqiqat 2005-ci il üzrə kənd təsərrüfatı siyahıyaalınması məlumatları əsasında aparılmışdır. Tədqiqat obyekti olaraq, Biləsuvar rayonu üzrə ailə kəndli təsərrüfatları məlumatlarından istifadə olunmuşdur. Mövcud məlumat bazası əsasında "Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi" (Bölmə 2) və "Mal-qara və quşların mövcudluğu" (Bölmə 4) bölmələri üzrə məlumatlar müəyyən olunur və ailə kəndli təsərrüfatları nəzərə alınmaqla yeni məlumat bazası formalaşdırılır. Bu məlumat bazasında tədqiq olunan göstəricilər üzrə aşağıdakı şəkildə kodlaşdırma aparılır.

**Cədvəl 1**

**Tədqiq olunan göstəricilərin əkin sahəsi və mal-qaranın sayına görə kodlaşdırılması**

| Sıra nömrəsi | Göstəricinin adı | Bölmə | Sətrin nömrəsi | Göstəricinin kodu | Ölçü vahidi |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi üzrə** | | | | | |
| 1 | Dənli və paxlalı bitkilər | B2 | 01 - 20 | 1 | ha |
| 2 | Texniki bitkilər | B2 | 21 -29 | 2 | ha |
| 3 | Kartof | B2 | 30 | 3 | ha |
| 4 | Tərəvəz və bostan bitkiləri | B2 | 32, 34 - 40, 42 - 45 | 4 | ha |
| 5 | Yem bitkiləri | B2 | 46 - 50, 52 - 58 | 5 | ha |
| **Kənd təsərrüfatı heyvanlarının sayı üzrə** | | | | | |
| 6 | İribuynuzlu mal-qara | B4 | 01 - 10, 12 - 21 | 1 | baş |
| 7 | Qoyun və keçilər | B4 | 23, 24, 26, 27, 29, 30, 32, 33 | 2 | baş |
| 8 | Donuzlar | B4 | 35 - 42 | 3 | baş |
| 9 | Atlar | B4 | 44 - 48 | 4 | baş |
| 10 | Dəvələr | B4 | 51, 53 | 5 | baş |
| 11 | Eşşəklər | B4 | 55,56 | 6 | baş |
| 12 | Bütün yaşlarda qatırlar | B4 | 58 | 7 | baş |
| 13 | Ev dovşanları | B4 | 59 | 8 | baş |
| 14 | Quşlar | B4 | 61, 62, 65 -69 | 9 | baş |
| 15 | Arı ailələri | B4 | 70 | 10 | baş |

Yuxarıdakı qaydada qruplaşma apardıqdan sonra rayon daxilində yaşayış ərazisinin hər bir təsərrüfatında müvafiq göstəricilər üzrə bitkilərin əkin sahəsi (mal-qaranın baş sayı) hesablanır və seçmə müayinənin əlamət göstəriciləri kimi istifadə olunur.

Seçmə şəbəkəni formalaşdırmaq üçün ilk növbədə statistik xarakteristika hesablanır. Bu, əsasən, SPSS proqram paketi vasitəsi ilə həyata keçirilir. Məlumat bazası SPSS proqram paketinə yüklənir. *Analyze* menyusunun *Reports* bölməsinin *Summarize Cases* altbölməsindən istifadə olunur. Ardıcıl olaraq müvafiq düymələri qeyd etməklə aşağıdakı pəncərə açılır.




Pəncərənin sol tərəfində yerləşən əlaqə panelində istifadə olunan məlumat bazasının göstəriciləri qeyd edilmişdir. Bura məntəqənin kodu (ndepart), ərazi kodu (nment), təsərrüfatın nömrəsi (nteser), bölmə (nquest), göstəricinin adları üzrə qruplaşma kodu (nov), əkin sahəsi, yaxud mal-qara və quşların sayı (sum_yekun) aid edilir. Tədqiq olunan göstərici (sum_yekun) *Variables* əlaqə panelinə, bu göstərici üzrə qruplaşma kodu isə (nov) *Grouping* panelinə daxil edilir. Statistik xarakteristikaları hesablamalara daxil etmək üçün *Statistics...* düyməsini aktivləşdirmək lazımdır. Yeni pəncərə açılmış olur.




*Summary Report Statistics* pəncərəsinin sol tərəfində *Statistics* əlaqə panelindən hesablanması tələb olunan statistik kəmiyyətlər sağ tərəfdəki *Cells Statistics* əlaqə panelinə ox vasitəsilə daxil edilir. Daha sonra ardıcıl olaraq, *Continue* və *OK* düymələri aktivləşdirilməklə nəticə əldə olunur.

Alınmış nəticələrdən istifadə olunmaqla aşağıdakı cədvəl formalaşır.

**Cədvəl 2**

**Biləsuvar rayonu üzrə kənd təsərrüfatı fəaliyyətini müayinə etmək üçün ailə kəndli təsərrüfatına dair layihələndirilmiş göstəricilərin riyazi-statistik xarakteristikaları (baş məcmu əsasında)**

| Sıra nömrəsi | Göstəricinin adı | Ölçü vahidi | Cəmi | Say | Göstəricinin orta qiyməti | Göstəricinin dispersiyası | Orta kvadratik kənarlaşma | Variasiya əmsalı, % | Göstəricinin minimum qiyməti | Göstəricinin maksimum qiyməti |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| **Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi** | | | | | | | | | | |
| 1 | Dənli və paxlalı bitkilər | ha | 391,22 | 149 | 2,63 | 3,50 | 1,87 | 71,29 | 0,005 | 12,80 |
| 2 | Kartof | ha | 2,53 | 41 | 0,06 | 0,02 | 0,14 | 221,49 | 0,00 | 0,77 |
| 3 | Tərəvəz və bostan bitkiləri | ha | 22,76 | 50 | 0,46 | 2,26 | 1,50 | 330,08 | 0,00 | 10,10 |
| 4 | Yem bitkiləri | ha | 64,84 | 56 | 1,16 | 0,68 | 0,82 | 71,09 | 0,02 | 3,35 |
| **Kənd təsərrüfatı heyvanlarının sayı** | | | | | | | | | | |
| 5 | İribuynuzlu mal-qara | baş | 917 | 155 | 5,92 | 16,25 | 4,03 | 68,13 | 1 | 31 |
| 6 | Qoyun və keçilər | baş | 2465 | 74 | 33,31 | 1320,11 | 36,33 | 109,07 | 1 | 260 |
| 7 | Atlar | baş | 10 | 9 | 1,11 | 0,11 | 0,33 | 30,00 | 1 | 2 |
| 8 | Quşlar | baş | 10687 | 165 | 64,77 | 1170,85 | 34,22 | 52,83 | 10 | 257 |

Variasiya əmsalı aşağıdakı düsturla hesablanmışdır:

$$V = \frac{S}{\bar{x}} * 100 \qquad (1)$$

burada, $S$ - standart kənarlaşma,
$\bar{x}$ - göstərici üzrə orta kəmiyyətdir.

Layihələndirilən göstəricilərin variasiya təhlili bir qayda olaraq, tədqiq olunan məcmunun həmcins olmadığını göstərir. Bu halda məcmunun tipik (həmcins) qruplara bölgüsünün həyata keçirilməsi zərurəti yaranır. Tədqiqat hər bir göstərici üzrə ayrı-ayrılıqda aparılır. Tədqiqat obyektləri kimi bu cədvəldən “Dənli və paxlalı bitkilər” və “İribuynuzlu mal-qara” göstəricilərindən istifadə olunur. İlk növbədə layihələndirilən bu göstəricilərin variasiya təhlili tədqiq olunan məcmunun həmcins olmadığını göstərir. Cədvəldən göründüyü kimi, bu göstəricilərin variasiya əmsalı müvafiq olaraq 71,29% və 68,13% təşkil etmişdir. Qrupların sayı aparılan təhlil vasitəsilə müəyyənləşir. Burada əsas şərt qruplar üzrə həmcinslik şərtinin ödənilməsidir, yəni variasiya əmsalının 35%-dən aşağı olmasıdır. Qruplaşma SPSS proqram paketindən istifadə etməklə aparılır.




Bunun üçün *Analyze* menyusunun *Classify* bölməsinin *K-Means Kluster...* altbölməsindən istifadə olunur. Düyməni aktivləşdirdikdən sonra açılmış pəncərənin sol tərəfində əlaqə panelində qeyd olunan göstəricilərin siyahısından təhlil olunan *sum_yekun* (Dənli və paxlalı bitkilər üzrə təsərrüfatın əkin sahəsi) əlamət göstəricisi ox vasitəsi ilə sağ tərəfdəki *Variables* panelinə yerləşdirilir. Pəncərədə *Numbe of Clusters* qarşısında olan oyuqda klasterlərin (qrupların) sayı qeyd olunur. Daha sonra pəncərənin *Save...* düyməsi aktivləşdirilərək açılmış yeni pəncərədən *Cluster membership* və *Distance from cluster senter* yazılarının sol tərəfindəki oyuqlar aktivləşdirilir və *OK* düyməsi basılır. Yaranmış qruplaşma üzrə statistik xarakteristika verilir. Alınmış nəticə əsasında variasiya əmsalı hesablanır.

**Cədvəl 3**

**Klasterlər (qruplar) üzrə həmcinslik şərtinin yoxlanması**

| Klasterin nömrəsi | Təsərrüfatların sayı | Minimum | Maksimum | Orta qiymət | Standart kənarlaşma | Variasiya əmsalı |
|---|---|---|---|---|---|---|
| 1 | 80 | 0,005 | 2,17 | 1,48 | 0,57 | 38,68 |
| 2 | 3 | 11,12 | 12,8 | 11,97 | 0,84 | 7,02 |
| 3 | 27 | 3,6 | 5,15 | 4,23 | 0,46 | 10,95 |
| 4 | 36 | 2,3 | 3,51 | 2,88 | 0,34 | 11,92 |
| 5 | 3 | 6 | 6,64 | 6,37 | 0,33 | 5,23 |
| yekun | 149 | 0,005 | 12,8 | 2,63 | 1,87 | 71,29 |

Alınmış nəticə göstərir ki, qruplar üzrə həmcinslik şərti demək olar ki, ödənilir. Qrupların sayını optimallaşdırmaq məqsədi ilə ikinci və beşinci qrupları birləşdirmək olar. Belə ki, bu qruplar üzrə təsərrüfatların sayı azdır və əkin sahələrinin intervalları, eləcə də variasiya əmsallarının qiyməti buna imkan verir. Yeni yaradılmış qrup üzrə orta kəmiyyət 9,17 standart kənarlaşma isə 3,12 olduğundan variasiya əmsalı $V$=3,12/9,17×100=34,01% təşkil edir. Variasiya əmsalının qiyməti yeni qruplaşmaya imkan verdiyindən nəticə aşağıdakı kimi alınır.

**Cədvəl 4**

**"Dənli və paxlalı bitkilərin əkin sahəsi" göstəricilərinə dair Biləsuvar rayonunun ailə kəndli təsərrüfatları üzrə tipik qruplaşmanın bölgüsü**

| Tipik qrupun nömrəsi | Əkin sahəsi üzrə intervallar | Təsərrüfatların sayı | Orta hesabla bir təsərrüfata düşən əkin sahəsi | Dispersiya | Variasiya əmsalı, % | Göstəricinin minimum qiyməti | Göstəricinin maksimum qiyməti |
|---|---|---|---|---|---|---|---|
| 1 | 0,005 - 2,17 | 80 | 1,48 | 0,33 | 38,68 | 0,01 | 2,17 |
| 2 | 2,3 -3,51 | 36 | 2,88 | 0,12 | 11,92 | 2,3 | 3,51 |
| 3 | 3,6 -5,15 | 27 | 4,23 | 0,21 | 10,95 | 3,6 | 5,15 |
| 4 | 6 -12,8 | 6 | 9,17 | 9,73 | 34,01 | 6 | 12,8 |
| | | | | | | | |
| Yekun | | 149 | 2,63 | 3,50 | 71,29 | 0,01 | 12,8 |

Tipik qruplara bölgüdən sonra layihələndirilmiş hər bir "əkin sahəsi" ("mal-qaranın sayı") göstəriciləri üzrə verilmiş standart seçmə xətası ilə seçmə həcminin layihələndirilməsi həyata keçirilir.

Seçmə məcmunun formalaşmasında qeyri-mütənasib bölgü əsasında tipik (stratalı) seçmə metodologiyasından istifadə olunur. Optimal tipik seçmə dedikdə qrupların sayı minimum, seçmə həcmi minimum (*n*) və verilmiş minimum standart xətası (*μ*) olan seçmə nəzərdə tutulur. Qeyri-mütənasib bölgü zamanı hər bir tipik qrupdan bərabər sayda müşahidə vahidi seçilir.

Seçmənin həcmi (*n*) standart xətanın verilmiş üç səviyyəsi əsasında hesablanır [2]:

$\bar{x}$ -nin $\mu_1$ =5% xətası üzrə ($\mu_1 = \frac{\bar{x}*5}{100}$),

$\bar{x}$ -nin $\mu_2$ =7% xətası üzrə ($\mu_2 = \frac{\bar{x}*7}{100}$),

$\bar{x}$ -nin $\mu_3$ =10% xətası üzrə ($\mu_3 = \frac{\bar{x}*10}{100}$)

$$n = \frac{k*\sum_1^k S_i^2 * \left(\frac{N_i}{N}\right)^2}{\mu^2 + \sum_1^k \frac{N_i}{N^2}} \qquad (2)$$

burada, $\bar{x}$ - layihələndirilmiş göstərici üzrə orta kəmiyyət,

*k* - layihələndirilmiş göstərici üzrə tipik qrupların sayı,

*N* - baş məcmu (dənli və paxlalı bitkilərin əkin sahəsi) üzrə ailə kəndli təsərrüfatlarının sayı,

$N_i$ - *i* tipik qrup üzrə ailə kəndli təsərrüfatlarının sayı,

$S_i^2$ - *i* tipik qrup üzrə əlamət göstəricisinin dispersiyası,

*μ* - baş məcmunun verilmiş mütləq standart xətasıdır.

Cədvəl 3 - də verilmiş qiymətlər əsasında seçmə həcmini müəyyən etmək olar. $\bar{x}$ -nin 5% standart xətası üzrə

$\mu_1 = \frac{\bar{x}*5}{100} = \frac{2,63*5}{100} = 0,13$ halında,

$$n = \frac{k*\sum_1^k S_i^2 * \left(\frac{N_i}{N}\right)^2}{\mu^2 + \sum_1^k \frac{N_i}{N^2} * S_i^2} = \frac{4*\left[0,33*\left(\frac{80}{149}\right)^2 + 0,12*\left(\frac{36}{149}\right)^2 + 0,21*\left(\frac{27}{149}\right)^2 + 9,73*\left(\frac{6}{149}\right)^2\right]}{0,13^2 + \left[\left(\frac{80}{149^2}\right)*0,33 + \left(\frac{36}{149^2}\right)*0,12 + \left(\frac{27}{149^2}\right)*0,21 + \left(\frac{6}{149^2}\right)*9,73\right]} = 23$$

$\bar{x}$ -nin 7% standart xətası üzrə

$\mu_1 = \frac{\bar{x}*7}{100} = \frac{2,63*7}{100} = 0,18$ halında,

$$n = \frac{4*\left[0,33*\left(\frac{80}{149}\right)^2 + 0,12*\left(\frac{36}{149}\right)^2 + 0,21*\left(\frac{27}{149}\right)^2 + 9,73*\left(\frac{6}{149}\right)^2\right]}{0,18^2 + \left[\left(\frac{80}{149^2}\right)*0,33 + \left(\frac{36}{149^2}\right)*0,12 + \left(\frac{27}{149^2}\right)*0,21 + \left(\frac{6}{149^2}\right)*9,73\right]} = 13$$

$\bar{x}$ -nin 10% standart xətası üzrə

$\mu_1 = \frac{\bar{x}*10}{100} = \frac{2,63*10}{100} = 0,26$ halında,

$$n = \frac{4*\left[0,33*\left(\frac{80}{149}\right)^2 + 0,12*\left(\frac{36}{149}\right)^2 + 0,21*\left(\frac{27}{149}\right)^2 + 9,73*\left(\frac{6}{149}\right)^2\right]}{0,26^2 + \left[\left(\frac{80}{149^2}\right)*0,33 + \left(\frac{36}{149^2}\right)*0,12 + \left(\frac{27}{149^2}\right)*0,21 + \left(\frac{6}{149^2}\right)*9,73\right]} = 7$$

qiymətləri alınır.

**Cədvəl 5**

**Seçmə həcminin layihələndirilməsi («Dənli və paxlalı bitkilərin əkin sahəsi» göstəricisi üzrə)**

| Baş məcmu üzrə təsərrüfatların sayı - N | Göstəri-cinin orta qiyməti | Seçmə standart xətasının verilmiş μ % qiymətində seçmənin həcmi | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | μ= 5 % halında seçmə sayı - n | Seçmənin faizi | μ= 7 % halında seçmə sayı - n | Seçmənin faizi | μ= 10 % halında seçmə sayı-n | Seçmənin faizi |
| 149 | 2,63 | 23 | 16% | 13 | 9% | 7 | 5% |

Verilmiş dəqiqliyin səviyyəsi üzrə seçmə həcminin hesablanmış üç variantından seçmə xətası minimum olan və baş məcmudan seçilmiş təsərrüfatların sayı 25%-i keçməyən variant qəbul olunur.

Cədvəldən göründüyü kimi, seçmə xətası minimum olan μ=5% halında seçmənin faizi 16 olduğundan 1-ci variant tətbiq olunur. Qəbul olunmuş bu variant üzrə hesablanmış seçmə həcmi tipik qruplar üzrə qrupdakı təsərrüfatların sayına nəzərən qeyri-mütənasib şəkildə bölünür, yəni hər qrupdan seçilmiş təsərrüfatların sayı bərabərdir.

$$n_i = \frac{n}{k} = \frac{23}{4} = 6 \cdot$$

Bunun ardınca hər bir *i* tipik qrupu üçün seçmənin addımı *($h_i$)* müəyyən olunur

$$h_i = \frac{N_i}{n_i},$$

Seçmənin addımı ($h_i$) tam olmadıqda tam ədədə yuvarlaqlaşdırılır. Hər bir *i* tipik qrupda seçmənin başlanğıcını (ilk seçilən təsərrüfat) həmin qrupun birinci intervalını yarıya bölən mövqedə yerləşən təsərrüfat təşkil edir: $a_{1_i} = \frac{h_i}{2}$ .

Bunun ardınca seçmənin başlanğıcına (*i* tipik qrupun birinci seçilmiş təsərrüfatı) $h_i$ seçmə addımı əlavə olunur: $a_{2_i} = \frac{h_i}{2} + h_i$ (*i* tipik qrupun ikinci seçilmiş təsərrüfatı) və s.:

$a_3 = \frac{h_i}{2} + h_i + h_i$ , ..., $a_{n_i} = \frac{h_i}{2} + h_i + ... + h_i$ (*i* tipik qrupun sonuncu seçilmiş təsərrüfatı).

Beləliklə, tipik qruplar üzrə seçmənin hesablanmış həcminin bölgüsü verilərək seçmə addımı hesablanır, seçiləcək ilk təsərrüfat müəyyən edilir.

**Cədvəl 6**

**Seçmə həcminin bölgüsü (qeyri-mütənasib bölgü)**

| Tipik qrupun nömrəsi | Təsərrüfatların sayı | Seçmənin addımı | Seçmənin başlanğıcı | Qruplar üzrə seçilmiş təsərrüfatların sayı |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| 1 | 80 | 13 | 7 | 6 |
| 2 | 36 | 6 | 3 | 6 |
| 3 | 27 | 5 | 2 | 6 |
| 4 | 6 | 1 | 1 | 6 |
| seçilmişdir | | | | 24 |

Vahidlərin seçimi zamanı aşağıdakı şərtlərin ödənilməsi zəruridir:

- ✓ seçmə həcmindən asılı olmayaraq, tipik qrupdan seçilən vahidlərin sayı ikidən az olmamalıdır;
- ✓ seçmə həcmi layihələndirilən zaman məcmunun 50%-dən çox hissəsi seçməyə düşürsə, baş məcmunun bütün vahidləri seçmə müayinəyə daxil edilir;
- ✓ əgər *i* tipik qrupu üzrə hesablanmış $n_i$ seçmə həcmi həmin qrupun baş məcmuda olan təsərrüfatlarının sayından $N_i$ böyük olarsa ($n_i > N_i$), onda həmin qrup bütövlükdə seçmə məcmuya daxil edilir;
- ✓ sonuncu tipik qrupun axırıncı təsərrüfatı seçməyə daxil edilir.

Baş məcmu əsasında nümunələr (təsərrüfat vahidləri) seçildikdən sonra seçmə məcmu formalaşdırılaraq onun siyahısı tərtib olunur.

### 3. Ailə kəndli təsərrüfatlarının seçmə müayinəsi məlumatlarının baş məcmuya şamil olunması

Qiymətləndirmədə "Kənd təsərrüfatı bitkilərinin yığımı haqqında" və "Heyvandarlıq məhsullarının istehsalı haqqında" hesabat formalarının bütün göstəriciləri iştirak edir.

Əgər təsərrüfat seçmədə bir neçə siyahı üzrə iştirak edirsə və siyahıdakı bitkilərdən (mal-qara və quş növlərindən) biri üzrə deyil, bir neçəsi üzrə əkin sahəsi (mal-qaranın sayı) mövcuddursa, həmin təsərrüfat uyğun bitkilər (mal-qara və quş növü) üzrə olan siyahının hər birinə daxil edilir.

Məlumatlar daxil edildikdən sonra baş məcmuya şamil olunmamışdan qabaq hər bir seçmə məcmu üzrə məlumatların doldurulmasına nəzarət olunur.

Seçmə məcmunun hər bir *i* tipik qrupu üzrə "Əkin/yığım sahəsi" ("Mal-qara və quşların sayı"), "Faktiki məhsul yığımı" ("Heyvandarlıq məhsulları istehsal olunmuşdur"), "Kənd təsərrüfatı məhsulları satılmışdır" göstəricilərinin yekun qiymətləri üzrə aşağıdakılar hesablanır [2]:

• *i* tipik qrupunda bir təsərrüfata düşən göstəricinin orta qiyməti

$$\tilde{x}_i = \frac{\sum_{1}^{n_i} x_i}{n_i}, \qquad (3)$$

Burada, $x_i$ - seçmə məcmunun *i*-ci tipik qrupundan seçilmiş təsərrüfatın əkin/yığım sahəsidir

(mal-qara və quşların sayı, satılmış kənd təsərrüfatı məhsullarının həcmi),

$n_i$ - seçmə məcmunun *i*-ci tipik qrupunda təsərrüfatların sayıdır;

• kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı (mal-qara və quşların səmərəliliyi)

$$\tilde{z}_i = \sum_{1}^{n_i} y_i : \sum_{1}^{n_i} x_i, \qquad (4)$$

Burada, $\sum_{1}^{n_i} y_i$ - seçmə məcmunun *i*-ci tipik qrupundan seçilmiş təsərrüfatlardan faktiki məhsul yığımıdır (heyvandarlıq məhsullarının istehsalı həcmi),

$\sum_{1}^{n_i} x_i$ - seçmə məcmunun *i*-ci tipik qrupundan seçilmiş təsərrüfatların əkin sahəsidir (mal-qara və quşların sayı);

Məcmunun *i* tipik qrupunun təsərrüfatları üçün hesablanmış bu göstəricilər baş məcmuda verilmiş tipik qrupun xarakteristikalarına uyğun qəbul olunur.

Kənd təsərrüfatı bitkilərinin əkin sahəsinin (mal-qara və quşların sayının) $\widehat{X}_{bash}$ qiymətləndirilməsi seçmə məcmunun *i* tipik qrupu üzrə seçmə məcmuda bir təsərrüfata düşən orta əkin sahəsini (mal-qara və quşların sayını) baş məcmuda *i* tipik qrupdakı təsərrüfatların sayına ($N_i$) vurmaqla alınır. Daha sonra k sayda qrup üzrə cəmlənir:

$$\widehat{X}_{bash} = \sum_{i=1}^{k} \widetilde{x}_i * N_i, \qquad (5)$$

Hər bir seçmə məcmu üzrə *i* tipik qrupun hər birində kənd təsərrüfatı bitkilərinin məhsul yığımının (heyvandarlıq məhsulları istehsalının) faktiki qiyməti kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını (mal-qara və quşların səmərəliliyini) ifadə edən $\widetilde{z}_i$ kəmiyyətinin $X_i$ əkin sahəsinə hasili ilə müəyyən olunur.

$$Y_i = \widetilde{z}_i * X_i, \qquad (6)$$

burada, $X_i = \widetilde{x}_i * N_i$.

Daha sonra tipik qruplar üzrə qiymətləndirilmiş göstəricilər toplanaraq, ailə kəndli təsərrüfatları üzrə hər bir kənd təsərrüfatı bitkisinin faktiki məhsul yığımı, heyvandarlıq məhsullarının istehsalı təyin olunur:

$$\widehat{Y}_{bash} = \sum_{1}^{k} \widetilde{z}_i * X_i \qquad (7)$$

burada, *k* -tipik qrupların sayıdır.

**Cədvəl 6**

**Biləsuvar rayonunun ailə kəndli təsərrüfatına dair məlumatların baş məcmuya şamil edilməsi "Dənli və paxlalı bitkilərin əkin sahəsi" göstəricisi üzrə**

| Tipik qrupun nömrəsi | Qrupda təsərrüfatların sayı | | Tipik qrupda göstəricinin yekun qiyməti | Tipik qrupda göstəricinin orta qiyməti | Tipik qrupda göstəricinin şamil olunmuş qiyməti | Seçmə məcmunun tipik qrupda dispersiyası |
|---|---|---|---|---|---|---|
| | baş məcmu | seçmə məcmu | | | | |
| 1 | 2 | 3 | 4 | 5 = 4 : 3 | 6=5 * 2 | 7 |
| 1 | 80 | 6 | 8,96 | 1,49 | 119,47 | 0,32 |
| 2 | 36 | 6 | 17,1 | 2,84 | 102,30 | 0,11 |
| 3 | 27 | 6 | 25,6 | 4,27 | 115,20 | 0,27 |
| 4 | 6 | 6 | 55 | 9,17 | 55,04 | 9,73 |
| Cəmi | 149 | 24 | | | | |
| Rayon üzrə şamil olunmuş qiymət | | | | | 392,01 | |
| Qiymətləndirilmiş orta kəmiyyət | | | | 2,63 | | |

### 4. Ailə kəndli təsərrüfatları və fərdi sahibkarlar üzrə seçmə məlumatların reprezentativliyinin qiymətləndirilməsi

Seçmənin mütləq və nisbi standart xətası ($\mu_i$) "Kənd təsərrüfatı məhsullarının yığımı haqqında" və "Heyvandarlıq məhsullarının istehsalı və mal-qaranın sayı haqqında" hesabat formaları göstəriciləri üzrə hesablanır.

Qeyri-mütənasib bölgü üzrə aparılmış seçmədə $\bar{x}$ orta kəmiyyətinin mütləq standart xətası

$$\mu_{\bar{x}} = \sqrt{\frac{k}{n} * \sum_{i=1}^{k} \left(\frac{N_i}{N}\right)^2 * S_i^2 * \left(1 - \frac{n}{k * N_i}\right)} \qquad (8)$$

faizlə verilən nisbi standart xətası isə

$$\mu_{\%} = \frac{\mu_{\bar{x}}}{\bar{x}} * 100 \qquad (9)$$

düsturu ilə hesablanır.

Göstəricinin yekun qiymətinin mütləq standart xətası

$$\mu_{x'} = \sqrt{\frac{k}{n} * \sum_{i=1}^{k} N_i^2 * S_i^2 * \left(1 - \frac{n}{k * N_i}\right)} \qquad (10)$$

nisbi standart xətası (%) isə aşağıdakı düsturla hesablanır.

$$\mu_{\%} = \frac{\mu_{x'}}{\widehat{X}} \cdot 100 \qquad (11)$$

Burada, $S_i^2 = \frac{\sum_{1}^{N_i} (x_i - \bar{x}_i)^2}{n - 1}$ seçmə məcmunun $i$ tipik qrupu üzrə əlamət göstəricisinin dispersiyası,

$\widehat{X}$ - seçmə məcmu göstəricisinin baş məcmuya şamil olunmuş qiymətidir.

Dənli və paxlalı bitkilərin əkin sahəsi üzrə $\bar{x}$ orta kəmiyyətinin mütləq standart xətası:

$$\mu_{\bar{x}} = \sqrt{\frac{k}{n} * \sum_{i=1}^{k} \left(\frac{N_i}{N}\right)^2 * S_i^2 * \left(1 - \frac{n}{k * N_i}\right)} =$$

$$= \sqrt{\frac{4}{24} * \left[\left(\frac{80}{149}\right)^2 * 0{,}32 * \left(1 - \frac{24}{4*80}\right) + \left(\frac{36}{149}\right)^2 * 0{,}11 * \left(1 - \frac{24}{4*36}\right) + \left(\frac{27}{149}\right)^2 * 0{,}27 * \left(1 - \frac{24}{4*27}\right) + \left(\frac{6}{149}\right)^2 * 9{,}73 * \left(1 - \frac{24}{4*6}\right)\right]} = 0{,}1$$

faizlə verilən nisbi standart xətası isə

$$\mu_{\%} = \frac{\mu_{\bar{x}}}{\bar{x}} \cdot 100 = \frac{0.1}{2.63} \times 100 = 4.8$$

təşkil edir.

Göstəricinin yekun qiymətinin mütləq standart xətası

$$\mu_{x'} = \sqrt{\frac{k}{n} * \sum_{i=1}^{k} N_i^2 * S_i^2 * \left(1 - \frac{n}{k * N_i}\right)} =$$

$$= \sqrt{\frac{4}{24} * \left[80^2 * 0{,}32 * \left(1 - \frac{24}{4*80}\right) + 36^2 * 0{,}11 * \left(1 - \frac{24}{4 \times 36}\right) + 27^2 * 0{,}27 * \left(1 - \frac{24}{4*27}\right) + 6^2 * 9{,}73 * \left(1 - \frac{24}{4*6}\right)\right]} = 18{,}9$$

düsturu ilə, nisbi standart xətası (%) isə aşağıdakı düsturla hesablanır.

$$\mu_{\%} = \frac{\mu_{x'}}{\widehat{X}} \bullet 100 = \frac{18{,}9}{392{,}01} \bullet 100 = 4{,}83$$

Digər göstəricilər üzrə hesablamalar analoji qaydada aparılır. “Mal-qara və quşların mövcudluğu” (Bölmə 4) bölməsinin iribuynuzlu mal-qara növü üzrə hesablamalar əlavədə təqdim olunur.

**Nəticə**

- Kənd təsərrüfatı statistikası üzrə məlumatların toplanması üçün siyahıyaalma məlumatlarından istifadə edilməlidir;
- Siyahıyaalma məlumatlarına əsasən ayrı-ayrı məhsul növlərinin və ya mal-qaranın baş sayına görə registrlər hazırlanmalıdır;
- Seçmə statistik müşahidələr daim aktuallaşan statistik registrlərə görə aparılmalıdır;
- Müşahidə məlumatları ayrı-ayrı məhsulların əkin sahəsi üzrə yekunlaşdırılmalıdır;
- Məlumatların keyfiyyət göstəriciləri ayrı-ayrı məhsullar üzrə müəyyən edilməlidir;
- Müşahidə məlumatlarının redaktəsi yekuna görə deyil, mikroməlumatlara (ilkin məlumatlara) əsasən yerinə yetirilməlidir;
- Kənd təsərrüfatı statistikasının məlumatlarının işlənməsi və yekunlaşdırılması üzrə mövcud texnologiya dəyişdirilməli, müasir texnologiya tətbiq edilməlidir.

Hazırkı mövzunun təhlilində aşağıda əlavə edilmiş məlumatlardan istifadə edilmişdir.

**Əlavə 1**

**Biləsuvar rayonunun ailə kəndli təsərrüfatlarına dair tipik qruplaşmanın bölgüsü “Mal-qaranın sayı, baş” göstəricisi üzrə**

| Tipik qrupun nömrəsi | Mal-qaranın sayı üzrə intervallar | Təsərrü-fatların sayı | Orta hesabla bir təsərrüfata düşən mal-qaranın sayı | Dispersiya | Variasiya əmsalı, % | Göstəricinin minimum qiyməti | Göstəricinin maksimum qiyməti |
|---|---|---|---|---|---|---|---|
| 1 | 1 -3 | 40 | 2,45 | 0,36 | 24,37 | 1 | 3 |
| 2 | 4 -8 | 87 | 5,37 | 1,82 | 25,11 | 4 | 8 |
| 3 | 9 -15 | 25 | 11,2 | 3,00 | 15,46 | 9 | 15 |
| 4 | 20 - 31 | 3 | 24 | 37,00 | 25,34 | 20 | 31 |
| Yekun | | 155 | 5,92 | 16,25 | 68,13 | 1 | 31 |

**Əlavə 2**

**Biləsuvar rayonunun ailə kəndli təsərrüfatlarına dair seçmə həcminin layihələndirilməsi “Mal-qaranın sayı, baş” göstəricisi üzrə**

| Baş məcmu üzrə təsərrüfatların sayı -N | Göstəricinin orta qiyməti | Seçmə standart xətasının verilmiş µ % qiymətində seçmənin həcmi | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | µ= 5 % halında seçmə sayı-n | Seçmənin faizi | µ= 7 % halında seçmə sayı-n | Seçmənin faizi | µ= 10 % halında seçmə sayı-n | Seçmənin faizi |
| 155 | 5,92 | 27 | 17% | 15 | 10% | 8 | 5% |

**Əlavə 3**

## Biləsuvar rayonunun ailə kəndli təsərrüfatlarına dair seçmə həcminin bölgüsü (qeyri-mütənasib bölgü)

| Tipik qrupun nömrəsi | Təsərrüfatların sayı | Seçmənin addımı | Seçmənin başlanğıcı | Qruplar üzrə seçilmiş təsərrüfatların sayı |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| 1 | 40 | 5 | 3 | 8 |
| 2 | 87 | 11 | 5 | 8 |
| 3 | 25 | 3 | 2 | 8 |
| 4 | 3 | 1 | 1 | 3 |
| seçilmişdir | | | | 27 |

**Əlavə 4**

## Biləsuvar rayonunun ailə kəndli təsərrüfatlarına dair məlumatların baş məcmuya şamil edilməsi «Mal-qaranın sayı, baş» göstəricisi üzrə

| Tipik qrupun nömrəsi | Qrupda təsərrüfatların sayı | | Tipik qrupda göstəricinin yekun qiyməti | Tipik qrupda göstəricinin orta qiyməti | Tipik qrupda göstəricinin şamil olunmuş qiyməti | Seçmə məcmunun tipik qrupda dispersiyası |
|---|---|---|---|---|---|---|
| | Baş məcmu | Seçmə məcmu | | | | |
| 1 | 2 | 3 | 4 | 5 = 4 : 3 | 6=5 * 2 | 7 |
| 1 | 40 | 8 | 20 | 2,50 | 100,00 | 0,29 |
| 2 | 87 | 8 | 43 | 5,38 | 467,63 | 2,27 |
| 3 | 25 | 8 | 89 | 11,13 | 278,13 | 2,98 |
| 4 | 3 | 3 | 72 | 24,00 | 72,00 | 37,00 |
| Cəmi | 155 | 27 | | | | |
| Rayon üzrə şamil olunmuş qiymət | | | | | 917,75 | |
| Qiymətləndirilmiş orta kəmiyyət | | | | 5,92 | | |

$$\mu_{\bar{x}} = \sqrt{\frac{k}{n} * \sum_{i=1}^{k} \left(\frac{N_i}{N}\right)^2 * S_i^2 * \left(1 - \frac{n}{k * N_i}\right)} =$$

$$= \sqrt{\frac{4}{27} * \left[\left(\frac{40}{155}\right)^2 * 0{,}29 * \left(1 - \frac{27}{4*40}\right) + \left(\frac{87}{155}\right)^2 * 2{,}27 * \left(1 - \frac{27}{4*87}\right) + \left(\frac{25}{155}\right)^2 * 2{,}98 * \left(1 - \frac{27}{4*25}\right) + \left(\frac{4}{155}\right)^2 * 37 * \left(1 - \frac{27}{4*4}\right)\right]} = 0{,}1$$

$$\mu_{\%} = \frac{\mu_{\overline{x}}}{\overline{x}} \cdot 100 = \frac{0.1}{2{,}63} * 100 = 4{,}8$$

$$\mu_{x'} = \sqrt{\frac{k}{n} * \sum_{i=1}^{k} N_i^2 * S_i^2 * \left(1 - \frac{n}{k * N_i}\right)} =$$

$$= \sqrt{\frac{4}{27} * \left[40^2 * 0{,}29 * \left(1 - \frac{27}{4*40}\right) + 87^2 * 2{,}27 * \left(1 - \frac{27}{4*87}\right) + 25^2 * 2{,}98 * \left(1 - \frac{27}{4*25}\right) + 4^2 * 37 * \left(1 - \frac{27}{4*4}\right)\right]} = 18{,}9$$

$$\mu_{\%} = \frac{\mu_{x'}}{\widehat{X}} \cdot 100 = \frac{18{,}9}{392{,}01} * 100 = 4{,}83$$

**Zərifə Nağıyeva, Saleh Mövlamov**

**Kənd təsərrüfatı statistikası üzrə seçmə müayinənin təşkili**

**Xülasə**

Məqalədə kənd təsərrüfatı statistikası üzrə seçmə müayinənin təşkili məsələləri nəzərdən keçirilmişdir. Burada ailə kəndli təsərrüfatları üzrə seçmə məcmunun formalaşdırılması qaydası, seçmə məlumatların baş məcmuya şamil edilməsi və şamil olunmuş məlumatların reprezentativliyinin qiymətləndirilməsi üsulu verilmişdir.

**Зарифа Нагиева, Салех Мовламов**

**Организация выборочного обследования по статистике сельского хозяйства**

**Резюме**

В статье были рассмотрены организационные вопросы выборочного обследования по статистике сельского хозяйства. Данный материал содержит порядок формирования выборочной совокупности семейных-крестьянских хозяйств, а также порядок распространения выборочных данных на генеральную совокупность и оценки репрезентативности распространенных данных.

**Zarifa Nagiyeva, Saleh Movlamov**

**Organization of a sample survey on agricultural statistics**

**Summary**

The article deals with organizational issues a sample of sample survey on agricultural statistics. Formulation rules of sample frame of family-peasant farms, inclusion of sample data in the aggreagates and assessment of the included data representativeness.

**Ədəbiyyat**

1. «Методология и организация сельскохозяйственной статистики: текущее состояние и проблемы». Федеральная служба государственной статистики. К.Э. Лайкам. Заместитель руководителя Росстата, Москва 2013.
2. Методические указания по проведению выборочного статистического наблюдения за сельскохозяйственной деятельностью крестьянских (фермерских) хозяйств и индивидуальных предпринимателей. Утверждены приказом Росстата от 6 октября 2009 г., № 215.
3. 2005-ci il kənd təsərrüfatı siyahıyaalınması. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2006

## 2016-cı İLİN DOQQUZ AYI ÜZRƏ ÖLKƏNİN MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

